


## Ermənistanda daxili qarşıdurma pik həddə çata bilər

*Artıq bir neçə gündür Ermənistanda parlament seçkilərində iştirak edəcək namizədlər seçkiqabağı təşviqata başlayıb. "Qallap"ın (Gallup) seçkiqabağı son sorğusunun nəticələrinə görə, Paşinyanın rəhbərlik etdiyi Mənim Addımım Partiyası respondentlərin 22,9 faiz səsini toplayıb. Köçəryanın rəhbərlik etdiyi "Ermənistan" blokunun...*

Səh.13


# UNİKAL

№21 (2059) 11 İYUN 2021-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.org

unikal-1@mail.ru




## Əbülfəs Qarayevin daha bir paxırı açıldı

Səh.8



## Oqtay Şirəliyevin kadrlarının başı dərddə: həbslər başladı

## İllər uzunu kino sahəsinə ayrılan milyonlarla manat necə mənimsənilib?

*Yola salmaq üzrə olduğumuz həftəyə damğa vuran hadisələrdən biri də Maliyyə naziri Samir Şərifovun Azərbaycan kinosunun inkişafı ilə bağlı dövlət büdcəsindən ayrılan maliyyə vəsaitinin faktiki olaraq effektsiz xərcləndiyini dilə gətirməsi oldu. "Hesab edirəm ki, bununla bağlı sorğuları Mədəniyyət Nazirliyinə göndərmək olar" deyən nazir parlamentin iclasında deputatların suallarını cavablandırarkən onu da bildirdi ki, Azərbaycan Prezidentinin müvafiq sərəncamı ilə milli kinematoqrafiyanın dövrün tələblərinə uyğun inkişaf etdirilməsinə dair "Azərbaycan Kinematoqrafiyasının İnkişaf Konsepsiyası"nın layihəsi hazırlanıb: "Konsepsiya layihəsi bir neçə dəfə Maliyyə Nazirliyinə təqdim olunub. Ancaq etiraf edim ki...*

Səh.12

## "Hansısa mötəbər "gizli əl" ölkədə sivil siyasi mübarizədə maraqlı deyil"



*Son günlər Yoluxma hallarının azalması, karantin şərtlərinin yumşaldılması cəmiyyətdəki gərginliyi bir qədər azaldıb. Bu səbəbdən də bir qism yumşalma tədbirlərinin davamlı olmasını təklif etsə də, bir qism tələsməməyi doğru hesab edir. "Unikal" qəzetinə müsahibə verən ADP sədrinin müavini...*

Səh.4

## Samir Nuriyev şəhid ailələri və müharibə iştirakçıları ilə bağlı tapşırıqlar VERDİ



*Azərbaycan Respublikası Prezidentinin 2020-ci ilin 24 noyabr tarixli sərəncamı ilə işğaldan azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həlli üçün yaradılmış Əlaqələndirmə Qərargahının növbəti iclası keçirilib. Unikal.org xəbər verir ki, iclası açan Prezident Administrasiyasının və Qərargahın rəhbəri...*

Səh.2

## "Azərbaycan haqq işini sona çatdıracaq"



*Azərbaycan 28 il işğal altında olan torpaqlarını işğaldan azad etməklə Dağlıq Qarabağ həqiqətlərinin dünyaya çatdırılmasına əsl imkan yaranıb. Viran qoyulmuş kənd və şəhərlər, təhqir edilmiş ibadət yerlərimiz, dağıdılmış tarixi- mədəni abidələrimiz erməni vəhşiliyinin simasıdır.*

Səh.15

# Vəfadan Mənzurəyə AĞIR SÖZLƏR: "Ayıb olsun, yanımda başı aşağıdır"





***Müğənni Vəfa Şərifova həmkarı Mənzurə Musayeva haqqında qalmaqallı açıqlamalar verib.***

Lent.az-a açıqlama verən V.Şərifova M.Musayevanın "Duet oxuyanlar bir-biri ilə sevgilidir", - sözlərinə münasibət bildirib: "Mən Aqşin Fatehlə, İfratla duet oxumuşam. Heç kim mənə o sözü deyə bilməz. Ayıb olsun, o sözü deyənlərə. Ayıbdır, insan o sözü necə dilinə gətirə bilər ki? Ümumiyyətlə, adam ümumi danışmamalıdır. Mən heç zaman ümumi danışa bilmərəm. Üç-beş adam belədirsə, hamı elə deyil.

Mən Tacir Şahmalı oğlu ilə də sevgili olmamışam. Mən onun tələbəsi olmuşam. O mənə sənət verib.

Gündəmə gəlmək üçün axırıncı yollara əl atırlar. Beş günlük gündəm üçün kiminsə qəlbini niyə qırırsan? Məni bu şou aləmində heç kim susdura bilməz. Bu şou-biznesdə hamının yanında başım dikdir. Amma çoxlarının mənim yanımda başı aşağıdır".

Qeyd edək ki, M.Musayevanın "Duet oxuyanlar bir-birləri ilə sevgilidir" açıqlamasına görə Manaf Ağayevlə də aralarında qalmaqal olmuşdu.

Lent.az-a açıqlamasında M.Ağayev həmkarı haqda bu sözləri demişdi: "Mənzurənin sözləri düzgün deyil. Könül Kərimova ilə duet oxumuşam. Onunla sevgiliyəm? Arzu Qarabağlı ilə də duet oxumuşam. O deməkdir ki, sevgiliyik? Hansısa müğənnidən duet təklifi alırıq, səsimiz uyğun gəlir, oxuyuruq. Bunu yozmaq düzgün deyil. Onun dediyi sözlərdə həqiqət də var. Çünki biriylə sevgili olan duet oxuyanlar var. Adam da var ki, bir yerdə toya getməyiblər, amma sevgilidirlər. Ümumi danışmaq lazım deyil. Mənə az fərq edir. Qorxan oğlan deyiləm".

# "Manaf nəyimə lazımdır ki, onunla duet oxuyum" - Mənzurə



***Müğənni Mənzurə Musayeva "Xəbər-ətər" proqramına qonaq olub.***

Unikal.org xəbər verir ki, o, proqram biyunca maraqlı açıqlamalar verib. Belə ki, Mənzurə aparıcının Manaf Ağayevlə duet oxumaq istəyib, istəmədiyi haqda suala əsəbiləşib.

"Heç Manafla duet oxumaram. Manaf nəyimə lazımdır. Manafla tanınmamışam ki?! Oxusam 20 il əvvəl oxuyardım. Onu çox istəyirəm, özü də bilir. Bir dəfə mənə 5 min lazım idi, istədim vermədi. Kimsə istəsə, bəlkə verər, amma mənə yox".

Mənzurə bildirib ki, heç vaxt həmkarı ilə birlikdə oxumağı düşünmür.

# Məşhurlar xınayaxdıya bu qiymətə gedirlər: 7-9 min manat

***"MTV" kanalında yayımlanan "6/8 axşam şousu"nda incəsənət nümayəndələrinə zəng edilərək onlardan xınayaxdı məclisinə neçəyə getdikləri soruşulub.***

Beləliklə, sənət adamlarının xınayaxdı qiymətləri belədir: Əməkdar artist Tünzalə Əliyevanın ("Toppuş bacı") getdiyi xınayaxdı məclislərinin qiyməti 500-4000 manat arasında dəyişir.



Rəqqasə Fatimə Fətəliyeva yarım saat üçün 2500 manat, bütöv məclis üçün isə 7-9 min manat tələb edir.

Müğənni Xatirə I?slamın təşkil etdiyi xınayaxdı məclisləri isə 1500-5000 manat arasında dəyişir.

Müğənni Xuraman şuşalının xına məclisi 2000 manatdan başlayır.

Çinarə Əliyevanın apardığı xına məclislərinin qiyməti 5 min manatdan başlayır.

# Xaricdə evi olan azərbaycanlı məşhurlar - YENİ SİYAHI



***Şou-biznesin bir çox tanınmış simaları zaman-zaman bahalı mal-mülkləri ilə gündəmə gəlirlər. Bəziləri aldıqları evləri gizli saxlasa da, çoxları Azərbaycandan kənarda da evlərinin olduğunu bildirir.***

"Unikal" lent.az-a istinadən xaricdə evi olan məşhurların siyahısını təqdim edir:

Xalq artisti Röya Ayxanın İstanbulda evi var. Lakin müğənni 5 ildir Bakıda olan bağ evini hələ təmir edə bilmədiyini söyləyib.

İkinci dəfə ailə quran müğənni Zamiq Hüseynov bir neçə il bundan əvvəl İstanbulda mənzil alıb.

Xalq artisti Tünzalə Ağayeva Bodrumda evi var.

Müğənni Samir Piriyevin də Bodrumda evi var. Artıq ifaçı bir ildən çoxdur ki, Türkiyədə yaşayır.

Xalq artisti Səməd Səmədov Bodrumda ev alan məşhurlardandır.

Müğənni Elvin Abdullayev Ankarada ev alıb.

Müğənni Elariz Məmmədoğlu bir neçə il əvvəl İstanbulda ev alıb. Hazırda ifaçının oğlu İsanbulda, özü isə Amerikada yaşayır.

Müğənni Ayan Babakişiyeva illər öncə Bakıdakı evini satıb, Türkiyədə ev alıb, orada yaşayıb. Hazırda Bakıdadır.

Müğənni Nadir Qafarzadə İstanbulda ev alıb, lakin ifaçı həmin evi pandemiya vaxtı satıb.

Xalq artisti Brilliant Dadaşova da illər əvvəl İstanbulda ev alıb.

Prodüser Tolik ( Tarix Əliyev ) də Türkiyədə evi olan məşhurlardandır.

Azəri Günel Zeynalova Türkiyədə evi olsa da, kirayədə yaşayır. Öz evində isə valideynləri yaşayır.

# Mələykə Əsədova: "Çimmək istəyəndə xaricə gedirəm"



***Xalq artisti Mələykə Əsədova çimərliyə getməkdən qorxur.***

Aktrisa bu haqda "ATV maqazin onlarla" verilişində danışıb. O bildirib ki, çimərlik istəyəndə xaricə üz tutur: "Gedirsən bir yerə istirahət etməyə. O gəlir, bu gəlir şəkil çəkdirir. Xoş duyğudur, insanların qəlbinə dəymək istəmirsən. Amma adam dincəlmək istəyir. Bakıda çimərliyə getmirəm. Xaricə gedirəm hər zaman. Dənizi sevirəm, amma bağım yoxdur. Hər yerimiz dənizdir, istəyəndə gedib baxıram".

# Röya yenə dostlarını sildi

***Xalq artisti Röya Ayxan yenə İnstaqramda izləyici siyahısını sıfırlayıb.***



"Unikal" xəbər verir ki, müğənni bir müddət əvvəl izləməyə başladığı sənət adamlarını siyahıdan çıxarıb.

2,3 milyon izləyicisi olan Röya özü heç kimi izləmir. Bu, sənətçinin ilk belə addımı deyil. Röya dəfələrlə İnstaqramda izləyici sayını sıfırlayıb.

Qeyd edək ki, müğənni "Özəl" verilişində olarkən İnstaqramda tez-tez izlədiklərini silməsi haqda "Nə vaxt sıfır olursa, bilin ki, səhifədən çıxmışam, başqası işlədir. İnstaqramı tamam silirəm. Bir ay sonra yalvarıram ki, mənə parolu verin. Sevgilimlə dava edəndə belə onu edirəm. Niyə edirəm bilmirəm" sözlərini demişdi.



# Mikayıl Cabbarov israilli qonaqları qəbul edib

## Azərbaycan-İsrail iqtisadi əməkdaşlığı müzakirə edilib

***İqtisadiyyat naziri Mikayıl Cabbarov İsrailin Xarici İşlər Nazirliyinin MDB və Asiya ölkələri üzrə iqtisadiyyat departamentinin direktoru Mixael Lotemləg-örüşüb.***

Qurumdan "Unikal"a daxil olan məlumata görə, Mikayıl Cabbarov Azərbaycan-İsrail siyasi və iqtisadi münasibətlərinin yüksək səviyyədə olduğunu vurğulayıb, 44 günlük Vətən Müharibəsi dövründə Azərbaycanın haqq işinə göstərdiyi dəstəyə, humanitar səylərə görə təşəkkürünü bildirib.

Görüşdə Azərbaycan-İsrail uğurlu iqtisadi əməkdaşlığı, Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində İsrail şirkətlərinin fəaliyyəti vurğulanıb. Qeyd edilib ki, iqtisadi əlaqələrin inkişafında Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında Birgə Komissiyanın, İsrail-Azərbaycan Ticarət və Sənaye Palatasının fəaliyyəti önəmlidir.

İqtisadiyyat naziri Azərbaycanla İsrail arasında işğaldan azad olunmuş ərazilərimizin bərpası, enerji, səhiyyə, rəqəmsallaşma, investisiya, innovasiyalar, İKT, kənd təsərrüfatı, su sektorunun idarə edilməsi, turizm və s. sahələrdə əməkdaşlıq üçün böyük potensialı vurğulayıb.

İsrailin Xarici İşlər Nazirliyinin MDB və Asiya ölkələri üzrə iqtisadiyyat departamentinin direktoru Mixael Lotem ölkələrimiz arasında əlaqələrin genişlənməsinin əhəmiyyətini qeyd edib, İsrail şirkətlərinin azad olunmuş ərazilərimizin bərpasında iştirak etməkdə maraqlı olduğunu diqqətə çatdırıb.

İsrailin Azərbaycandakı səfiri Corc Dikin də iştirak etdiyi görüşdə ikitərəfli iqtisadi tərəfdaşlığın inkişafı və qarşılıqlı maraq doğuran məsələlər barədə müzakirələr aparılıb.

# Azərbaycanlı alimə Misirdə yüksək vəzifə verildi

***Azərbaycanlı tədqiqatçı-alim Seymur Nəsirov Misirdə Ümumdünya Fətva Evləri və Heyətləri Baş Katibliyinin müşaviri təyin edilib.***

2015-ci ildə 21 ölkənin iştirakı ilə təsis olunmuş və hazırda 60-dan çox üzvü olan bu qurumun əsas məqsədi dünya alimlərini, həmçinin fətva evlərini bir araya gətirərək, dini radikalizm, islamofobiya ilə mübarizə aparmaq, habelə mövcud olan ümumbəşəri problemləri dialoq, alimlərin həmrəyliyi vasitəsilə elmi əsaslarda həll etməkdir.

Baş Katiblik din alimlərinin iştirakı ilə mötədil fətvalar sisteminin, ekstremizmə qarşı müştərək strategiyanın formalaşması istiqamətində fəaliyyət göstərir. Onun elmi və inzibati strukturuna ixtisaslaşmış kadrlar və alimlər daxildir. Baş Katibliyin dünyanın müxtəlif ölkələrindən olan ilahiyyatçı alimlərin və fətva evlərinin iştirakı ilə təşkil etdiyi illik elmi konfranslarda dünya müsəlmanlarının problemləri ətrafında geniş müzakirələr və təcrübə mübadiləsi aparılır, habelə təqdim olunan məruzələr qurumun dövri nəşrində dərc edilir.

Misirin Baş müftisi Şavki Əllamın rəhbəri və ilahiyyatçı alim İbrahim Nəcmin Baş katibi olduğu Ümumdünya Fətva Evləri və Heyətləri Baş Katibliyinin müxtəlif ölkələrdə də filiallarının açılması, birgə elmi konfransların keçirilməsi də nəzərdə tutulur.

Artıq 26 ildir Misirdə yaşayan Seymur Nəsirov öz magistr və doktorluq elmi işlərini Azərbaycan və azərbaycanlı görkəmli şəxsiyyətlərlə bağlı ərəb mənbələrində tədqiqata həsr edib. O, həmçinin "Vətənpərvər" Misirdə Azərbaycan Diaspor Təşkilatları Birliyinin sədri, Misir-Azərbaycan Dostluq Cəmiyyətinin təsisçisi və rəhbəridir.

# Əbülfəs Qarayevin daha bir paxırı açıldı

## İllər uzunu kino sahəsinə ayrılan milyonlarla manat necə mənimsənilib?

***Yola salmaq üzrə olduğumuz həftəyə damğa vuran hadisələrdən biri də Maliyyə naziri Samir Şərifovun Azərbaycan kinosunun inkişafı ilə bağlı dövlət büdcəsindən ayrılan maliyyə vəsaitinin faktiki olaraq effektsiz xərcləndiyini dilə gətirməsi oldu.***

"Hesab edirəm ki, bununla bağlı sorğuları Mədəniyyət Nazirliyinə göndərmək olar" deyən nazir parlamentin iclasında deputatların suallarını cavablandırarkən onu da bildirdi ki, Azərbaycan Prezidentinin müvafiq sərəncamı ilə milli kinemotoqrafiyanın dövrün tələblərinə uyğun inkişaf etdirilməsinə dair "Azərbaycan Kinemotoqrafiyasının İnkişaf Konsepsiyası"nın layihəsi hazırlanıb: "Konsepsiya layihəsi bir neçə dəfə Maliyyə Nazirliyinə təqdim olunub. Ancaq etiraf edim ki, biz onu qəbul etməmişik, çünki orada hər hansı bir dəyişiklik görməmişik. Vəsaitlər ayrılır, ancaq nəticədə hər hansı bir kino əsərlərini görmürük. Bunu da hamımız bilirik və deyirik. Hesab edirik ki, vəsaitlərin ayrılması konkret nəticələr verməlidir".



S.Şərifovun kino sahəsinə ayrılan dövlət vəsaitlərinin səmərəsiz xərclənməsi barədə sözləri xüsusilə həmin sahədə çalışmış yaxud da çalışmağa davam edən yaradıcı şəxslərin böyük əksəriyyətinin təqdiri ilə qarşılandı. Bu da anlaşılandır. İllər uzunudur kinoya ayrılan büdcə pullarını məhdud çevrə istədiyi kimi xərcləyib, lakin ortaya dişə dəyəsi sənət əsəri çıxmayıb. Az-çox uğur qazanan filmlər də ayrı-ayrı kinematoqrafların şəxsi təşəbbüslərinin nəticəsində yaranıb.

Artıq bunu açıq şəkildə demək lazımdır ki, Əbülfəs Qarayevin Mədəniyyət Nazirliyinə rəhbərlik etdiyi dövrdə həm də "kino korrupsiyası" meydana gəlib. Söhbət film çəkilişləri üçün külli miqdarda dövlət vəsaitlərinin talan edilməsindən, əvəzində isə, yuxarıda da vurğuladığımız kimi, nəinki dünya arenasına çıxacaq, heç yerli kinosevərləri belə məmnun edəcək ekran nümunələrinin yaranmamasından gedir. İnanmayanları səkkiz il öncəyə səyahət eləməyi təklif edirik. Belə ki, 2012-ci il dövlət büdcəsindən Azərbaycan kinosuna 7 milyon manat ayrılıb. Bundan sonra o vaxtkı Mədəniyyət və Turizm Nazirliyinin kino şöbəsinin müdiri Cahangir Məmmədov açıqlama verərək həmin vəsaitə bir neçə bədii və sənədli filmlərin istehsalının nəzərdə tutulduğunu demişdi. Nəticə - sıfır!

Kinonun inkişafına dövlətin qayğısı təkcə büdcədən ayrılan vəsaitlərlə bitmirdi. "Azərbaycan Kinosunun 2008-18-ci illər üzrə inkişafına dair Dövlət Proqramı" çərçivəsində dövlət sifarişi ilə bədii, sənədli və cizgi filmlərinin istehsalı, xarici ölkələrdə saxlanan Azərbaycan milli filmlərinin nüsxələrinin ölkəyə gətirilməsi və s. üçün 6,5 milyon manat ayrılmışdı. Təkcə göstərilən iki məbləğ ümumilikdə təxminən 14 milyon manat edirdi. Nəticə? - Yenə də sıfır!

Bir neçə il əvvəl büdcədən kino sahəsinə ayrılan külli midarda vəsaitin taleyindən danışarkən rejissor Elcan Məmmədov bildirmişdi ki, ayrılan vəsaitlər hansısa problemi həll etmir: "Əsas məqam, bu vəsaitlərin necə sərf edilməsidir..." Onun fikrincə, kinonun inkişafında ayrılan vəsaitlərin rolu çox deyil. Az büdcə ilə də iş görmək olar: "Əsas məsələ məzmun olsun. Bizim çəkdiyimiz dünyaya təsir edirmi, ayaqlaşırmı, cəmiyyəti tərpədə bilirmi? Dünyaya deyirmi ki, "bizə bir bax, biz də varıq". Bax, məsələ də bundadır. Rəqabətə girə bilmək lazımdır".

Qeyd edək ki, Mədəniyyət Nazirliyinin xətti ilə Əbülfəs Qarayevin dövründə kino sahəsinə ayrılan vəsaitlərin taleyi ilə bağlı araşdırmalarda başqa maraqlı nüanslar da üzə çıxır. Məsələn, Professional Kinorejissorlar Gildiyasının rəhbəri, tanınmış kinorejissor-ssenarist Hüseyn Mehdiyev iki il öncə yerli KİV-ə açıqlamasında kinoya ayrılan dövlət vəsaitinin səmərəli şəkildə xərclənmədiyini qeyd eləmişdi. Sitat: "Vəsaitin necə xərcləndiyini artıq o zaman demək olar ki, bu sahədə hər şey qaydasında olsun, struktur formalaşdırılsın, qaydalar yaradılsın, xüsusi təşkilat olsun. Yəni bütün sistem işlək olduqdan sonra bu məsələni gündəmə gətirmək olar. İndi bu sistemin heç biri işləmir və hər şey başlı-başınadır..."

Göründüyü kimi, Əbülfəs Qarayevin Mədəniyyət naziri olduğu dövrdə kino sahəsinə ayrılan milyonlarla manatın qaranlıq taleyi ilə bağlı narahatlıqlar, giley-güzarlar dilə gətirilib. Ancaq sabiq nazir nədənsə həmin etirazları, tənqidləri, şikayətləri susqunluqla qarşılayıb. Heç vaxt bu istiqamətdə tənqidlərə münasibət bildirməyib. Halbuki araşdırmalarımız kinoya ayrılan dövlət vəsaitlərinin qeyri-şəffaf xərcləndiyi, bu vəsaitlərin bir hissəsinin kimlərinsə şəxsi maraqlarına, tamahına qurban getdiyi barədə iddialar ortaya atıldığını da göstərir. Lakin Əbülfəs müəllim həmin iddialar barədə də susub. Belə aydın olur ki, ya bu cür fikirləri ciddiyə almayıb, ya da susmağın razılıq əlaməti olduğu barədə el məsələni unudub...

Bütün bu deyilənləri ümumiləşdirdikdə isə Maliyyə nazirinin fikirlərinə haqq qazandırmaqla bərabər Əbülfəs Qarayevin nazir olduğu dönəmdə kinoya ayrılan pulların taleyinin ciddi şəkildə araşdırılmasına şübhə yeri qalmır. Belə bir araşdırma eks nazirin daha bir paxırını gün işığına çıxaracaq. Özü də elə bir paxırını ki, orada yalnız külli miqdarda dövlət vəsaitinin effektsiz xərclənməsindən yox, həm də mədəniyyətimizin önəmli bir sahəsinin uçuruma yuvarlanmasından söhbət gedir...

***Sənan Mirzə***

# Ermənistanda daxili qarşıdurma pik həddə çata bilər

## Nikol Paşinyan qələbə qazanacağı təqdirdə bu, ciddi şəkildə İrəvan küçələrində silahlı toqquşmaya gətirib çıxara bilər

***Artıq bir neçə gündür Ermənistanda parlament seçkilərində iştirak edəcək namizədlər seçkiqabağı təşviqata başlayıb.***

"Qallap"ın (Gallup) seçkiqabağı son sorğusunun nəticələrinə görə, Paşinyanın rəhbərlik etdiyi Mənim Addımım Partiyası respondentlərin 22,9 faiz səsini toplayıb. Köçəryanın rəhbərlik etdiyi "Ermənistan" blokunun səsi isə 20,6 faizə yüksəlib. Bir çoxları elə düşünür ki, Köçəryanın rəhbərlik etdiyi "Ermənistan" blokunun səsinin birdənbirə bu qədər yüksəlməsinin arxasında Kreml durur. N.Paşinyanın seçkiöncəsi Avropa turnesi çərçivəsində Fransa və Belçikaya rəsmi səfəri isə Ermənistanda parlament seçkilərinin ciddi rəqabət fonunda keçəcəyindən xəbər verir. Hətta bu seçkinin nəticələri elan olunandan sonra ölkədaxili qarşıdurmanın artacağı da qaçılmazdır.

Milli Məclisin deputatı Sahib Alıyev "Unikal"a açıqlamasında deyib ki, Ermənistanda gedən proseslərdən gəldiyi nəticə budur ki, Rusiya Nikol Paşinyanla demokratiya-demokratiya oyunu oynayaraq seçkini Robert Köçəryanın udması üçün çağdaş texnologiyalardan da faydalanmaqla əlindən nə gəlirsə edir: "Hətta bura "Kim millioner olmaq istəyir" verilişindəki kimi "dosta zəng" elementi də əlavə edilib. Elə zənglərdən birinin də mayın axırında, Ermənistanda keçiriləcək seçki kampaniyasına bir neçə gün qalmış olunduğu açıqlandı. Vladimir Putinin Köçəryana növbəti "dost" zəngi haqda xəbərin dövriyyəyə buraxılmasıyla eyni vaxtda ikincinin Rusiyadakı bəlli strukturlara bağlı "Kommersant" qəzetində intervüsü də dərc edildi. O intervü ki, orada Robik forpostdakı ictimai rəyə artıq yeni baş nazirləri kimi sırınırdı. Açığını deyək ki, Rusiyanın Köçəryana hazırkı dəstəyi forposta əvvəlki təyinatlardan nisbətən fərqli təsir bağışlasa da, yenə də "yesəniz də, yeməsəniz də yaşıl tərəvəzdir" modelindən çıxış edilir. Və bu təkcə ondan irəli gəlmir ki, Qərblə Rusiyanın seçdirmək ənənələri fərqlidir. Daha çox ondan irəli gəlir ki, xəstə və vassal asılılığına öyrəşmiş və üstəlik həm də sındırılmış cəmiyyət hansı davranışa haqq edirsə, onunla o cür də davranılır.

Nəticə də ortadadır. Ermənistanda Qarabağ klanına nifrətin daha da artdığı bir vaxtda obyektivliyi daha az şübhə doğuran MPG şirkətinin keçirdiyi sorğuya görə onun ən dağal, əliqanlı və korrupsiyaya bulaşmış təmsilçisinin reytinqi 20,6%-ə gəlib çatıb. Halbuki iki ay öncə bu göstərici 7-8%-i keçmirdi. Paşinyanın reytinqinin az qala iki dəfəyə yaxın düşməsi fonunda(22,4%) Köçəryanınkının bu qədər qalxmasının başqa izahı yoxdur.

Düzdür, sosioloji sorğular onu da göstərir ki, bu seçkidə heç kim təkbaşına hökumət formalaşdıracaq qədər səs qazana bilməyəcək. Eyni zamanda seçkiyə qatılan 23 partiya və 4 blokun içindən Paşinyanla Köçəryanınkını nəzərə almasaq, parlamentə düşmək şansı olanların sayı ancaq bir əlin barmaqlarıyla ölçüləcək. Amma elə o əl də Rusiyanın əlidir. Çünki bu seçkidə qələbə çalmaq şansı olanların əksəriyyəti Rusiyaya sıx bağlı blok və partiyaların təmsilçiləridirlər ki, onlar da koalisyon hökumət yaradılacağı təqdirdə Köçəryanın yanında yer alacaqlar".

Millət vəkili onu da qeyd edib ki, seçkini udmaq üçün az-çox şansı olan siyasətçilərdən ancaq Levon Ter-Petrosyanla Edmon Marukyanın Köçəryana nifrətləri Paşinyana bəslədiklərindən böyükdür: "Yəni, əslində Milli-Demokratik Qütb, Demokratlar Alyansı və Respublika Partiyasını çıxmaqla yerdə qalanlar hamısı seçkidə Köçəryanın əlinə, daha dəqiqi Köçəryanı əldə saxlayanlara oynamaq məqsədilə formalaşdırılıb. Hətta qərbpərəst mövqe sərgiləyən partiyaların belə Paşinyanın elektoratını parçalamaq üçün meydana buraxıldıqları istisna deyil.

Təbii ki, Paşinyan da bütün bu baş verənlərin fərqindədir. Onun Azərbaycan-Ermənistan sərhədində yaranmış gərginliyə görə Rusiyanı suçlandırmağa cəhd etməsi və Avropa səfəri də məhz bu reallıqdan irəli gəlirdi. Amma nə Makron Putindir, nə də Fransanın Ermənistan üzərində Rusiya qədər təsiri var.

Bir sözlə, görünən budur ki, cəllad Köçəryan yenidən hakimiyyətə gətirilir. O Köçəryan ki, ondan həmişə regionda qarşıdurma aləti kimi faydalanılıb. Yəqin bundan sonra da eyni məqsədlə istifadəsi nəzərdə tutulur".

Politoloq Məhəmməd Əsədullazadə isə deyib ki, Ermənistanda keçiriləcək növbədənkənar parlament seçkilərində qütbləşmə ciddi şəkildə kəskinləşir və tərəflər bir-birinə qarşı hətta, ölüm kimi hədələyici ültimatumlar belə verirlər. Onun sözlərinə görə, biz bunu Robert Koçaryanın, Serj Sarkisyanın və Nikol Paşinyanın timsalında görürük və bu istiqamətdə əgər proses davam edəcəksə, seçkidən sonra, Nikol Paşinyan qələbə qazanacağı təqdirdə bu, ciddi şəkildə İrəvan küçələrində silahlı toqquşmaya gətirib çıxara bilər.



Politoloq qeyd edib ki, Nikol Paşinyanın, Robert Koçaryanın, Serj Sarkisyanın, göründüyü kimi, rusiyapərstlərin hakimiyyət mübarizəsi eyni müstəviyə keçib və bu müstəvidə tərəflərin silaha əl atması da mümkün görünür."Düşünürəm ki, Robert Koçaryanın Zəngəzur istiqamətində təbliğat-təşviqat kompaniyaları ilə tərəfdarlarını aktiv şəkildə öz ətrafına toparlaması, Nikol Paşinyana burada ölüm kimi şuarların verilməsi, onun hətta duelə çağırılması kimi proseslər göstərir ki, Ermənistan cəmiyyəti artıq kriminallaşır. Bu kriminallaşma siyasi müstəviyə keçməklə Ermənistan dövlətinin daha da zəifləməsinə və siyasi deqradasiyaya gətirib çıxaracaq.Ümumiyyətlə, gözlənilən bu seçki Qarabağ müharibəsində məğlubiyyətlərindən sonra Ermənistanın fəlakətinə aparacaq bir proses kimi görünür və Nikol Paşinyanın konkret şəkildə reytinqi də aşağı düşüb. Məlum məsələdir ki, Azərbaycan-Ermənistan sərhədində delimitasiya və demarkasiya prosesində təxribatlar fonunda Azərbaycanın prinsipial mövqeyi Paşinyanın reytinqinə mənfi təsir edib. Buna baxmayaraq, təbii ki, bizim üçün də maraqlıdır ki, Ermənistan dövləti zəifləsin və qütblərə parçalansın, Ermənistan cəmiyyəti bir-birinə qarşı artıq düşmənçilik müstəvisinə keçsin. Göründüyü kimi, artıq bu adi hal alıb və Ermənistanda iyunun 20-də keçiriləcək seçkilər mütləq Ermənistan tarixində qanlı faciəyə gətirib çıxara bilməsi kimi proseslər davam edir.Ümumiyyətlə, Robert Koçaryanın, Serj Sarkisyanın, Artur Vanesyanın formalaşdırdığı blok Nikol Paşinyana qarşı ciddi şəkildə qələbəni təmin etməyə hesablanıb. Əgər seçkidən sonra parlament formalaşacaqsa, bundan sonra parlamentdə münaqişələrin ciddi şəkildə davam edəcəyini gözləyə bilərik. Ümumiyyətlə, göründüyü kimi, seçkidən əvvəl də, seçkidən sonra da Ermənistanda vəziyyət qeyri-stabil olacaq və ölkəni xaosa, anarxiyaya gətirib çıxaracaq. Bundan da təbii ki, müəyyən dövlətlər öz maraqları kontekstində istifadə edəcəklər", deyə politoloq Məhəmməd Əsədullazadə bildirib.

***Z.Məmmədli***



# Şeyx yeni dini liderlər şurasının yaradılmasını təklif etdi

***Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə KAICIID Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin Tərəflər Şurası və Direktorlar Şurasının videokonfrans formatında keçirilən birgə sessiyasında iştirak edib.***

QMİ-nin Mətbuat Xidmətindən "Unikal"a verilən məlumata görə, Shanti Ashram təşkilatının direktoru Kezevino Aramın sədrliyi ilə keçən sessiyada Şeyxülislam A. Paşazadə ilə bərabər Direktorlar Şurasında təmsil olunan Ekumenik Patriarxatının Kadıköy (Xalxidon) Mitropoliti Emmanuel, Vatikanın Dinlərarası dialoq üzrə Pontifik şurasının sədri Kardinal Migel Ayuso, Livan Milli Xristian-Müsəlman Dialoq Komitəsinin baş Katibi Məhəmməd Sammak, Yaponiya Rizxo Kosey-Kay Buddist təşkilatının Prezidenti Koşo Nivano, İngilis kilsəsinin Dinlərarası məsələlər üzrə məsləhətçisi Riçard Sudvort, İmam Məhəmməd bin Saud Universitetinin təmsilçisi Hamad əl-Məcid, Amerika Yəhudi Komitəsinin Dinlərarası məsələlər üzrə beynəlxalq direktoru Baş Ravvin David Rosen, habelə Beynəlxalq Mərkəzin Baş Katibinin müavini Alvaro Albacete iştirak ediblər.

Tədbirin gedişində cari məsələlər ətrafında müzakirələr aparıldı və hesabatlar dinlənilib. Katibliyin əməkdaşları KAICIID-in dünyanın bir sıra ölkələrində, o cümlədən, Nigeriya, Mərkəzi Afrika Respublikasında, Myanmada, eləcə də ərəb regionunda fəaliyyətlər barədə ətraflı məlumat veriblər.

Tədbirdə çıxış edən A.Paşazadə Azərbaycan və Qafqaz müsəlmanlarının səmimi salamlarını və öz xeyir-dualarını iştirakçıların diqqətinə çatdırıb. Daha sonra son günlər Hindistanda pandemiyadan çoxsaylı ölüm halları ilə bağlı başsağlığı verdi və dualar edib ki, Allah-Təala yaxın zamanda bəşəriyyəti COVID-19 bəlasından xilas etsin.

Gündəlikdə duran, müzakirə olunan məsələlər barədə öz fikirlərini və tövsiyələrini onlayn sessiya iştirakçılarının diqqətinə çatdıran QMİ sədri A. Paşazadə KAICIID nəzdində müxtəlif regionları təmsil edən dini liderlər şurasını təsis etmək təşəbbüsü ilə çıxış edib. Təşəbbüs iştirakçılar tərəfindən müsbət dəyərləndirilib.

Dünyanın ən nüfuzlu beynəlxalq hökumətlərarası təşkilatlarından olan KAİCİİD-in 9 nəfərlik Direktorlar Şurasında yer alan müsəlman dini lider Şeyxülislam Allahşükür Paşazadə pandemiya şəraitinə baxmayaraq KAİCİİD təşkilatının proqram üzrə layihə və təşəbbüslərin həyata keçirilməsi yönündə səylərinin davam etdirildiyini rəğbətlə vurğulayıb və Azərbaycanda bu istiqamətdə görülən işlərdən bəhs etdi. Birgə sessiya iştirakçıları tərəfindən Azərbaycan dövlətinin dünyada dinlərarası dialoq və əməkdaşlığa verdiyi töhfələr qeyd olunub. Onlayn sessiya məhsuldar keçib.

# Baş nazirdən qərar



***Nazirlər Kabineti internet telekommunikasiya xidməti göstərən operatorların və provayderlərin uçotunun aparılması Qaydasında dəyişiklik edib.***

Unikal.org xəbər verir ki, bununla bağlı müvafiq sənədi Baş nazir Əli Əsədov imzalayıb.

Qərar internet telekommunikasiya xidməti göstərən operatorların və provayderlərin uçotunun aparılması sahəsində dövlət tənzimlənməsinin həyata keçirilməsi üzrə fəaliyyətin effektivliyini və operativlik səviyyəsini artırmaq məqsədilə qəbul edilib.

Qərarın qəbul edilməsi internet telekommunikasiya xidmətlərini göstərən subyektlərin uçot prosesinin müasir tələblərə uyğun olaraq təkmilləşdirilməsinə, habelə normativ hüquqi akta əsaslanan uçota alınma üzrə prosedurların işlək mexanizm kimi tətbiqinin təmin olunmasına xidmət edəcək.

# Baş prokuror Dağlar Zeynalovu işdən çıxardı



***Baş Prokurorluqda kadr dəyişikliyi baş verib.***

Unikal.org-un əldə etdiyi məlumata görə, bununla bağlı Baş Prokuror Kamran Əliyev əmr imzalayıb.

Əmrə əsasən, Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Dağlar Zeynalov prokurorluqda xidmətdə olmanın son yaş həddi ilə əlaqədar vəzifəsindən azad edilib.

## ELAN

Gədəbəy rayon Əli İsmayıl kəndi sakini Hümbətov Oruc Musa oğlunun adına olan A 161056 və A 161055 nömrəli Torpaq sahnəsinin planı və ölçüsü sənədi itdiyi üçün etibarsız sayılır.

*************************

Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən Bakı şəhəri, Xətai rayonu, Natiq Əliyev küçəsi, ev 26, mənzil 5 ünvanında yerləşən mənzilin Əliyeva Səidə Xeybər qızının adına verilmiş mülkiyyət haqqında çıxarış (qeydiyyat nömrəsi 1119067067) itdiyi üçün etibarsız sayılır.

*************************

Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən Bakı şəhəri, Xətai rayonu, Ayaz İsmayılov küçəsi, 1152-ci məhəllə, ev 35C, mənzin 211, yeni qaydalarla AZ1025, Bakı şəhəri, Xətai rayonu, Ayaz İsmayılov küçəsi 92, M1, m1 ünvanında yerləşən mənzilin Əliyeva Səidə Xeybər qızının adına verilmiş mülkiyyət haqqında çıxarış (qeydiyyat nömrəsi 1119062252) itdiyi üçün etibarsız sayılır.

Baş redaktor:
Zaur Əhməd

"Turanbank" ASC Binəqədi filialı.
h/h AZ74TURA41040011963500110944
M/h AZ26NABO1350100000000027944
Kod: 50462
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500

# Afaq Bəşirqızı xəstəxanaya yerləşdirilib

***Xalq artisti Afaq Bəşirqızı hazırda xəstəxanadadır.***

Bu haqda aparıcı Elgiz Əkbər "Elgizlə izlə" verilişində deyib. Verilişə telefonla bağlanan A.Bəşirqızı haqda aparıcı "Bilirəm ki, xəstəxanadasınız və həkim nəzarətindəsiniz" sözlərini deyib.

Qeyd edək ki, bir müddət əvvəl A.Bəşirqızının kök hüceyrə əməmliyyatı etdirəcəyi deyilmişdi.

# Samir Nuriyev şəhid ailələri və müharibə iştirakçıları ilə bağlı tapşırıqlar VERDİ

***Azərbaycan Respublikası Prezidentinin 2020-ci ilin 24 noyabr tarixli sərəncamı ilə işğaldan azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həlli üçün yaradılmış Əlaqələndirmə Qərargahının növbəti iclası keçirilib.***



Unikal.org xəbər verir ki, iclası açan Prezident Administrasiyasının və Qərargahın rəhbəri Samir Nuriyev Azərbaycan Respublikası Prezidentinin ötən ay ərzində Şuşa və Ağdama səfərlərini qeyd etmiş, bu səfərlər zamanı dövlət başçısının apardığı bərpa və yenidənqurma işlərinə yerində baxış keçirdiyi, bir sıra təməlqoyma mərasimlərində iştirak etdiyini və zəruri tapşırıqlar verdiyini vurğulayıb.

S.Nuriyev dövlət başçısının verdiyi konkret göstərişlər və qoyduğu vəzifələrin Qərargahın gündəlik fəaliyyətində rəhbər tutulduğunu diqqətinə çatdırıb.

İclasda işğaldan azad edilmiş ərazilərdə əsas prioritetlərdən biri olan minalardan təmizləmə, şəhərsalma və nəqliyyat-rabitə infrastrukturu layihələrinin icrasının vəziyyəti, su ehtiyatlarının idarə olunması və səmərəli istifadəsi, tarixi-mədəniyyət abidələrinin inventarlaşdırılması və bu abidələrin qorunması sahəsində həyata keçirilən tədbirlər, şəhid ailə üzvlərinin, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin, yaralıların, müharibə veteranları və iştirakçılarının sosial təminatı məsələlərinə dair məruzələr dinlənilib və zəruri tapşırıqlar verilib.

Azərbaycan Respublikasının Prezidentinin azad edilmiş torpaqların bərpa və yenidənqurma işlərinin ən yüksək standartlara uyğun həyata keçirilməsi tapşırığının icrası üçün bütün resursların səfərbər edilərək səmərəli istifadəsinin Qərargahın əsas hədəfi olduğu qeyd edilib.

# Türkiyəli deputatlar Qarabağa gələcəklər

***"Türkiyəli həmkarlarımızı Bakıya dəvət etdik. Mərhələli şəkildə növbəti dəfə Qarabağa səfər edəcəyik".***



Bunu Milli Məclisin Azərbaycan-Türkiyə parlamentlərarası dostluq qrupuna daxil olan deputat Eldar İbrahimov deyib.

Onun sözlərinə görə, azərbaycanlı deputatların Türkiyə Prezidenti Rəcəp Tayyib Ərdoğanla görüşü iki ölkə üçün gələcək planların həyata keçirilməsində mühim rol oynayacaq: "Türkiyə Prezidenti Rəcəp Tayyib Ərdoğan bizi qəbul etdi. Görüş zamanı iki ölkə arasında münasibətləri müzakirə etdik. Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentopun rəhbərliyi ilə Türkiyə Böyük Millət Məclisində iki ölkənin parlamentlərinin müvafiq komissiyaları arasındakı münasibətlərdən, əlaqələrin inkişafından və gələcək planlardan danışdıq. Qardaş ölkə Türkiyənin qanunvericiliyinin necə qəbul edildiyinin şahidi olduq".

# Ağdam, Cəbrayıl və Füzulidə tədqiqat işləri aparıldı

***Azərbaycan İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən işğaldan azad olunmuş Ağdam, Cəbrayıl və Füzuli rayonları ərazisində torpaq tədqiqatı işləri aparılıb.***

Nazirlikdən "Unikal"a verilən məlumata görə, bu rayonlar üzrə mərhələli şəkildə torpaq nümunəsi götürülərək torpaq və geobotaniki tədqiqatlar laboratoriyasına təhvil verilib. Analiz nəticələrinə əsasən, torpaqların keyfiyyəti, hansı növ bitkilərin əkilməsinin daha səmərəli olması müəyyən ediləcək.

Torpaqların mövcud vəziyyətinin, münbitliyinin, şorlaşma, şorakətləşmə və eroziyaya uğrama dərəcələrinin müəyyən olunması, torpaqların səmərəli istifadəsinə nəzarət edilməsi məqsədilə ölkə üzrə irimiqyaslı çöl torpaq tədqiqatı işləri də aparılıb. İlkin olaraq Neftçala rayonunun dövlət mülkiyyətində olan 30284 hektar ərazisində irimiqyaslı torpaq tədqiqatı işləri yerinə yetirilib. Rayonun qış otlaqlarında torpaq tədqiqatı işlərinin aparılması üçün işçi qrupları yaradılıb. Çöl işlərinin yüksək keyfiyyətlə yerinə yetirilməsi məqsədilə bütün qruplar müasir sahəvi ləvazimatlarla təmin olunub. İlk dəfə olaraq çöl



torpaq tədqiqatında müasir dövrün tələblərinə uyğun olaraq "TFA DOSMAN" cihazı vasitəsilə torpağın nəmlik dərəcəsinin miqdarı müəyyən edilib. Bununla həmin torpaqların şorlaşma dərəcəsi və bitkilərin məhsuldarlığında önəmli faktorlardan biri olan torpağın turşuluq və qələviliyinin norma daxilində olub-olmaması məlum olur. Nəticədə məhsuldarlığı yüksək olan hansı növ bitkilərin əkilməsinin daha səmərəli olması müəyyən edilir.

Tədqiqat zamanı həmçinin, aşkara çıxan qanunazidd fəaliyyət göstərən süni balıq gölləri, qış otlağı ərazilərinin qanunsuz olaraq əkin məqsədilə istifadə edilməsi və ərazilərdə qrunt suyunun səthə çıxması nəticəsində torpaqların yararsız vəziyyətə düşməsi halları ilə bağlı müvafiq qurumlara məlumatlar göndərilib.

Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən çöl torpaq tədqiqatı işləri ölkəmizin digər bölgələrində də davam etdiriləcək.

# Azərbaycanda son sutkanın yoluxma statistikası

***Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 75 yeni yoluxma faktı qeydə alınıb, 281 nəfər müalicə olunaraq sağalıb.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Unikal"a verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 3 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 334 992 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 327 907 nəfər müalicə olunaraq sağalıb, 4 951 nəfər vəfat edib. 2 134 nəfər aktiv xəstə sayını təşkil edib.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 8618, bu günə qədər isə ümumilikdə 3 597 849 test icra olunub.

# Qarabağ ermənilәri Yerevandan narazıdır: Rusiyaya köç başladı



***Azərbaycanın Vətən Müharibəsindəki zəfəri ermənilər arasında dərin ruh düşkünlüyü və kütləvi psixoz yaradıb.***

Xüsusən, Ermənistan hakimiyyətinə qəzəbli olan Qarabağ ermənilərində bu hallar daha geniş yayılıb.

Onlar rəsmi Yerevanın və bölgədəki separatçı rejimin sadə insanları 30 il yalan vədlərlə aldatdığını, beynini yuduğunu yaxşı anlayır. Məhz bu səbəbdən 2021-ci ilin ilk aylarından bəri Qarabağdan, xüsusən, Azərbaycanın nəzarətinə keçən Hadrut qəsəbəsi, Xocavəndin kəndləri və Tərtərin Talış-Suqovuşan ərazisində yaşayan ermənilər kütləvi şəkildə Rusiyaya köçür.

Ermənilərin Qarabağdan Rusiyaya kütləvi köçünü stimullaşdıran əsas amillər Moskvanın onlar üçün güzəştli vətəndaşlıq şərtləri təklif etməsi və müharibədən sonra Ermənistan hakimiyyətininin, yerli terroçu rejim rəhbərlərinin sakinlərin qayğılarına, sosial təminatına biganəliyi ilə bağlıdır.

Birinci amildən danışanda Rusiya əhalisinin təkcə 2020-ci ildə 500 min, 2021-ci ci ilin yanvar-aprel aylarında isə daha 304 min nəfər azaldığını xatırlamaq lazımdır. Düzdür, Ermənistanda və Qarabağda yaşayan bütün əhalinin sayı belə Moskvanın miqrantlara olan ehtiyacını minimal səviyyədə təmin edə bilməz. Bununla belə, Moskva Ermənistana qəzəbli olan, özlərini aldadılmış hesab edən Qarabağ ermənilərini daimi yaşayış üçün cəlb etməkdə məqsədlidir. Buna görə də, onların ölkəyə gəlməsi, qeydiyyata alınması, işçi əllərin çatışmadığı federal bölgələrə göndərilməsi və asanlaşdırılmış qaydaya Rusiya pasporu almasında maraqlıdır.

Moskva hələ 2020-ci ilin noyabrında, Ermənistanın kapitulyasiya etməsindən sonra Qarabağ ermənilərinə Rusiya pasportunun veriləcəyi ilə bağlı məlumatı dövriyyəyə buraxdı. Amma bu informasiya "vbros"u Azərbaycanın kəskin etirazından sonra qısa müddətdə unuduldu.

Hadrut qəsəbəsinin keçmiş "meri" Vaan Savadyan da jurnalistlərə açıqlamasında Qarabağda müşahidə olunan tendensiyanı təsdiq edib.

"Qarabağa qayıtmaq istəyən hadrutlular var, amma mənzillər yoxdu, yaxud çox bahadır. Onların yalnız 40%-i Qarabağdadır. Son bir neçə aylarda Hadrut ermənilərinin 10%-dən çoxu Rusiya Federasiyasına köçüb. Ev təminatı və sosial dəstəyin hazırkı səviyyədə olacağı təqdirdə sakinlərin Qarabağa dönmə ehtimalı getgedə zəifləyəcək".

Köç əhval-ruhiyyəsi Rusiya sülhməramlılarının nəzarəti altında olan ərazilərdə, o cümlədən Xankəndi, Ağdərə, Əsgəran və Xocavənd sakinlərində də müşayəit olunur.

44 günlük müharibəyə qədər rəsmi 150, faktiki isə 100 min insanın yaşadığı Dağlıq Qarabağda hazırda 40-50 min arasında sakin yaşayır. Qarabağı tərk edən ermənilərin bir hissəsi Ermənistana, qalan hissəsi isə Rusiyaya köçüb. Köç tendensiyasının qarşıdakı aylarda da davam etməsi gözlənilir.

# Dövlət qulluğuna qəbulda yeniliklər tətbiq olunacaq

***Dövlət İmtahan Mərkəzi, Avropa İttifaqı və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ilə birgə SIGMA proqramı çərçivəsində "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya"nın 5.4. bəndinə uyğun olaraq "Dövlət qulluğunda səriştə modelinin tətbiqi"nin həyata keçirilməsinə dəstək məqsədilə "Səriştə modelinin təsdiqlənməsi" üzrə pilot layihənin icrasına başlanıb.***

DİM-dən verilən məlumata görə, təsdiq edilən model dövlət qulluğuna qəbul və dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsi zamanı əsas meyar kimi tətbiq ediləcək. Layihə çərçivəsində dövlət qulluğu vəzifəsi iddiasında olan namizədlərin zəruri səriş-




tələrinin qiymətləndirilməsi üçün test, praktiki tapşırıq, müsahibə və digər qiymətləndirmə alətlərindən istifadə ediləcək.

DİM tərəfindən "Yüksəliş" müsabiqəsinin müxtəlif qiymətləndirmə alətlərinin uğurlu təşkilinə əsaslanaraq, A növü - inzibati rəhbər (idarəetmə) vəzifələr üzrə cari ilin iyul ayından etibarən keçiriləcək test imtahanlarında namizədlərin məntiqi təfəkkürünün, qanunvericilik, Azərbaycan dili və informasiya texnologiyaları üzrə biliklərinin yoxlanılması ilə yanaşı, rəhbər vəzifəli şəxslər üçün zəruri hesab edilən idarəçilik səriştəsinin, sosial-praktiki intellektin və analitik təhlil bacarıqlarının yoxlanılması nəzərdə tutulur.

Yuxarıda qeyd olunan səriştələri yoxlayan situasiya əsaslı tapşırıqlar qapalı tipli test tapşırıqları şəklində təqdim olunacaq. İmtahan modelinə AA vəzifə qrupu üzrə idarəçilik səriştəsini, sosial-praktiki intellekti və analitik təhlil bacarıqlarını, AB və AC vəzifə qrupları üzrə sosial-praktiki intellekti və analitik təhlil bacarıqlarını yoxlayan tapşırıqlar daxil ediləcək.

## Lüksemburqdakı soydaşlarımız beynəlxalq ictimaiyyətə çağırış etdi

***Ermənistanın mina cinayətinin qurbanı olan azərbaycanlı jurnalistlərlə bağlı beynəlxalq təşkilatlara müraciət edən diaspor təşkilatlarının sırasına Lüksemburqda fəaliyyət göstərən "Qarabağ" Azərbaycan-Lüksemburq Mədəniyyət Assosiasiyası da qoşulub.***

Avropa Şurası, "Amnesty İnternational", BMT-nin İnsan haqları üzrə Ali Komissarlığı, "Human Rights Watch" və digər beynəlxalq təşkilat və media qurumlarına ünvanladığı bəyanatda "Qarabağ" Azərbaycan-Lüksemburq Mədəniyyət Assosiasiyası nəzərə çatdırıb ki, 2021-ci il 4 iyun tarixində Azərbaycan Dövlət İnformasiya Agentliyinin müxbiri Məhərrəm İbrahimovun və Azərbaycan Televiziyasının operatoru Sirac Abışovun xidməti vəzifələrini yerinə yetirərkən Kəlbəcər rayonu ərazisində minaya düşərək həlak olması Ermənistan hakimiyyətinin cinayətkar mahiyyətini bir daha sübuta yetirir. Bütün beynəlxalq konvensiyalara və əldə olunmuş razılıqlara zidd olaraq, 30 ilə yaxın müddətdə işğalçılıq yolu tutmaqla, mina xəritələrini verməkdən imtina etməklə Ermənistan bölgədə sülhün və əmin-amanlığın yaranmasında maraqlı olmadığını göstərir. Assosiasiya üzvləri beynəlxalq təşkilatları və nüfuzlu media qurumlarını bu məsələ ilə bağlı qətiyyətli və prinsipial mövqe nümayiş etdirməyə çağırıb: "Biz, Avropa azərbaycanlıları olaraq hesab edirik ki, sizin verəcəyiniz sərt reaksiya Ermənistanı tutduğu mövqedən əl çəkməyə vadar edə bilər".

## Vilayət Eyvazov iki "MERO" rəisini işdən çıxardı

***Daxili işlər orqanlarında kadr dəyişiklikləri olub.***

Unikal.org-un əldə etdiyi məlumata görə, Lənkəran 5 saylı rayonlararası qeydiyyat-imtahan və texniki baxış şöbəsinin rəisi Mübariz Əhədov və Şirvan 4 saylı rayonlararası qeydiyyat-imtahan və texniki baxış texniki baxış şöbəsinin rəisi Əlixan Zeynalov tutduqları vəzifədən azad olunublar.

## Anar Kərimov Ramiz Əzizbəylinin dəfnində iştirak etmədi

***Xəbər verdiyimiz kimi, Azərbaycanın Xalq artisti, kinorejissor Ramiz Əzizbəyli "Qurd qapısı" qəbirstanlığında dəfn edilib.***

Mədəniyyət nazirliyin sözçüsü Məryəm Qafarzadə Unikal.org-a bildirilib ki, nazir Anar Kərimov Xalq artistinin dəfnində iştirak etməyib. Qeyd edək ki, A.Kərimov Arif Quliyev, Eldar Quliyev və Tahir Salahovun da dəfn mərasimində iştirak etməmişdi.

*Gülayə Mecid*

## Ağdama gedən 5 nəfər saxlanıldı

***Ağdam Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən rayonun işğaldan azad edilmiş, lakin minalardan tam təmizlənməmiş ərazilərinə icazəsiz keçməyə cəhd göstərən şəxslərin qarşısının alınması istiqamətində tədbirlər davam etdirilir.***

Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətinin Bərdə regional qrupundan "Unikal"a verilən məlumata görə, Ağdam RPŞ-nin əməkdaşları tərəfindən həyata keçirilmiş növbəti tədbirlər zamanı işğaldan azad edilmiş Qullar kəndinə keçmək istəyən 5 nəfər saxlanılıb. Həmin şəxslər saxlanıldıqdan sonra polis şöbəsinə dəvət olunublar. Onlarla profilaktiki söhbətlər aparılıb, gizlədilmə ehtimalı olan mina və partlayıcı vasitələrin onların həyatı üçün təhlükə doğura biləcəyi barədə xəbərdarlıq edilib. Həmin şəxslər barəsində inzibati qaydada tədbir görülüb.

## DİM bu şəxslərə müraciət etdi

***2021-ci il iyun ayında keçiriləcək doktoranturaya və dissertanturaya xarici dillər üzrə qəbul imtahanı, həmçinin xarici dillər üzrə fəlsəfə doktoru imtahanları əvvəlki qaydada - dinləyib-anlama, oxuyub-anlama, dildən istifadə (leksik-qrammatik tapşırıqlar) və yazı bloklarından ibarət olmaqla təşkil olunacaq.***

Dövlət İmtahan Mərkəzindən "Unikal"a bildirilib ki, proqramlar üzrə yoxlanılıb qiymətləndirilməsi nəzərdə tutulan bacarıqlar və imtahanın strukturu haqqında DİM-in internet saytında əlavə məlumat yerləşdiriləcək. Lakin gələcəkdə imtahan verəcək namizədlər (iddiaçılar) nəzərə almalıdırlar ki, xarici dillər üzrə doktoranturaya növbəti qəbul və fəlsəfə doktoru imtahanlarından başlayaraq iştirakçıların xarici dilləri bilmə səviyyəsi qiymətləndirilərkən onların digər dil bacarıq və vərdişləri ilə yanaşı, danışıq sahəsində bacarıq və vərdişlərinin yoxlanılması da nəzərdə tutulur.

Əcnəbi və vətəndaşlığı olmayan iddiaçıların Azərbaycan dili üzrə fəlsəfə doktoru imtahanında da növbəti imtahanlardan etibarən danışıq sahəsində bacarıq və vərdişlərinin yoxlanılması həyata keçiriləcək.



# TƏBİB-dən vaksinasiya ilə bağlı vacib açıqlama

***Ölkəmizə yeni növ koronavirus (COVID-19) infeksiyasına qarşı müxtəlif şirkətlərə məxsus peyvəndlərin gətirilməsi vətəndaşlar üçün seçim imkanlarını artırır. TƏBİB-in infeksion xəstəlikləri üzrə işçi qrupunun rəhbəri, həkim-infeksionist Vasif Əliyev eyni şəxsin vaksinasiya olunaraq fərqli şirkətlərin istehsal etdiyi peyvəndlərdən istifadə edilməsinə münasibət bildirib.***

Vasif Əliyev bildirib ki, vaksinasiya zamanı eyni qrup peyvəndin istifadəsi daha məqsədəuyğundur.

Fərqli ölkələrin peyvəndini vurdurmaq istəyənlər isə bir sıra qaydaları nəzərə almalıdırlar: "Həmin halı şərtləndirən bəzi zəruri məqamlar ola bilər. İlk peyvənd dozası bir, ikinci doza fərqli qrupdan istifadə oluna bilər, lakin onların arasındakı məsafə azı 28 gün olmalıdır, yəni aradan minimum 28 gün keçməlidir ki, ikinci fərqli qrupdan istifadə olunsun. Bu, o zaman tətbiq edilə bilər ki, ilkin vurulan peyvənd dozasının ya vaxtı keçir və yaxud əvvəl edilən peyvənd əlçatan olmasın".

Onun dediyinə görə, fərqli qrup peyvəndlər fərqli mexanizmlərdə anticisimlər yaradır. Bu baxımdan müxtəlif qrup peyvənddən istifadə olunması tövsiyə edilmir.

Hazırda ölkəmizə gətirilən bütün peyvəndlər iki dozada vurulur. İkinci doza peyvəndin tətbiq edilməsi mütləqdir: "Qoruyuculuq yaranmasını istəyiriksə, mütləq eyni qrup peyvənd ikinci dozada da tətbiq olunmalıdır. Yalnız JohnsonJohnson peyvəndi bir dozada istifadə olunur və həmin peyvənd bizim ölkədə yoxdur. Lakin onun qoruyuculuğu digər peyvəndlərdən daha aşağıdır. Ona görə də mütləq iki dozada vurulmalıdır ki, anticisimlərin yaranmasına səbəb olsun. Buna əməl edilmədikdə qoruyuculuq aşağı olur və bu da gələcək fəsadlardan qorumur", - deyə V.Əliyev bildirib.

Həkim-infeksionist onu da əlavə edib ki, hazırda ölkəmizdə peyvəndləmə prosesi sürətlə gedir və COVID-19 pasportu alanlara imtiyazların verilməsi əhalinin vaksinasiyaya marağını daha da artırıb.

# "Hansısa mötəbər "gizli əl" ölkədə sivil siyasi mübarizədə maraqlı deyil"

## Həsrət Rüstəmov: "Siyasi dialoqun olması, siyasi münasibətlərin qanun və üstün siyasi normalar səviyyəsində aparılması xalqın maraqlarına uyğun olan yeganə doğru yoldur"

***Son günlər Yoluxma hallarının azalması, karantin şərtlərinin yumşaldılması cəmiyyətdəki gərginliyi bir qədər azaldıb. Bu səbəbdən də bir qism yumşalma tədbirlərinin davamlı olmasını təklif etsə də, bir qism tələsməməyi doğru hesab edir. "Unikal" qəzetinə müsahibə verən ADP sədrinin müavini, həkim eskpert Həsrət Rüstəmovla söhbətə də elə bu mövzuda başladıq.***

***-Həsrət bəy, hazırkı vəziyyəti necə dəyərləndirirsiniz? Sizcə, virusa qalib gəlmiş sayıla bilərik, yoxsa...***

-Virusa qalib gəlmək haqqında danışmaq hələ tezdir. Bu virusun aparılan vaksinasiyaya necə tabe olacağını yaxın zamanlarda görmək mümkün olacaq. Amma hazırkı vəziyyət hər şeydən əvvəl kifayət qədər deməyə ümid verir ki, COVİD-19 infeksiyasına qarşı aparılan tədbirlər artıq effekt verməyə başlayıb. Kimin nə deməsindən asılı olmayaraq bu infeksiya həqiqətən də çox qorxulu və idarəedilməsi olduqca çətin olan bir xəstəlikdir. Digər əksər yoluxucu xəstəliklərdə olduğu kimi bu xəstəlik üçün də peyvəndin tətbiq edilməsi epidimioloji vəziyyətin stabilləşməsində əsas rol oynayır. Əlbəttə ki, karantin tədbirləri də vaksinləşməyədək öz mühüm rolunu oynadı. Hazırda bu tədbirlərin yumşaldılması xəstəlik hallarının azalması və vaksinin getdikcə daha geniş tətbiq olunması baxımından mümkündür və hətta vacibdir. Çünki, bu məhdudiyyətlər təbiidir ki, insanların həyatını çətinləşdirir və iqtisadi vəziyyətə olduqca mənfi təsir edir. Bu baxımdan ləğvi mümkün olan bütün məhdudiyyətlərin aradan qaldırılması zəruridir.

***-Cəmiyyətdə karantin qaydalarına əməl olunmanın davamlı olmasının zəruri olduğunu iddia edənlərlə yanaşı yumşaldılma tədbirlərinin daha da genişləndirilməsini istəyənlər arasında polemika gedir. Sizcə, hansı tərəf daha haqlıdır?***

-Sərt karantinin davam etməsinin hazırkı dövrdə zəruri olduğunu doğru hesab etmirəm. Xəstələnmə hallarının azalmasını nəzərə alaraq normallaşma tədbirlərinin başladılması doğru qərardır. Hətta düşünürəm ki, normallaşmanı daha sürətlə və inamla aparmaq olar. Məsələn həftəsonlarında ictimai nəqliyyata qoyulan qadağa məncə tam aradan qaldırılmalıdır. İnsanların bayıra çıxmasına, sosial məsafə gözlənilməklə təmaslarına qoyulmuş bütün qadağalar götürülməlidir. Eyni zamanda vaksinasiya prosesinin də daha inamlı və asan aparılması təmin edilməlidir.

***-Son bir ildə həm pandemiya, həm müharibə müəyyən iqtisadi və sosial problemlərin ağırlığını artırdı. Mövcud vəziyyət barədə nə deyə bilərsiniz?***

-Bəli, həm pandemiya ilə əlaqədar məcburiyyət tədbirləri, həm də ərazilərimizin azadlığı uğrundakı müqəddəs müharibə ölkədə onsuz da normal olmayan sosial-iqtisadi vəziyyəti daha da ağırlaşdırdı.

Ölkədəki sosial-iqtisadi vəziyyətin əsas ağırlığı isə əlbəttə ki, əhalinin aztəminatlı hissəsinin üzərinə düşdü. Hansı ki, müharibənin də əsas ağırlığı məhz xalqın əksəriyyət təşkil edən bu təbəqəsinin üzərinə düşmüşdü. Dövlətin bu təbəqəni qoruması ilə əlaqəli tədbirlərə gəlincə isə korrupsiya və rüşvətxorluq üzrə ixtisaslaşmış hakimiyyət strukturları bu prosesin də normal aparılmasına imkan vermədi. Ölkədəki sosial təmin olunmuş təbəqə əsasən məmur və hakimiyyətə yaxın insanlardan ibarət olduğuna görə bu təbəqə ölkə üçün vacib olan hər iki prosesdə azarkeş rolunu oynadı. Yalnız balkonlarından bayraq asmaqla, küçədə şüar (əsasən də prezidentə yaltaqlanmaq mahiyyətli) qışqırmaqla işlərini bitmiş hesab etdilər. Əksəriyyəti də balkondan bayrağı yığışdırmamış bu müharibədə qələbəni xalqımıza bəxş etmiş ordumuzun, əsgərimizin zəhmətini heçə sayaraq korrupsiya və qanunazidd fəaliyyətlərini davam etdirdilər. Bir sözlə, vəziyyəti bir cümlə ilə ifadə etsək, elə əvvəlki kimidir. Hətta daha da ağırdır. Amma bir ümid var ki, düşmənə bütün məhdudiyyətlərə baxmayaraq, layiqli zərbələr vuraraq işğal altında olan vətən torpaqlarının böyük hissəsini azad edən qəhrəman xalqımız bu məlum korrupsionerlərin, xalqın malını və dövlətini talan edən zehniyyətin də dərsini verə biləcəkdir.



***-Məsələ odur ki, siyasi düşərgəyə də ümumi barış mühiti gəlmədi. Sizcə, ictimai-siyasi arenadakı gərginliyin kökündə nə dayanır?***

-Müharibənin gedişində müxalifət partiyaları yüksək vətənpərvərlik və dövlət əzmi nümayiş etdirdilər. Siyasi partiyaların, səhv etmirəmsə, hamısı düşmənə qarşı bir cəbhədə birləşmək bəyanatları vermişdilər. Bu çox mühüm məsələ idi. Bu Azərbaycan müxalif siyasi cəbhəsinin əks tərəfin ideallarından fərqli olaraq yüksək dövlət şüuruna malik olmasını təsdiq etdi. Həmin dövrdə dövlət başçısı da bəyanatında bunu dəyərləndirmişdi. Amma hiss olunur ki, hansısa mötəbər və gizli bir əl ölkədə sivil siyasi mübarizənin baş tutmasında maraqlı deyil və bütün gücü ilə bunun alınmamasına çalışır. Bu əlbəttə ki, ilk növbədə Azərbaycanın güclənməsini istəməyən beynəlxalq güclərə və onların daxildəki əlaltılarına sərf edən siyasətdir. Siyasi dialoqun olması, siyasi münasibətlərin qanun və üstün siyasi normalar səviyyəsində aparılması xalqın maraqlarına uyğun olan yeganə doğru yoldur. Bu istiqamətdə isə əsas rol yenə də hazırkı hakim qüvvənin üzərinə düşür.

***-Hakimiyyətlə dialoq tərəfdarı kimi çıxış edən ADP son iqtidar-müxalifət təmaslarının hansısa nəticəsini gördümü?***

-Dialoqun nəticəsi yoxdur, çünki dialoqun özü yoxdur. ADP-nin təklif etdiyi siyasi dialoq bir proses idi və bu ən azı ölkədəki real qüvvələr nisbətinə müvafiq olan parlamentin formalaşmasını nəzərdə tuturdu. Təəssüf ki, son parlament seçkiləri bütün cəhdlərə baxmayaraq köhnə zehniyyət, köhnə üsullarla, Azərbaycan xalqının maraqlarına zidd şəkildə həyata keçirildi. Və bu siyasi normallaşma ilə bağlı pessimizmin daha da dərinləşməsinə səbəb oldu. Amma vəziyyəti çıxılmaz hesab etmirəm və hesab edirəm ki, ölkədə ictimai siyasi vəziyyətin, siyasi münasibətlərin tədricən normallaşması mümkündür.

***-Bəs bu hakimiyyətlə dil tapmağın mümkün olmadığını iddia edərək barışmaz mövqedə olan müxalif qüvvələr nə dərəcədə haqlıdır?***

-Barışmaz qüvvələrin iddialarını doğru hesab etmirəm. Əvvəla bu barışmazlıq yalnız sözdədir, real ictimai dəstək yox dərəcəsindən azdır. Digər tərəfdən ən kəskin siyasi bəyanat müəllifləri ölkədən kənardadır və onların çağırışları daha çox, siz hakimiyyəti yıxın, biz gələk sizi idarə edək tipindədir. Bu isə əlbəttə ki, uğur qazanması mümkün olmayan modeldir. Çünki hakimiyyəti hətta barışmaz şəkildə radikal olaraq dəyişdirmək istəyirsənsə belə, bunu edəcək kütlənin içində və önündə olmalısan. Bunu kənardan şüar söyləməklə etmək mümkün deyil.

***Z.Məmmədli***

# Elman Rüstəmovun yanlış diaqnozları...

## Nüfuzlu beynəlxalq agentliyin araşdırması Mərkəzi Bank rəhbərinin hansı fikirlərini təkzib edir?

***Ötən ilin aprelin 27-də ölkədə dörd bank fəaliyyətini dayandırmış, daha doğrusu, Mərkəzi Bank tərəfindən həmin banklara müvəqqəti inzibatçı təyin olunmuşdu. Bu qərarın ardından Mərkəzi Bankın rəhbəri Elman Rüstəmov digər bankların vəziyyətini qənaətbəxş adlandırmışdı.***

Bu ilin əvvəllərində isə cənab Rüstəmov qeyd eləmişdi ki, hazırda Azərbaycanın bank sektorunda vəziyyət sabitdir. "Hazırda bank sektorunun və onun ayrı-ayrı institutlarının sabitliyi bizi tamamilə qane edir. Ancaq qeyd etmək istəyirəm ki, bank sektorunda yoxlamalar fasiləsiz xarakter daşıyır. Bu gün bank sektorunun kapitallaşma və likvidlik səviyyəsi prudensial normaları əhəmiyyətli dərəcədə üstələyir" deyən baş bankir ara-sıra müəyyən "xırda problemlərə" toxunsa da ümumiyyətlə sözügedən sektorda işlərin doğru istiqamətdə getdiyinə dair rəy formalaşdırmağa çalışır.



Lakin təzəlikcə "S&P Global Ratings" ("S&P") agentliyinin araşdırmasına görə, son 10 il ərzində MDB regionu ölkələrinin banklarının ümumi idarəetməsində ciddi və mütəmadi çatışmazlıqlar baş verib. Üstəlik, bildirilib ki, ən əhəmiyyətli çatışmazlıqlar Rusiya, Qazaxıstan və Ukrayna ilə yanaşı Azərbaycan banklarının korporativ və risklərin idarəetməsində baş verib. Bu isə öz növbəsində sözügedən ölkələrdəki bankların reytinqlərinə mənfi təsir edib.

Agentlik qeyd edir ki, idarəetmə banklarının kredit reytinqlərinin dəyərləndirilməsində əsas amillərdən biridir. "S&P"yə görə, bankların artıq Beynəlxalq Maliyyə Hesabatları Standartlarına (IFRS) uyğun olaraq mütəmadi maliyyə hesabatlarını dərc etdiklərinə baxmayaraq, aralıq dövrlər üçün vaxtında və tutarlı IFRS hesabatlarının alınması hələ də çətindir.

Bundan əlavə, agentliyin analitiklərinin fikrincə, regionda bağlanan və ya bağlanmağa yaxın olan bankların (yuxarıda da vurğuladığımız kimi, Azərbaycanda 2020-ci ildə dörd bank bağlanıb - "Amrahbank", "NBC Bank", "AtaBank" və "AGBank" (red.)) vəziyyəti bankların xarici auditinin keyfiyyəti və bu hesabatların etibarlılığı şübhə doğurub.

Analitiklər qeyd edib ki, yalnız Gürcüstanın bank sektoru regiondakı ölkələrdən seçilir. Bunun səbəbi kimi, Gürcüstan banklarının əksəriyyətinin və ölkənin ən böyük bankı sayılan "Bank of Georgia" və "TBC Bank"ın (hər iki bank London Fond Birjasının iştirakçısıdır) xarici investorlara məxsus olması və beləliklə, məlumatların açıqlanmasında və korporativ idarəetmədə daha yüksək standartların olması göstərilir.

Beləliklə, "S&P" kimi önəmli beynəlxalq agentliyin araşdırmasında iki mühüm məqam xüsusilə diqqəti cəlb edir. Birincisi, Elman Rüstəmovun əksər açıqlamalarında ölkənin bank sektoru ilə bağlı kifayət qədər yüksək fikirlər səsləndirilsə də, real situasiya baş bankirin söylədiklərindən fərqlidir. Xüsusilə Azərbaycan banklarının ümumi idarəetməsində böyük çatışmazlıqlar var. Bu isə mütəmadi şəkildə ciddi fəsadlara gətirib çıxarır. Məsələn, müəyyən bankların bağlanması kimi... Halbuki Elman müəllimin söylədiklərindən hələlik belə təhlükə olmadığı aydınlaşır. Bu yerdə gəlin yada salaq: 2020-ci ildə bağlanan "AtaBank" reallıqda azı bir il əvvəl müflisləşmişdi və öhdəliklərini icra etmirdi. Amma həmin dövrün hesabatlarına görə, onun vəziyyəti guya qənaətbəxş idi. Belədə insan düşünməyə bilmir: bəlkə hazırda hansısa başqa bankın da vəziyyəti çox pisdir, sadəcə, Mərkəzi Bank bunu ən tezi 1 ildən sonra etiraf edəcək...

İkincisi, regionda daha geniş iqtisadi imkanlara malik ölkə Azərbaycan olduğu halda Gürcüstanın bank sektorunun ön plana çıxması düşündürücüdür. Bunun Gürcüstan nöqteyi-nəzərindən səbəbi "S&P"-nin araşdırmasında göstərilib: ölkənin aparıcı banklarının xarici investorlara məxsus olması!

Azərbaycan baxımından səbəbini isə "S&P" göstərməsə belə hamımız kifayət qədər aydın bilirik: ölkədəki bankların böyük əksəriyyətinin müəyyən məmurolіqarxlara məxsusluğu!

Uzun sözün qısası, Mərkəzi Bank Azərbaycanın sözügedən sektoru ilə bağlı əsasən müsbət təsəvvürlər yaratmaq yerinə, diqqətini bu sektordakı köklü problemlərə yönəltmək, həmin problemlərin həll yollarını müəyyənləşdirmək barədə düşünməlidir.

Əks halda bank sahəsi ilə bağlı yanlış diaqnozların xoşagəlməz fəsadları ilə hələ çox qarşılaşacaq, ləğv edilən banklar barədə xəbərləri hələ çox oxuyacağıq...

*Sənan Mirzə*

# Nazir qazilərə əlillik təyinatı ilə bağlı məlumat verib

***"Postmüharibə dövründə sosial dəstək tədbirləri şəhid ailəsi üzvləri, Vətən müharibəsi qaziləri və yaxınlarından ibarət artıq 23 mindən çox şəxsi əhatə edib".***

"Unikal" xəbər verir ki, bunu əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Nazirliyin kollegiya iclasında bildirib.

Nazir deyib ki, bu tədbirlərdən biri də Vətən müharibəsində yaralanmış qazilərimizin yüksək texnologiyalı protezlə təminatıdır: "Artıq 25 qazi yüksək texnologiyalı protezlə təmin edilib, daha 50 qazinin də protezlərlə təminatı prosesi yekunlaşır".

S. Babayevin sözlərinə görə, yuxarı ətrafları amputasiya olunmuş qazilərimizin də son nəsil protezlərlə təminatı üçün işlər aparılır. İslandiyanın "ÖSSUR" şirkətinin Rusiya nümayəndəliyinin mütəxəssisləri də dəvət olunmaqla, onlarla birgə bu kateqoriyadan olan 32 qazimizdən müvafiq ölçülər artıq götürülüb. Yaxın vaxtlarda onlar da



yüksək texnologiyalı protezlərlə təmin olunacaq. Hərbi həkim komissiyaları tərəfindən təqdim edilmiş şəhadətnamələr əsasında Vətən müharibəsi qazilərinin əlilliyinin qiymətləndirilməsi işləri də davam edir. Şəhadətləndirilmiş 600-dən çox qaziyə əlillik təyinatı aparılaraq sosial ödənişlər təyin olunub. Həmçinin reabilitasiya mərkəzlərində qazilərin sosial-psixoloji dəstək və reabilitasiya xidmətləri ilə təminatı işləri də aparılır.

Nazir bu il mühüm bir hissəsi müharibə əlillərindən ibarət olmaqla 205 şəxsə mühərrikli təkərli oturacaq verildiyini, ümumilikdə cari ilin 5 ayında 5 minədək əlilliyi olan şəxsin 18 minə yaxın reabilitasiya vasitəsi ilə təmin edildiyini deyib. O, əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiyası, məşğulluğunun təmin olunması, əmək bazarına və sahibkarlıq fəaliyyətinə cəlb edilməsi işlərində müasir texnologiya və rəqəmsallaşmanın imkanlarından da istifadəyə də xüsusi önəm verildiyini bildirib.

İclasda əhalinin məşğulluğu və sosial müdafiəsi sahələrində səmərəli idarəetmə qərarlarının qəbul edilməsi üçün Milli Observatoriya tərəfindən Müayinə-Sorğu Sisteminin qurulması işləri, Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin cari ilin ötən dövrünə dair fəaliyyəti müzakirə olunub.



# Şəhid ailələri və qazilərə dəstək - "Məşğulluq marafonu" başlayır

***İşəgötürənlərin şəhid ailəsi üzvləri və Vətən müharibəsində yaralanmış qazilərin məşğulluğunun təminatında daha fəal iştirakının təşviqi məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən "Qəhrəmanlarımızın məşğulluğuna birgə dəstək olaq!" devizi altında yeni kampaniyaya -"Məşğulluq marafonu"nuna start verilir.***

"Unikal"ın məlumatına görə, Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev bildirib ki, möhtəşəm qələbəmizin qəhrəmanlarının - 44 günlük Vətən müharibəsində şanlı tarix yazan şəhidlərimizin ailə üzvlərinin, qazilərimizin sosial dəstəklə təminatı üçün çevik və genişmiqyaslı tədbirlər həyata keçirilir.

Qeyd olunub ki, postmüharibə dövründə artıq 23 mindən çox şəxsi əhatə edən bu tədbirlər çərçivəsində ən mühüm fəaliyyət istiqamətlərindən biri də şəhid ailəsi üzvləri və qazilərin məşğulluq məsələlərinin həll olunmasıdır. Son aylarda bu kateqoriyalardan olan 6400-dən çox şəxs aktiv məşğulluq proqramlarına cəlb olunub. Onlardan 5 minədək şəxsin özünüməşğulluq proqramı çərçivəsində kiçik biznes sahələri yaradılıb.

Şəhid ailəsi üzvləri və Vətən müharibəsində yaralanmış qazilərin məşğulluğuna dəstək marafonu bu istiqamətdə birgə səylərin gücləndirilməsinə hədəflənib. Məqsəd həmin kateqoriyadan olan vətəndaşların məşğulluq imkanlarının artırılması üçün aparılan işlərdə işəgötürənlərin korporativ sosial məsuliyyət, milli həmrəylik prinsipindən çıxış etməklə daha fəal iştirakına nail olunmasıdır.

Marafona qoşulmaq istəyən hər bir işəgötürən bu məqsədlə mövcud və ya yeni yaradılmış vakansiyalarını dma.gov.az/layiheler/mesgulluq-marafonu linkinə daxil olmaqla göndərə bilər. Həmin vakansiyalar şəhidlərimizin ailə üzvlərinin, müharibədə yaralanmış qazilərimizin iş yerləri ilə təminatı üçün istifadə olunacaq. İşsiz və işaxtaran şəhid ailəsi üzvləri və qazilərə həmin vakansiyalar üzrə göndərişlər veriləcək.

"Məşğulluq marafonu"na qoşulan hər bir işəgötürən bununla həm də bir vətənpərvərlik nümunəsi göstərmiş olacaq.

# DYP-dən AVRO-2020 ilə bağlı vətəndaşlara müraciət

***Bakı Şəhər Dövlət Yol Polisi İdarəsi Avropa çempionatı ilə əlaqədar vətəndaşlara müraciət edib.***

İdarənin bölmə rəisi, polis polkovniki Vaqif Əsədov Unikal.org-un sorğusuna cavab olaraq bildirib ki, Bakı Olimpiya Stadionu istiqamətinə yalnız xüsusi məntəqələrdən ayrılmış ictimai nəqliyyatlardan istifadə edilməsi tövsiyə edilir:

"Paytaxt sakinlərinin, əhalinin, avtomobil sahiblərinin və sürücülərinin nəzərinə çatdırırıq ki, keçiriləcək AVRO-2020 ilə əlaqədar təhlükəsizliyin təmin edilməsi məqsədi ilə Bakı Olimpiya Stadionu istiqamətində şəxsi avtomobillərdən istifadənin mümkünsüzlüyünü nəzərə alıb, bu istiqamətə yalnız xüsusi məntəqələrdən ayrılmış ictimai nəqliyyatlardan istifadə edilməsi tövsiyə edilir. Belə ki, azarkeşlərin Bakı Olimpiya Stadionu istiqamətində hərəkəti müxtəlif ərazilərdən ayrılmış ictimai nəqliyyat vasitəsi ilə təşkil edilməsi nəzərdə tutulub.

Eyni zamanda metronun "Koroğlu" stansiyasından azarkeşlər sərbəst piyada hərəkət edə bilər. Səməd Vurğun parkı yanından, metronun "Qara Qarayev" stansiyası ətrafından ayrılmış xüsusi avtobuslarla hərəkət təşkil ediləcək".

V.Əsədov deyib ki, artıq polis gücləndirilmiş iş saatı ilə hərəkət edir:

"Bakı Olimpiya Stadionu və onun ətrafı əməkdaşlarımız tərəfindən tam nəzarətə götürülüb. Təhlükəsizlik tədbirlərinin görülməsi üçün bütün zəruri tədbirlər həyata keçirilib. Bir da əhalini daha diqqətli olmağa çağırırıq. İnformasiya təhlükəsizliyinə diqqət yetirmələrini tövsiyə edirik".

# "Bakı Yastıq Zavodu" ASC: "Tender keçirilən zaman vergi borcu olmayıb"

***Son günlər mətbuatda "Bakı Metropoliteni" QSC-nin keçirdiyi tenderlərlə bağlı yayılan məlumatlar müzakirə mövzusuna çevrilib.***

Şin, mis torpaqlama zolağı və müxtəlif ölçülü mis kabel ucluğun satın alınması üzrə elan edilən tenderlə bağlı məlumatlar bizim qəzetdə də işıqlandırılıb. İddialara görə, "Bakı Yastıq Zavodu" ASC-nin hazırda 8008.85 AZN vergi borcu var. Bu səbəbdən də "Dövlət satınalmaları haqqında" Qanuna görə, vergi borcu olan şirkətlər tenderlərə qatıla bilməz. Bəzi iddialara görə, ASC-nin rəhbərliyi tenderdə iştirak üçün vergi borcu olmadığı barədə saxta arayış təqdim edib.

ASC-dən "Unikal"a daxil olan rəsmi məlumatda bildirilir ki, sözügedən iddiaların heç bir əsası yoxdur. Belə ki, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Bakı şəhəri Lokal Gəlirlər Baş İdarəsinin rəsmi arayışı mövcuddur. Qurumdan verilən arayışa görə, "Bakı Yastıq Zavodu" ASC 13.04.2021-ci il tarixinə vergilər üzrə hər hansı borcu yoxdur.

Bu səbəbdən dəqurumun "Dövlət satınalmaları haqqında" Qanuna görə hansısa tendere qatılmasında məhdudiyyət yoxdur.

O ki qaldı Bəşirov Loğman Bəşir oğlu ilə məhkəmə çəkişməsinə, həqiqətən məhkəmə çəkişməsi olub. 2015-ci ildə Aprlyasiya Məhkəməsi Bəşirov Loğman Bəşir oğlunu təqsirli bilərək Əhmədov İmam Baba oğluna təzminat ödəməsi haqqında qətnamə çıxarıb.

***Hüseyn***

# Gömrük Akademiyasında yeni ixtisas açıldı

***Dövlət Gömrük Komitəsinin Akademiyasında 2021/2022-ci tədris ili üçün bakalavriat səviyyəsinə yeni ixtisas -"İnformasiya texnologiyaları" ixtisası üzrə tələbə qəbulu həyata keçiriləcək.***

Unikal.org xəbər verir ki, I ixtisas qrupu üzrə qəbul aparılacaq ixtisasa 20 yer nəzərdə tutulur. Bununla da, Akademiyada bakalavriat səviyyəsində tələbə qəbulu aparılan ixtisasların sayı beş olacaq.

Beləliklə, Akademiyada I ixtisas qrupu üzrə "İnformasiya təhlükəsizliyi", "İnformasiya texnologiyaları", II ixtisas qrupu üzrə "İqtisadiyyat", "Beynəlxalq ticarət və logistika", III ixtisas qrupu üzrə isə "Hüquqşünaslıq" ixtisasına qəbul həyata keçiriləcək.

Bununla yanaşı, Akademiyada 2021/2022-ci tədris ili üzrə magistratura səviyyəsinəqəbul "Gömrük işi" və "Beynəlxalq iqtisadi hüquq"ixtisaslaşmaları üzrə həyata keçiriləcək.

# Eldəniz Səlimovun ailə şirkəti yaşıllıqlara qarşı...

## Azərbaycanda bəzi məmurlar, deputatlar təbiəti öz bizneslərinin qurbanına çevirmək "ənənəsini" nə vaxt tərgidəcəklər?

***Yola salmaqda olduğumuz həftə də deputat qalmaqalı sarıdan boş keçmədi. Bu dəfə millət vəkili Eldəniz Səlimovun atası Adil Səlimovun Xaçmazın Fərzəlioba kəndində ağacları qırdırması ortaya çıxdı.***

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinin rəisi Hikmət Əlizadə faktı təsdiqlədi. Bildirdi ki, mayın 25-də Xaçmazın Fərzəlioba kəndi ərazisində xüsusi mülkiyyətdə olan ərazidə kütləvi şəkildə meşə ağaclarının kəsilməsi qeydə alınıb. İlkin olaraq ziyan hesablanıb. Bunu həyata keçirən "Qərb Ekol" şirkətinə qarşı 7 min manat cərimə tətbiq olunub".

Xidmət rəisi onu da qeyd elədi ki, bununla bağlı sənədlər Xaçmaz Rayon Prokurorluğuna göndərilib: "Mayın 31-də bu hal davam etdiyi üçün yenidən qeydiyyat aparılıb. 25 min manat ziyan hesablanıb. Sənədlər yenidən prokurorluğa göndərilib.

İyunun 2-də o şirkət qoyulan məhdudiyyətlərə heç bir məhəl qoymadan öz əməllərinə davam etdiyi üçün 33 min 40 manat məbləğində ziyan hesablanıb və yenidən prokurorluğa təqdim edilib.

Biz hüquq-mühafizə orqanlarının araşdırmasını gözləməliyik".

Onu da deyək ki, məsələ ilə bağlı bir neçə gün əvvəl nazirlikdən bildirilmişdi ki, ərazidə iş aparan "Qərb Ekol" şirkəti ilə mülkiyyət sahibi Adil Səlimov adlı şəxs arasında razılaşma əldə edilib və aqrobağın salınması üçün işlərə başlanılıb. Lakin iş aparan "Qərb Ekol" şirkəti tərəfindən aqrobağ salınması üçün qanunamüvafiq sənədləşmə işlərinin aparılmadığı məlum oldu.

Bu qalmaqalın bir neçə diqqətçəkici məqamı var. Əvvəla ortaya çıxan fakt sayəsində Milli Məclisin daha bir üzvünü tanıdıq. Aydınlaşdı ki, ali qanunverici orqanımızda Eldəniz Səlimov ad-soyadlı da deputat var imiş. Ötən sayımızdakı bir məqalədə vurğuladığımız kimi, təəssüf ki, geniş ictimaiyyət əksər deputatların mövcudluğundan məhz belə skandallar sayəsində xəbər tutur. Ənənə yenə pozulmadı: atasının ağacları qanunsuz kəsməsi sayəsində daha bir millət vəkilini tanımış olduq.

İkinci, bir daha təsdiqləndi ki, hələ də bir çox Milli Məclis üzvləri geniş biznesə malikdir və adətə xilaf çıxmayaraq onlar bizneslərini ən yaxınlarının, ailə üzvlərinin adlarına rəsmiləşdirməkdədirlər. Unutmayaq ki, bundan öncəki illərdə cəmiyyətdə ən qıcıq doğuran məsələlərdən biri deputatlara, onların doğmalarına məxsus şirkətlər, daha doğrusu, belə şirkətlərin özbaşına davranışları idi. Kimsəni qınamalı deyil: ali qanunverici orqan təmsilçilərinin nəzarətində, yaxud himayəsindəki şirkətlər qanunlara dırnaqarası münasibət bəsləyirsə, onda başqalarından nə gözləyəsən?

Üçüncü, konkret olaraq hansısa biznes maraqları naminə ağacların kəsilməsi yalnız ekologiyaya qəsd ya da "yaşıl genosid" deyil, eyni zamanda ölkə rəhbərliyinin iradəsinə ziddir. Çünki dəfələrlə vurğulanıb ki, təbiətə bu cür münasibət yolverilməzdir və belələri ən ağır şəkildə cəzalandırılacaq. Dövlət başçısı öz çıxışlarında dəfələrlə ağacların qanunsuz olaraq kəsilməsinin yolverilməzliyini və bu qanunsuzluqlara qarşı daim ciddi tədbirlər görülməli olduğunu, belə hallara yol verən şəxslərin məsuliyyətə cəlb edilməli olduğunu bildirib. Həmin çıxışların birindən sitat: "Biz ekoloji vəziyyətlə bağlı məsələləri daim diqqət mərkəzində saxlayırıq. Ancaq ictimaiyyəti də, məni də narahat edən məsələ ağacların kəsilməsi məsələsidir. Buna yol vermək olmaz. Hesab edirəm ki, biz burada daha da ciddi məsuliyyət tətbiq etməliyik. Ağackəsmə tam şəkildə dayandırılmalıdır. Ancaq nadir hallarda, o da Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəyi ilə haradasa ağac ya köçürülə, ya kəsilə bilər. Ona görə mən dəfələrlə bu məsələlərlə bağlı öz fikrimi bildirmişəm. Deyə bilərəm ki, vəziyyət əvvəlki illərə nisbətən daha da müsbətdir. Ancaq biz istədiyimizə tam şəkildə nail ola bilməmişik. Gecə vaxtı gəlirlər, qanunsuz olaraq ağacları kəsirlər, yerləri düzəldirlər ki, ev tiksinlər. Bu, vicdansızlıqdır, bu, biabırçılıqdır, bu, cinayətdir. Ona görə aidiyyəti qurumlar təklif versinlər, biz ağacları kəsənlərə qarşı daha da ciddi tədbir görməliyik. Onlar məsuliyyətə cəlb edilməlidir. Bir daha demək istəyirəm ki, şəhərdə bir dənə də olsun ağac Ekologiya və Təbii Sərvətlər Nazirliyinin icazəsi, rəyi olmadan kəsilə bilməz. Bu, mənim son xəbərdarlığımdır".



Ölkə rəhbərliyinin belə açıq, birbaşa və sərt mövqeyindən sonra hələ də kimlərsə ağaclara, yaşıllıqlara, ümumilikdə isə təbiətə, ekologiyaya qənim kimi davranırsa, bizim əlavə sözümüz qalmır. Üstəlik, bu cür davranışların arxasında hansısa məmurun, yaxud deputatın özü, yaxınları, ailə şirkətləri dayanırsa şərhə yerli-dibli ehtiyac yoxdur. Çünki artıq söz sahibi hüquq-mühafizə orqanlarıdır.

***Hüseyn İsgəndərov***

# Abel Məhərrəmov üçün "həyəcan siqnalı"...

## Keçmiş rektor-deputatla bağlı məhkəmə qərarı "sonun başlanğıcı" sayıla bilər



***İki gün öncə ictimiyyətdə geniş rezonans doğuran məhkəmə qərarı elan olundu. Həmin qərara görə, Bakı Dövlət Universitetinin sabiq rektoru və eks-deputat, AMEA üzvü Abel Məhərrəmov 800 min manatdan artıq vəsaiti ödəməli olacaq.***

Məsələ burasındadır ki, Yasamal Rayon Məhkəməsində İsmxan Mirzəyev və bir neçə nəfərin iddiası üzrə keçirilən məhkəmədə A.Məhərrəmovun işlətdiyi usta və fəhlələrin pullarını vermədiyi üzə çıxıb. Bakı şəhəri, Süleyman Dadaşov küçəsindəki 4 mərtəbəli villa inşa etdirən sabiq rektor işlərə görə ödəməli olduğu 90300 (doxsan min üç yüz) manat vəsaiti ödəməyib.

Bundan başqa rektor özünə məxsus "Mona Liza" şadlıq sarayında bar, mebel və digər işlər gördürüb. Buna görə də hesablanmış 70000 (yetmiş min) manatdan cəmi 25 min manat ödəyib. Həmçinin Mərdəkan qəsəbəsindəki bağ evində sahəsi 44 kv. m olan kitab mebeli, mətbəx mebelinə də indiyə kimi ödəniş etməyib.

Sabiq rektor daha sonra Bakı şəhəri, Şərifzadə küçəsindəki "Qlobus" bağçasında materialı ustalardan olmaqla ümumi dəyəri 80000 (səksən min) manat olan işlər gördürüb. Burada isə 65000 (altmış beş min) manat ödənilməyib.

Abel Məhərrəmov ona etibar edən usta briqadasına Nabranda da "atıb". Belə ki, Xaçmaz rayonunun Nabran qəsəbəsinin Seyidli ərazisində "El Faro" Ailəvi İstirahət və Əyləncə Mərkəzində işlərin icrasına görə, ödəməli olduğu 210000 (iki yüz on min) manatdan bu günə kimi isə 186000 (bir yüz səksən altı min) manatı ödəməyib.

Beləliklə, bir neçə epizod üzrə Abel Məhərrəmova qarşı ümumilikdə 800 min manatdan artıq pul iddiası irəli sürülüb. İki gün öncə keçirilən məhkəmədə iddia təmin olunub.

Bir çox ekspertlərin fikrincə, bu məhkəmə qərarı keçmiş rektor üçün "həyəcan siqnalı" kimi qiymətləndirilə bilər. Söhbət ondan gedir ki, Məhərrəmovun adı ölkədə həyata keçirilən anti-korrupsiya əməliyyatları çərçivəsində qandallanması gözlənilən sabiqlər arasında hallanır. İstisna edilmir ki, bir sıra keçmiş iri məmurlar kimi Abel müəllimdən də vəzifədə olduğu müddətdə topladığı fantastik varidatın hüquqi müstəvidə haqq-hesabı istənilsin. Onun bir belə sərvətinin kökündə nə dayandığı əslində geniş ictimaiyyətə aydındır. Sabiq rektor və eks-deputat hələ bu postlarda ikən barəsindəki rüşvət və korrupsiya iddialarının sayı-hesabı yox idi. Hazırda isə təkcə məlum məhkəmə qərarındakı faktlar bu iddiaların doğruluğuna şübhə yeri qoymur. Rektor və deputat maaşı ilə, doğrudanmı, həmin qərarda sadalanan mal-mülklərə sahib olmaq mümkündür? Əlbəttə, xeyr! Deməli...

Deməli, Məhərrəmovun fantastik varidatının kökündə onun illər uzunu davam eləmiş qanunsuz əməlləri dayanıb.

İndi nəzərə alsaq ki, ölkədə aparılan anti-korrupsiya tədbirlərinin bir qolunu da vaxtilə vəzifədə olmuş şəxslərin qanundankənar əməllərinin araşdırılması təşkil edir, onda həqiqətən də növbənin sabiq rektora da çatacağına şübhə eləmək mümkün deyil. Üstəlik, Yasamal Rayon Məhkəməsinin haqqında danışılan qərarının bu gözləntini artırması tamamilə anlaşılandır. Çünki bu qərar yalnız Məhərrəmovun özbaşınalığından əziyyət çəkənlər üçün ədalətin bərpası deyil. Eyni zamanda Abel müəllimin misilsiz var-dövlətə sahib olmasının əyani isbatıdır. Qalır bircə ondan bu var-dövləti necə əldə etdiyini istintaq tərəfindən sorğu-sual etmək! Eyni zamanda unutmamaq lazımdır ki, məlum məhkəmə hökmündə bəhs edilən mal-mülk sabiq rektorun varidatının çox az bir hissəsidir. Məhərrəmovun mediaya bəlli olan və olmayan obyektlərinin, mülklərinin siyahısını sadalamaqla bitməz.

Qısası, gedişat onu göstərir ki, sabiq rektor da başqa bir çox keçmiş iri məmurlar kimi sadəcə vəzifədən uzaqlaşdırılmaqla yaxasını qurtara bilməyəcək. Aydın görünür ki, Məhərrəmovun rektorluqdan və deputatlıqdan məhrum olması ilə proses sona çatmayıb. Nəinki sona çatmayıb, əslinə qalsa "son" hələ indi başlayır - Yasamal Rayon Məhkəməsinin Abel müəllimin əleyhinə çıxardığı qərar məhz bu mənada keçmiş rektor-deputat üçün "həyəcan siqnalı" kimi dəyərləndirilməlidir. Həmin siqnal "sonun başlanğıcından" xəbər verir. "Sonun sonunu" görməkdən ötrü isə yəqin ki, elə də uzun müddət gözləmək lazım gəlməyəcək...

***Toğrul Əliyev***

# ÜST Azərbaycanda vaksinasiya prosesini yüksək qiymətləndirir

***"Azərbaycanda koronavirusa yeni yoluxma hallarının və bu xəstəliklə bağlı ölümlərin sayında azalmanın müşahidə olunması çox sevindiricidir".***

"Unikal" xəbər verir ki, bu barədə "Report"a Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa Regional Bürosundan bildirilib.

"Eyni zamanda ölkə əhalisinin vaksinasiya prosesində iştirakı sevindiricidir", - ÜST-ün regional ofisindən vurğulanıb.

Bildirilib ki, Azərbaycan əhalisinin 20 faizi artıq vaksinasiya edilib: "Bu, böyük bir müvəffəqiyyətdir və şübhəsiz ki, ölkənin COVID-19-la mübarizəsinə müsbət təsir göstərəcək".

Qeyd olunub ki, pandemiyanın hələ də bitmədiyi nəzərə alınaraq sayıqlıq itirilməməlidir. Yaxın gələcəkdə maska taxmağa, fiziki məsafəni qorumağa, əllərimizi yumağa və izdihamlı yerlərdən uzaq durmağa davam etməliyik, çünki bu tədbirlərin virusun yayılması ilə mübarizədə effektiv olduğunu bilirik. Vaksinasiya sayıqlığı itirməyə əsas vermir və insanlar özlərini və başqalarını qorumağa davam etməli, ictimai səhiyyə və sosial tədbirlərə bundan sonra da riayət etməlidirlər. Eyni zamanda ictimai səhiyyə və sosial məhdudiyyətləri yumşaldarkən diqqətli olmaq, ən çox risk altında olanlara və hələ də vaksinasiya olunmayanlara xüsusi diqqət yetirməliyik".

# Tibb işçilərinə maaş yazıb mənimsəyən baş həkimin əməlləri ifşa edildi

***1 nömrəli uşaq Somatik sanatoriyasının vəzifəli şəxslərinin əmək haqqı kartları ilə bağlı maxinasiyaları ifşa edilib.***



Bu barədə Unikal.org-a Baş Prokurorluğun Mətbuat xidmətindən məlumat verilib.

1 nömrəli uşaq Somatik sanatoriyasının baş həkimi Dilay İslamova və həmin müəssisənin baş mühasibi Burhan Cəfərovun qanunsuz əməlləri ilə əlaqədar keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin 179.2.3 (şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə mənimsəmə), 179.2.4 (xeyli miqdarda ziyan vurmaqla mənimsəmə) və 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət işi başlanaraq hazırda istintaqı aparılır.

Aparılmış istintaq-əməliyyat tədbirləri ilə Dilay İslamova və Burhan Cəfərovun sanatoriyada işçi kimi rəsmiləşdirilən, lakin faktiki olaraq işə gəlməyən ayrı-ayrı tibb işçilərinin əmək haqqı kartlarını özlərində saxlamaqla həmin kart hesablarında olan ümumilikdə 32 min 700 manat məbləğində pul vəsaitlərini nağdlaşdıraraq mənimsəmələrinə əsaslı şübhələr müəyyən edilmişdir.

İstintaq zamanı qeyd edilən vəzifəli şəxslər tərəfindən vurulmuş maddi ziyanın tam həcmdə dövlət büdcəsinə ödənilməsi təmin edilmişdir.

Hazırda cinayət işi üzrə əhəmiyyət kəsb edən halların müəyyənləşdirilməsi istiqamətində istintaq tədbirlərinin həyata keçirilməsi davam etdirilir.

# Azərbaycanda xaricə gedənlərdən COVID testi tələb EDİLMƏYƏCƏK



***Nazirlər Kabineti Azərbaycanda uçuşların və hava nəqliyyatı ilə sərnişin daşımalarının təşkili üzrə müvəqqəti Qaydalarda dəyişikliklərə aydınlıq gətirib.***

"Unikal" xəbər verir ki, Azərbaycandan yola düşən sərnişinlərin COVID-19-a dair PCR testindən keçirilməsi tələbi təyinat məntəqəsində müəyyən edilmiş qaydalara əsasən aviadaşıyıcı tərəfindən tənzimlənəcək.

Bundan əvvəl Azərbaycandan yola düşən, uçuşdan əvvəl 48 saat ərzində COVID-19-a dair PCR testindən keçən və nəticəsi neqativ olan sərnişinlər bu barədə arayışı təqdim etməklə uçuşa buraxılırdılar.

Azərbaycandan yola düşən sərnişinlərin arayışlarının yoxlanılması terminalların girişində fəaliyyət göstərən tibb personalı tərəfindən həyata keçirilirdi. Sərnişinlərin uçuşa qeydiyyatı və hava gəmisinə daxil olması bu arayışlar əsasında həyata keçirilirdi. Bu tələb ləğv edilir.

# Bu şəxslər COVID-19 pasportu ala bilməzlər

***"İgG analizi verərək COVID-19 pasportu almaq olmaz. Yalnız PCR analizi nəticəsində təsdiqlənən şəxslər üçün pasport verilir".***




Bu fikirləri Səhiyyə Nazirliyinin nəzdində fəaliyyət göstərən İşçi Qrupun üzvü Nailə Daşdəmirova deyib.

Onun sözlərinə görə, bu gün üçün Azərbaycanda südverən analar, hamilə və 18 yaşına çatmayan şəxslər vaksinasiyadan azaddır:

"Ümumdünya Səhiyyə Təşkilatının ekspertləri hazırda bu istiqamətdə tədqiqatlar aparırlar. Hələlik bununla bağlı hansısa qərar qəbul edilməyib".

## ISESCO-nun sabiq rəhbəri II Qareginin Xankəndiyə səfərini pislədi



***ISESCO-nun keçmiş baş direktoru, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü Əbdüləziz Osman əl-Tüveycri Ermənistanın katolikosu II Qareginin Xankəndiyə səfərini və onun intiqam şüarlarını səsləndirməsini pisləyən bəyanat yayıb.***

"Unikal"ın məlumatına görə, bəyanatda bildirilib ki, dini bir qurumun sülhə çağırmaq əvəzinə nifrət və müharibə dilini seçməsi, erməni kilsəsinin tolerant və çox mədəniyyətli Azərbaycandakı xristian dini yerlərinin guya təhdid altında olduğuna dair yalan məlumatlar yayması təəssüf doğurur:

"Bu, tamamilə yalandır, çünki ibadət azadlığı Azərbaycanın şərəfli bir xüsusiyyətidir. Mən Azərbaycanda kilsələrə və sinaqoqlara necə hörmət edildiyini və onların necə qorunduğunu görmüş beynəlxalq rəsmilərdən biriyəm. Tolerant siyasətinə görə hər zaman Azərbaycana və onun rəhbərliyinə təşəkkürümü bildirmişəm.

Biz, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri Cənubi Qafqazın mədəni irsinin bərpası və qorunması üzərində fəal işləyirik. Erməni işğalından azad edilmiş ərazilərdə salamat və təhqir edilməyən bir məscid, bir İslam dini abidəsi qalmadığı vaxtda Ermənistanın dini qurumları bu saxta ittihamları səsləndirir.

Döyüşkən ritorika və davranış bölgə insanları arasında inam və harmoniya mühiti yaratmağa kömək etmir, əksinə daha çox iftratçılığı və nifrəti təhrik edir. Sülh, yaxşı qonşuluq və birgəyaşayış çağırışları əvəzinə ölüm, işğal, işgəncə və şiddət çağırışları dini dəyərlərə ziddir".

## YAŞAT uşaqlara AVRO-2020-nin biletlərini hədiyyə etdi

***AFFA "Avro-2020"nin Bakıda keçiriləcək oyunları ilə bağlı korporativ sosial məsuliyyət təşəbbüsü çərçivəsində "Qayğı-Sağlam Nəsil Naminə" İctimai Birliyinin nəzdində fəaliyyət göstərən Daun sindromlu uşaqların reabilitasiya mərkəzi, "SOS Uşaq Kəndləri - Azərbaycan" Assosiasiyası İctimai Birliyi, "YAŞAT" Fondu, LU-MUN şirkəti, Qadın və Uşaq Sığınacağı, COVID-19 pandemiyası dövründə fəaliyyət göstərən tibb işçiləri (onların övladları) üçün biletlərin ayrılması barədə qərar qəbul edib.***

"Unikal" AFFA-ya istinadən xəbər verir ki, iyunun 12-də keçiriləcək Uels-İsveçrə oyunu üçün ayrılmış biletlər iyunun 10-da Bakı Olimpiya Stadionunda AFFA-nın nümayəndəsi tərəfindən həmin qurumlara bu və ya digər şəkildə aidiyyəti olan uşaqlara, eləcə də onları müşayiət edən şəxslərə təqdim olunub.

Qeyd edək ki, bu təşəbbüsün hədəf qrupu uşaqlardır.

## İradə İsak yeni vəzifəyə təyin olundu

***Tanınmış telejurnalist İradə İsak yeni vəzifəyə təyin olunub.***

"Unikal" xəbər verir ki, İradə İsak "AysMed" klinikasında direktorun birinci müavini təyin edilib.

"Övladımla əlaqədar uzun müddət çalışmırdım. Düşünürdüm ki, yenilikləri televiziya sahəsində edərəm. Lakin belə təklif gəldi və bu sahədə özümü sınamaq istədim. Klinikanın rəhbərliyi ilə əvvəl kiçik işlərimiz olmuşdu. Bəyəndilər və mənə bu vəzifəni təklif etdilər. Mənə etimad etdiyi üçün klinikamızın rəhbərliyinə təşəkkür edirəm", - deyə İradə İsak bildirib.

# Oqtay Şirəliyevin kadrlarının başı dərddə: həbslər başladı

## Baş həkimi ilə baş mühasibinə cinayət işi açılan sanatoriyadakı tenderlərlə bağlı da şübhələr var

***1 nömrəli uşaq Somatik sanatoriyasının baş həkimi Dilay İslamova və həmin müəssisənin baş mühasibi Burhan Cəfərova cinayət işi açılıb. Bu barədə rəsmi məlumatda deyilir ki, hər iki şəxsin qanunsuz əməlləri ilə əlaqədar keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin 179.2.3 (şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə mənimsəmə), 179.2.4 (xeyli miqdarda ziyan vurmaqla mənimsəmə) və 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət işi başlanaraq hazırda istintaqı aparılır.***



Aparılmış istintaq-əməliyyat tədbirləri ilə Dilay İslamova və Burhan Cəfərovun sanatoriyada işçi kimi rəsmiləşdirilən, lakin faktiki olaraq işə gəlməyən ayrı-ayrı tibb işçilərinin əməkhaqqı kartlarını özlərində saxlamaqla həmin kart hesablarında olan ümumilikdə 32 700 manat məbləğində pul vəsaitlərini nağdlaşdıraraq mənimsəmələrinə əsaslı şübhələr müəyyən edilib.

İstintaq zamanı qeyd edilən vəzifəli şəxslər tərəfindən vurulan maddi ziyanın tam həcmdə dövlət büdcəsinə ödənilməsi təmin edilib.

Hazırda cinayət işi üzrə əhəmiyyət kəsb edən halların müəyyənləşdirilməsi istiqamətində istintaq tədbirlərinin həyata keçirilməsi davam etdirilir.

"Unikal" qəzetinin apardığı araşdırma nəticəsində isə sözügedən müəssisə ilə bağlı bir müddətdir mediada ilginc iddiaların yer aldığı ortaya çıxıb. Məsələn, Səhiyyə Nazirliyinin tabeliyindəki bu sanatoriya tərəfindən ilin əvvəlində keçirilən tender müsabiqəsinin (kotirovka sorğusu) qalibi "Alvis" MMC olub. Şərtlərə əsasən bu MMC 1 nömrəli Uşaq Somatik Sanatoriyasının sifarişi ilə həmin quruma dəftərxana və təsərrüfat malları satacaq, sanatoriya isə adıçəkilən şirkətə 10 min 88 manat ödəyəcəkdi.

Maraqlı orasıdır ki, "Alvis" MMC 18.11.2020-ci il tarixində dövlət qeydiyyatına alınıb. 1 nömrəli Uşaq Somatik Sanatoriyası isə tender müsabiqəsini 01.12.2020-ci il tarixində elan edib. Bu da o deməkdir ki, tender müsabiqəsinin qalibi olan MMC tender elanının verilməsindən cəmi 12 gün əvvəl yaranıb. Bu günlərin də 4-ü şənbə və bazar günləri olaraq qeyri iş günləri olub.

Məlumat üçün bildirək ki, "Dövlət satınalmaları haqqında" Qanunun 6-cı maddəsində malgöndərənlərin (podratçıların) ixtisasına dair tələblər yer alıb. Həmin maddənin 6.2.1-ci bəndində açıq şəkildə yazılır ki, satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığın, təcrübənin, texniki və maliyyə imkanların, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığın olması lazımdır. Tender müsabiqəsində cəmi 8 gün əvvəl yaranan bir şirkətin hansı peşəkarlığa və təcrübəyə sahib olduğu isə şübhəsiz ki, maraq doğurur.

Onu da qeyd edək ki, 23 saylı Birləşmiş Şəhər Xəstəxanasının baş həkiminin iqtisadi məsələlər üzrə müavini Zinyət İsmayılovanın qanunsuz əməlləri ilə əlaqədar keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb. Bu barədə Baş Prokurorluğun Mətbuat xidmətindən məlumat verilib. Aparılmış istintaq-əməliyyat tədbirləri ilə Zinyət İsmayılovanın 13 aprel 2021-ci il tarixədək xəstəxananın baş həkimi vəzifəsində işləmiş Rəsul Baxşəliyevlə cinayətkar əlaqəyə girərək 2015-ci ildən etibarən xəstəxanada ayrı-ayrı vəzifələrdə işləmiş tibb işçilərinin əmək stajının hesablanması yolu ilə işə gəlməmələrinə şərait yaradılması müqabilində sonuncuların əmək haqqı kartlarını özündə saxlamaqla, kart hesablarına mədaxil olunan ümumilikdə 314 min 400 manat məbləğində pul vəsaitini hər ay nağdlaşdıraraq öz aralarında bölmələrinə əsaslı şübhələr müəyyən edilmişdir.

Bundan başqa, Zinyət İsmayılovanın 13.04.2021-ci il tarixdən hazırkı dövrədək həmin müəssisənin baş həkimi vəzifəsində işləyən Ceyhun Yusifovla birlikdə eyni cinayətkar üsul ilə həmin işçilərə məxsus cəmi 13 min 800 manat məbləğində pul vəsaitini hər ay nağdlaşdıraraq öz aralarında bölmələrinə əsaslı şübhələr müəyyən edilmişdir.

İstintaq zamanı vurulmuş maddi ziyanın 112 min manat hissəsinin dövlət büdcəsinə ödənilməsi təmin edilmişdir.

Hazırda cinayətlərin törədilməsində hər-hansı formada iştirak etmiş digər şəxslərin dairəsinin müəyyənləşdirilməsi və vurulmuş maddi ziyanın qalan hissəsinin ödətdirilməsi istiqamətində istintaq tədbirləri davam etdirilir.

Bu yaxınlarda Səhiyyə naziri postundan kənarlaşdırılan Oqtay Şirəliyevə yaxın kadr olduğu deyilən 1 saylı Uşaq Somatik Sanatoriyasının baş həkimi Dilay İslamovanın fəaliyyəti ilə bağlı başqa bir ilginc iddia da var. Bildirilir ki, müəssisənin keçirdiyi digər tenderlərdə də şübhəli məqamlar var. İstisna deyil ki, bunlar da istintaqın araşdırma mövzusuna çevriləcək.

Araşdırmamız nəticəsində o da məlum oldu ki, 1 nömrəli Uşaq Somatik Sanatoriyası 1937-ci ildən fəaliyyət göstərir. 2008-ci ildə Heydər Əliyev Fondu tərəfindən təmir edilən sanatoriya 120 çarpayılıqdır.

Barəsində cinayət işi açılan Dilay İslamova isə bu tibb müəssisəsinə Oqtay Şirəliyev Səhiyyə naziri təyin edildikdən (oktyabr, 2015) bir neçə ay sonra, 2006-cı ildə baş həkim kimi təyinat alıb...

***Ülviyyə***

# “Dəmir yumruq yerindədir!” mövzusunda tədbir keçirildi

***Ermənistanın təxribatlarının qarşısını almaq və uzun illərdir işğal altında olan tarixi torpaqlarımızı azad etmək məqsədilə Azərbaycanın “Dəmir yumruq” əməliyyatı ilə başladığı Vətən müharibəsi təcavüzkar Ermənistanın işğalçılıq siyasətinə son qoyularaq kapitulyasiyası, məğlubiyyəti ilə başa çatdı.***

Müdafiə Nazirliyindən “Unikal”a verilən məlumata görə, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında xalqımız və Ordumuz Vətən müharibəsində düşmən üzərində Qələbə çalaraq tarixi ədaləti bərpa etdi. Bu gün hər bir azərbaycanlı fəxr edir ki, qalib bir ölkənin vətəndaşıdır. Hər bir hərbi qulluqçu isə qalib bir Ordunun əsgəri olmaqdan böyük qürur duyur.



Zəfər günümüzdən altı aya yaxın bir vaxt keçməsinə baxmayaraq, düşmən yenə hiyləgər və məkrli niyyətlərindən əl çəkmir, biabırçı məğlubiyyəti ilə barışmaq istəmir, bölgədə mövcud olan reallıqlardan nəticə çıxarmır.

Müdafiə Nazirliyinin təşkilatçılığı ilə Raket və Artilleriya Qoşunlarının döyüşən hərbi hissələrindən birində “Dəmir yumruq yerindədir!” devizi altında keçirilən tədbirdə bu barədə daha ətraflı danışılıb. Ermənistanın təcavüzkar, işğalçı, terrorçu, dağıdıcı bəzi revanşist qüvvələrinə ismarıc ünvanlanıb ki, təxribatlar törətməkdənsə, sovet ideologiyasının tarixi Azərbaycan torpaqlarında yaratdığı ölkənizi bürümüş hərbi, siyasi, iqtisadi, mənəvi böhrandan xilas olmaq üçün yollar arayın, məzlum erməni xalqının gələcəyini düşünün. Əks təqdirdə Azərbaycanın atacağı addımlar daha ciddi, daha kəskin olacaqdır!

Tədbir başlamazdan öncə hərbi hissənin həyətində şəhidlərin xatirəsinə inşa edilmiş abidə ziyarət olunub, Birinci və İkinci Qarabağ müharibəsinin şəhidləri ehtiramla yad edilib.

“Qələbə marşı”nın sədaları altında Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətlə bəyan etdiyi kəlamlar səsləndirilib:

“Müharibə onların yadından çıxmasın. Unutmasınlar ki, dəmir yumruq yerindədir… Onlara elə cavab verməliyik ki, bunu öz tarixi yaddaşlarında əbədi saxlasınlar, bu, onların yaddaşından heç vaxt silinməsin və silinməyəcək. Bu gün orada baş qaldıran bəzi revanşist qüvvələr də bilməlidir, dəmir yumruq yerindədir!”.

Layihənin müəllifi Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani şəxsi heyət qarşısında çıxış edərək son vaxtlar dövlət sərhədində Ermənistan tərəfindən törədilən təxribatlara, düşmənin diversiya qruplarının fəallaşmasına kəskin etirazını bildirib. Azərbaycan əsgərinin peşəkarlığı, mübarizliyi ilə onların qarşısının vaxtında, itkisiz alındığını qeyd edərək hər kəsi ayıq-sayıq olmağa, ehtiyatı əldən verməməyə, döyüş hazırlığını daim yüksəltməyə çağırıb.

“Digər qoşunlarla yanaşı Raket və Artilleriya Qoşunlarının şəxsi heyəti də ölkəmizin müstəqilliyinin, təhlükəsizliyinin keşiyində ayıq-sayıqlığını heç vaxt itirmir və istənilən döyüş tapşırığının öhdəsindən layiqincə gəlməyə hazırdır. Artilleriyaçılarımız Vətən müharibəsində Qələbənin qazanılması naminə öz sözlərini deyib və müharibənin ilk günündən düşmən üzərinə endirdiyi kütləvi atəş zərbələri ilə onların dərinlikdə yerləşən bölmələrini canlı qüvvə və texnika baxımından böyük itkilərə məruz qoyaraq şok təsiri yaradıb, hava hücumundan müdafiə və radioelektron mübarizə vasitələrini sıradan çıxararaq havada üstünlüyümüzü təmin edib. Düşmənin ön xətdə və dərinlikdə yerləşən komanda və idarəetmə məntəqələrinə dağıdıcı zərbələr vuraraq onların idarəetmə sisteminin fəaliyyətini pozub”, - deyə polkovnik A.Qurbani artilleriyaçılarımızın böyük Zəfərin qazanılmasında müstəsna xidmətləri olduğunu bildirib.

Qeyd edilib ki, müharibənin ilk günü artilleriya bölmələri tərəfindən 500-ə yaxın hədəflər məhv edilib, müasir döyüş taktikasına uyğun olaraq xüsusi təyinatlı qüvvələr, motoatıcı bölmələr və pilotsuz uçuş aparatları ilə qarşılıqlı əlaqədə düşmənin hərbi obyektləri, taktiki əhəmiyyətli yol qovşaqlarını birləşdirən körpüləri, xeyli sayda canlı qüvvəsi, atəş vasitələri və hərbi texnikası aşkar edilərək vaxtında və dəqiq yerinə yetirilən atəşlərlə məhv edilib və bununla da özü haqqında miflər uyduran Ermənistan silahlı qüvvələrinin müqavimətlərinin qarşısı alınıb.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı heyəti qəhrəman artilleriyaçıları “Topçular marşı” və “Müzəffər Ordumuz” mahnıları ilə salamlayıb, onların Qələbə sevincinə şərik olub.

Respublikamızın ərazilərinin işğaldan azad edilməsi və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən “Qarabağ” ordeni və 5 döyüş medalı ilə təltif olunan hərbi qulluqçu Ümidvar Quliyev bildirib ki, Vətən müharibəsi dövründə təkcə Raket və Artilleriya Qoşunları tərəfindən düşmənin 380-dən çox artilleriya vasitəsi məhv edilib.

Şuşa şəhərinin işğaldan azad olunmasına və Qələbəyə aparan çətin ərazilərdən, düşmənin gözləmədiyi istiqamətlərdən, keçilməsinə böyük peşəkarlıq tələb olunan dağ-meşə yollarından uğurla keçən özüyeriyən və reaktiv qurğularımız fasiləsiz, dəqiq və sərrast atəş tapşırıqları ilə hücum edən bölmələrimizin atəş dəstəyini məharətlə təmin edib, artilleriya batareyalarının tətbiqi isə bu istiqamətlərdə hərbi əməliyyatların uğurla nəticələnməsinə səbəb olub.

Zabit Ü.Quliyev vurğulayıb ki, uzaqmənzilli raket sistemlərinin dəqiq atışları ilə düşmənin əməliyyat planları tamamilə pozulub. Artilleriyaçılar dünən olduğu kimi bu gün də, gələcəkdə də öz xidməti vəzifələrini şərəflə, vicdanla yerinə yetirməyə hazırdırlar. Dostlarımız da, düşmənlərimiz də birdəfəlik bilməlidirlər ki, Raket və Artilleriya Qoşunlarının da dəmir yumruğu yerindədir! Lazım olan vaxtda düşmənə dağıdıcı və sarsıdıcı zərbələr vurmağa qadirdir!

Hərbi qulluqçulardan “Qarabağ” ordeni ilə təltif olunmuş Pərviz İbrahimov və Şamxal Səlimovun cəbhə xatirələri də tədbir iştirakçılarında böyük maraq oyadıb.

Döyüşdə xüsusilə fərqlənən əsgər və zabitlərə “Vətən müharibəsi şəhidləri” kitabının nüsxələri hədiyyə edilib, Vətənimizi, Müzəffər Ali Baş Komandanı, rəşadətli Azərbaycan Ordusunu, Qələbəni tərənnüm edən mahnı və şeirlər səsləndirilib.

Tədbir aparıcının “Cəngi” musiqisinin sədaları altında söylədiyi şeirlə başa çatıb:

- Düşmən unutmasın bu son savaşı,
Aldığı yaralar çox dərindədir.
Qəzəbi kükrəyər Azərbaycanın,
Dəmir yumruq yenə öz yerindədir

Yumruqlarını düyərək bir ağızdan “Dəmir yumruq yerindədir!” deyən igid artilleriyaçıların gur səsi ətrafa yayılaraq düşmənlərə meydan oxuyub.



## Bakıda yeni ekspres marşut xətləri təşkil edilir - RƏSMİ

***Futbol üzrə Avropa çempionatının Bakıda keçiriləcək oyunları zamanı azarkeşlərin daşınması ilə əlaqədar Bakı Nəqliyyat Agentliyi (BNA) nəqliyyat planı hazırlayıb.***

BNA-dan “Unikal”a verilən məlumata görə, müvafiq dövlət qurumları ilə koordinasiyalı hazırlanan plana uyğun olaraq bilet alan azarkeşlərin Bakı Olimpiya Stadionuna və geriyə daşınması üçün ekspres marşrut xələri təşkil ediləcək.

X-1 marşrut xətti “Qara Qarayev” metro stansiyası yaxınlığında yerləşən “Sevinc” kinoteatrının önündən, X-2 marşrut xətti isə “28 May” metro stansiyası yaxınlığında yerləşən Səməd Vurğun parkının yaxınlığından - Dilarə Əliyava küçəsindən yola düşəcək.

Hər iki xətt oyunun başlama vaxtından 3 saat əvvəl işə düşəcək və oyunun başlanmasına 30 dəqiqə qalanadək davam edəcək. Oyun bitdikdən sonra isə ekspres xətlər üzrə əks istiqamətdə daşımalar yerinə yetiriləcək və ən son azarkeş geri daşınanadək fəaliyyət göstərəcək. Hər iki xətt üzrə avtobus sayı tələbata uyğun tənzimlənəcək. Zərurət yarandığı halda daşımalara ehtiyat avtobuslar da cəlb olunacaq. Daşımalar ödənişsiz həyata keçiriləcək.

Xaricdən gələn azarkeşlərin daşınması da ekspres xətt avtobusları ilə icra olunacaq. Bunun üçün P21 və P22 olmaqla əlavə iki ekspres xətt təşkil edilib. P21 xətti üzrə avtobuslar Xəlil Rza Ulutürk küçəsi - ”Dəniz Mall”-un qarşısı, P22 xətti üzrə isə Bakı Olimpiya Stadionun İctimai Nəqliyyat Terminalı-Ağ şəhər Bulvarı və əks istiqamətlərdə hərəkət edəcəklər. Qeyd olunduğu kimi P21 və P22 xətti üzrə avtobuslar yalnız xaricdən gələn azarkeşlərin daşınması üçündür.

Futbol üzrə Avropa çempionatına akkreditasiyadan keçmiş media işçiləri və könüllülər iyulun 5-dək müntəzəm marşrut xətləri üzrə avtobuslardan ödənişsiz hərəkət imkanına malikdirlər. Bununla bağlı daşıyıcılara tapşırıq verilib və müvafiq akkreditasiya nümunələri təqdim edilib.

Nəqliyyat əməliyyatlarının operativliyinin və nəqliyyatla əlaqədar tələb olunan xidmətlərin yüksək səviyyədə təmin olunması məqsədilə Bakı Nəqliyyat Agentliyi Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzində nəqliyyat məsələləri üzrə qərargah yaradılacaq. Qərargahın fəaliyyəti bu sahədə iştirak edən dövlət qurumlarının işini əlaqələndirməklə yol şəbəkələrinin, nəqliyyat tələbatlarının və nəqliyyat kommunikasiyalarının idarə olunmasından ibarətdir.



# Energetika naziri Böyük Britaniyanın Azərbaycandakı səfirini qəbul edib

***Energetika naziri Pərviz Şahbazov Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Ceyms Şarpı qəbul edib.***

Nazirlikdən “Unikal”a daxil olan məlumata görə, görüşdə ikitərəfli münasibətlər, energetika sahəsində mövcud əməkdaşlıq əlaqələri və gələcək perspektivlər istiqamətində müzakirələr aparılıb.

Azərbaycan Respublikası Hökuməti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 4-cü iclasının protokolunun icrasının gedişi müzakirə edilib, protokolda nəzərdə tutulmuş tədbirlərin icrasının əlaqələndirilməsi işlərinin təşkili ətrafında fikir mübadiləsi aparılıb. Cari ilin may ayında fəaliyyətə başlamış Britaniya ticarət palatasının fəaliyyətinin iki ölkə arasında iqtisadi əlaqələrin genişləndirilməsində əhəmiyyəti vurğulanıb.

Nazir iki ölkə arasında münasibətlərin bütün istiqamətlərdə, o cümlədən enerji sahəsində uğurla inkişaf etdiyini, mövcud əməkdaşlığın qlobal enerji sektorunun çağırışlarına uyğun yeni inkişaf mərhələsinə daxil olduğunu bildirib. Energetika Nazirliyi ilə Birləşmiş Krallığın Beynəlxalq Ticarət Nazirliyi arasında təmiz enerjiyə keçid sahəsində əməkdaşlığa dair imzalanmış Anlaşma Memorandumu, eyni zamanda BP şirkəti ilə iri miqyasda karbonsuzlaşdırılmış, inteqrasiya edilmiş enerji və nəqliyyat sistemləri sahəsində imzalanmış Anlaşma Memorandumu və Zəngilan/Cəbrayıl zonasında 240 MVt gücündə günəş elektrik stansiyasının tikintisi layihəsinin qiymətləndirilməsi və həyata keçirilməsi fəaliyyəti üzrə əməkdaşlığa dair imzalanmış İcra Müqaviləsinə müvafiq olaraq atılacaq növbəti addımlar qeyd olunub.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər müzakirə edilib.

# FHN əhaliyə müraciəti etdi

***Çimərlik mövsümünün başlaması ilə əlaqədar Fövqəladə Hallar Nazirliyi (FHN) əhaliyə müraciəti edib.***

FHN-dən verilən məlumata görə, çimərlikdə xoş zaman keçirmək üçün nazirlik bir sıra təhlükəsizlik qaydalarına əməl edilməsinin vacibliyini bildirib.

Belə ki, yeni növ koronavirusdan qorunmaq məqsədilə:

- çimərlikdə, ailə üzvləri istisna olmaqla, insanlar arasındakı məsafə 2 m, çətirlərin oxları arasındakı minimal məsafə 4 m olmalıdır!
- qapalı yerlərdə mütləq, açıq ərazilərdə və su ilə təmas olmayan yerlərdə mümkün qədər tibbi maskadan istifadə edilməlidir!
- özünüzdə COVID-19 infeksiyasına yoluxmaya xas simptomlar olan qızdırma, quru öskürək və s. hiss etdikdə dərhal tibb məntəqəsinə müraciət edilməlidir!

Həmçinin, qadağandır:

- nəzərdə tutulmamış ərazilərdə çimmək!
- çimmə zonasının işarələnmiş sərhədlərindən kənara üzmək!
- küləkli havada dənizə girmək!
- çimərlikdə gecələmək!
- sərxoş halda çimərlikdə olmaq!
- suda kobud hərəkətlər etmək!
- çimərlikdə balıq tutmaq!
- xilasetmə texnikasından başqa digər qayıq və kiçik gəmilərlə çimərliyə daxil olmaq!

Yadda saxlayın:

- Çimərlikdə uşaqlar nəzarətsiz qalmamalı, xəbərdaredici nişan və lövhələrin göstərişlərinə, xilasedicilərin çağırış və tələblərinə sözsüz əməl edilməlidir!
- Qızmar günəş altında fasiləsiz dayanmaq, hava qaraldıqdan sonra suya daxil olmaq təhlükəlidir!

Unutmayın: Qaydalara biganəlik - həyatımıza təhlükədir!

Təhlükə zamanı 112-yə zəng edin!

# Ermənistan və İrandadakı seçkilər regiona necə təsir edəcək? - ŞƏRH

***Bu ay Ermənistan və İranda seçkilər keçiriləcək. İyunun 18-də İranda 13-cü prezident seçkiləri baş tutacaq. Ermənistanda isə bundan iki gün sonra- iyunun 20-də növbədənkənar parlament seçkiləri təşkil olunacaq.***

Ermənistanda parlament seçkilərində iştirak etmək üçün 23 partiya və 4 blok qeydiyyatdan keçib. Budəfəki seçkilərin fərqliliyi ondadır ki, Ermənistanın bütün keçmiş prezidentləri və hazırkı baş nazir əvəzi seçkidə iştirak edir. İrandan fərqli olaraq Ermənistanda hazırda təşviqat kampaniyası gərginlik və ciddi qalmaqallarla müşahidə olunur.

Maraqlıdır, iki gün fərqlə keçiriləcək bu seçkilərin nəticələrinin regiondakı proseslərə hər hansı formada təsiri olacaqmı?

Məsələni Azvision.az -a şərh edən politoloq Qabil Hüseynli deyib ki, əslində gözlər indi Tehrandan çox İrəvana dikilib. Ermənistanda ötənilki ağır məğlubiyyət sonrası həddindən artıq gərgin durum yaranıb, ölkə hər an partlamağa hazır olan barıt çəlləyini xatıladır. Paşinyanın komandası seçkilərdə uğursuzluğa düçar olsa, yeni siyasi qüvvələr-radikallar bölgədəki böyük layihələrə problemlər yaşada bilərlər. İranda isə hakimiyyətə kimin gəlməsindən asılı olmayaraq əvvəlki dəst-xətt davam etdiriləcək.



“Hər iki ölkədə baş tutacaq seçkilərin nəticələri regional proseslərə bu və ya digər formada təsir göstərə bilər. Hazırda Azərbaycan dövlətinin marağında olan, elə cəmiyyətimiz üçün də önəmli görünən Ermənistandakı seçkilər olacaq. Çünki görünən odur ki, budəfəki seçkilərdə Rusiya bütün ipləri əlində toplaya bilib. Moskva hazırda özünün istədiyi adamları iş başına gətirmək istəyir. Bu isə o deməkdir ki, Qarabağda vəziyyətin yenidən gərginləşdirilməsi planları da qalacaq. Bu planlar Ermənistanı əlində saxlamağı bacaran Kremlin uzağa gedən niyyətlərinə daxildir”.

Politoloq deyir ki, ermənilərin ruslara olan inamı azalsa da, siyasi proseslərdə hələ şimal qonşumuzun sehrli çubuğu işini görə bilir. Bu mənada seçkilərlə bağlı gedişatlar, seçki günü və nəticələrin açıqlanmasından sonrakı hadisələrə Rusiyanın təsirləri hiss olunacaq.

Qabil Hüseynli Rusiyanın seçki prosesləri fonunda Qarabağda da müəyyən aktivlik göstərməsini diqqətçəkən amil kimi qiymətləndirib:

“Rusiya gözlənilməz şəkildə münaqişə zonasına sülhməramlı qüvvələrini yerləşdirməklə demək olar ki, hər şeyi həll etməyi bacarmışdı. Bu gün də çalışır ki, bölgədə əsas söz sahibi olsun. Məsələn, Azərbaycan əhalisi nəyə görə Kəlbəcərə getmək üçün mütləq şəkildə sülhməramlılardan icazə almalıdır? Niyə uzun illər maşın kalonlarımız öz ərazimizdə başqa ölkənin hərbçilərinin müşayiəti ilə hərəkət etməlidir? Bu bizim suverenliyimizə ciddi məhdudiyyətlər gətirir. Son zamanlarda isə, Rusiya tərəfindən Lavrov vasitəsilə yenidən status məsələsi tez-tez qaldırılmağa başlanıb. Hələlik Dağlıq Qarabağda bütün səlahiyyətləri öz əlində saxlayır. Belə görünür ki, Rusiya seçkilər fonunda bölgədəki siyasətini xeyli dərəcədə dəyişir. Kreml Ermənistanda yeni, özünə yaxın olan siyasi qüvvələri hakimiyyətə gətirmək istəyini gizlətmir. Təəssüf ki, bütün bunlar torpaqlarımızın azad edilməsi uğrunda apardığımız mübarizənin nəticələrinə kölgə salmağa bənzəyir. Belə olan təqdirdə Azərbaycan ya sülhməramlı qüvvələrin bu ərazilərdən çıxarılması, onun başqa sülhməramlı qüvvələrlə əvəzlənməsi, yaxud da bölgənin hərbsizləşdirilməsini reallaşdırmağı tələb edəcək. Ümumiyyətlə, hazırda Ermənistan və onun ətrafında cərəyan edən hadisələr Azərbaycan üçün əhəmiyyətlidir. İrəvanda baş verənlər bölgədə yeni isti müharibənin başlanacağına gətirib çıxara bilər”.

İran amilinə gəldikdə isə, politoloq bu ölkədəki seçkilərin də regional proseslərə ciddi təsir etməyəcəyini düşünür:

“Bu ölkənin siyasi məkanı elədir ki, seçkilərin nəticələri regional proseslərə radikal şəkildə təsir etmir. İranda teokratik rejimin təbiəti dəyişməyincə, burada köhnə hamam, köhnə tas olacaq. İran indiki halı ilə idarəetmədə din xadimlərini saxlayacaqsa, rejim dini xarakter daşıyacaqsa, Tehranın nə sözlərinə, nə verdiyi vədlərə, nə də onun regional əməkdaşlıq perspektivlərinə inanmaq çox çətin olacaq. Bunu Avropa da deyir, Qərb dəg İranlı namizədlərin arasında mühafizəkar, islahatçı və s. adlandırılan namizədlər olsa da, onların hamısı loru dildə desək, molla təbiətli adamlardı. Yəni islahatçı adı formaldır. Əgər ölkədə hakimiyyətin mahiyyəti dini amillərə bağlıdırsa, ideologiya dini ideologiyadan qaynaqlanırsa, burada nə kimi islahatlar həyata keçirib dünyaya açılmaq, regional proseslərdə aktiv iştirak etmək mümkün olacaq? Qapalılıq hər zaman saxlanılacaq. Ruhani rəhbərliyə islahatçı adı altında gəlmişdi. Nə kimi böyük dəyişikliklər oldu? Daha çox millətçi siyasətin şahidi olduq, daha çox dini siyasətin həyata keçirilməsini gördük. Verilən vədlər alayarımçıq qaldı. Milli azlıqlar isə, əvvəlki kimi problemlərlə baş-başa qaldılar. Bu ölkədə 45 milyonluq azərbaycanlılar 18 milyonluq farsların qarşısında hüquqları az olan milli azlıq hesab olunur. Öz dilində məktəblərin açılması və digər vədlər olsa da, heç biri reallaşmır. İran dəyişəcək, regiondakı proseslərdə əsas söz sahiblərindən birinə çevriləcəksə, bunun üçün ölkənin daxildən köklü şəkildə dəyişməsi tələb olunur. Tehranın belə kosmetik dəyişikliklərlə nə daxili, nə də xarici siyasətində ciddi bir irəliləyişlər edəcəyinə, bölgədə güclü söz sahibi olacağına inanmıram. Seçkilər yenə formal olacaq”.

***Tural Tağıyev***

# İranın yeni prezidenti kim olacaq və ondan nə gözlənilir - TƏHLİL

***İranda prezident seçkilərində təxminən 10 gün qalır. Konstitusiyanın Mühafizləri Şurasının qərarına əsasən, iştirak üçün rəsmi müraciət etmiş 580 namizəddən cəmi yeddisinə icazə verilib. Seçkidə iştirak etmək hüququ qazananların arasında keçmiş prezident Mahmud Əhmədinejat, parlamentin keçmiş spikeri Əli Laricani və hazırkı vitse-prezident İshaq Cahangiri kimi kifayət qədər populyar siyasi xadimlərin adları yoxdur.***

Seçkiöncəsi namizədlərə qoyulan tələblərin sərtləşdirilməsi onu göstərir ki, ölkənin siyasi rəhbərliyi səsvermədə sürpriz nəticələrdən ehtiyatlanır və öz favorit namizədinin seçilməsinə maneə yarada biləcək istənilən siyasi fiquru əvvəlcədən neytrallaşdırır. Və bu addımlar heç də təsadüfi deyil.

Namizədlərin arasında İran Ali Məhkəməsinin sədri İbrahim Rəisi prezident olmağa daha şanslı tirən icra hakimiyyətinin rəhbəri hesab olunur. Ölkədə şərti olaraq formalaşmış "islahatçılar" və "mühafizəkarlar" siyasi qanadları bir tərəfdən ictimai şüurda siyasi rəqabətin olması görüntüsü yaradır, digər tərəfdən isə dövlətin həmin dövr üçün siyasi xəttini xarakterizə edir. Eyni zamanda, siyasi elita arasında şərti bölünmənin olması Ali dini liderə qanadlararası balanslaşdırma yolu ilə effektiv idarəetməni həyata keçirməyə imkan verir.

İslahatçılarla mühafizəkarları fərqləndirən əsas xüsusiyyət birincilərin daha çox Qərblə əməkdaşlığın tərəfdarı olmalarıdır. Adətən, dövlət gələcək siyasi prioritetlərini Qərblə əməkdaşlıqda gördüyü zaman "islahatçılar"ın, digər halda isə "mühafizəkarlar"ın nümayəndəsinə siyasi dəstək göstərilir.

İranın siyasi arenası nəzarətdə olan rəqabət şəraitində fəaliyyət göstərsə də, bəzi hallarda qütblərarası mübarizənin kəskinləşməsi, dövlətin əsas güc strukturu hesab rılması istiqamətində işlərini nisbətən zəifləməsini nəzərdə tuturdu. Bu saziş islahatçı Həsən Ruhani komandasının ən böyük diplomatik uğuru hesab olunsa da, respublikaçı prezident Donald Tramp 2018-ci ildə İranı gizli olaraq uranı saflaşdırma işlərini aparmaqda ittiham edərək, birtərəfli qaydada bu sazişdən çıxdı və Tehrana qarşı sanksiyaları yenidən bərpa etdi.

### Azərbaycanla İran arasında memorandum imzalandı

2020-ci ilin əvvəlində iranlı general Qasım Süleymaninin ABŞ-ın endirdiyi raket zərbəsilə dünyasını dəyişməsi, Tehranın isə buna adekvat cavab verə bilməməsi "islahatçılar"ın əhali arasında dəstəyinin azalması, Qərbə qarşı sərt siyasi xəttin tərəfdarlarının sayının artmasına səbəb oldu. "Stasis Polling" təşkilatının bu ilin may ayında keçirdiyi sorğunun nəticələri göstərir ki, İranda potensial seçicilərin 24 faizi "mühafizəkarları", yalnız 9 faizi "islahatçıları2 dəstəkləyirlər.




görünür. Mühafizəkarlar qanadının ən nüfuzlu nümayəndəsi hesab olunan Rəisi keçən seçkilərdə islahatçıların nümayəndəsi, hazırki prezident Həsən Ruhaniyə məğlub olmuşdu. Bu dəfə islahatçıların Laricani və Cahangiri kimi parlaq nümayəndələri ilə bərabər, kifayət qədər nüfuzlu sayıla biləcək kommunikasiya və informasiya texnologiyaları naziri Cavad Cəhrominin də namizədliyinin təsdiq olunmaması, həmçinin hazırkı xarici işlər naziri Cavad Zərifin seçkiyə qatılmaması mühafizəkarların namizədi olan İbrahim Rəisinin prezident postuna maneəsiz yiyələnməsinə şərait yaradır.

İranda dövlətin başçısı Ali dini lider Əli Xameneidir və dövlət başçısı kimi ölkənin idarə edilməsi üzrə əsas səlahiyyətlər ona aiddir. Prezident daha çox bildiyimiz baş nazir funksiyalarını yerinə yetirən... olunan İslam İnqilabı Mühafizəçiləri Korpusunun yüksək vəzifəli generallarının bu mübarizədə tərəflərin hansısa birinə dəstəyi, yaxud, beynəlxalq və geosiyasi vəziyyətə görə ölkənin gələcək siyasi taleyilə bağlı bəzi hallarda qeyri-müəyyənliyin ortaya çıxması mümkündür.

Budəfəki prezident seçkiləri öncəsi İran kifayət qədər mürəkkəb vəziyyətlə üzləşib. Belə ki, Amerikada demokratların namizədi Co Baydenin hakimiyyətə gəlişi Tehran üçün yenidən Qərb dövlətlərilə "nüvə sazişi"ni imzalamaq şansı yaradıb. Xatırladaq ki, məhz 2015-ci ildə, yəni Obamanın prezident, Baydenin isə vitse-prezident olduğu dövrdə İranla imzalanmış "nüvə sazişi" Tehrana qarşı sanksiyaların yumşaldılması, bunun müqabilində isə İslam Respublikasının uranın saflaşdı-

Maraqlıdır ki, respondentlərin cəmi 27 faizi seçkidə iştirak edəcəklərini, 55 faizi isə qatılmayacağını bildiriblər. Siyasi fəallığın aşağı düşməsi əhalinin nəinki islahatçılara, ümumiyyətlə siyasi sistemə inamının azaldığını göstərir. 2019-cu ilin noyabr ayında İranda baş qaldırmış etiraz aksiyalarındakı siyasi şüarlar arasında Ali dini liderin istefası tələbləri də nəzərə çarpırdığını unutmaq olmaz.

ABŞ-la "nüvə sazişi" ətrafında real razılaşmanın əldə olunması və sanksiyaların ləğv edilməsinə tarixi şərait yaranmasına baxmayaraq, İran dövlətinin mühafizəkar qanada üstünlük verməsinin ilkin səbəbi ictimai rəyin islahatçılara qarşı olması ilə bağlıdırsa, başqa bir səbəb kimi Ali dini lider Əli Xameneinin artıq 81 yaşında olması və yaxın gələcəkdə öz vəzifəsilə vidalaşması riskinin mövcudluğu ilə bağlıdır. 1989-cu ildə İranın Ali dini rəhbəri Xomeyni vəfat etdikdən sonra Xameneinin prezident postundan bu vəzifəyə keçməsi yarana biləcək istənilən riskli vəziyyətdə prezident postunda sistemə sadiq şəxsin olmasının vacibliyini göstərirdi. İbrahim Rəisinin mühafizəkarlarla yanaşı, ölkənin dini elitası tərəfindən də dəstəklənməsi onun Xameneinin gələcək xələfi olması ilə bağlı əsaslı ehtimalların səslənməsinə əsas verir.

Bu nöqteyi-nəzərdən yanaşdıqda aydın olur ki, İranda seçkiqabağı vəziyyətin kəskin xarakter alması siyasi qütblər arasında mübarizənin əslində prezident postundan daha çox, ali dini rəhbər vəzifəsi uğrunda getməsi ilə bağlıdır.

***Tofiq Vahid***




# Sinəsi Vətənə sipər olan igid

***44 günlük İkinci Qarabağ savaşında sinəsini Vətən torpağına sipər edən, xalqına zəfər sevincini yaşadan igidlərdən biri də əslən Lerik rayonunun Pirasora kəndindən olan, sonralar ailəsi Neftçala rayonunun Aşağı Qaramanlı kəndinə köçüb, yurd-yuva quran Yunis Şaiq oğlu Orucovdur. O, şərəfli şəhid adını qazananda təzəcə 19 yaşına qədəm qoyurdu. Yaşına uyuşmayan qəhrəmanlığı onu Vətən səmasının əbədi parlaq günəşinə çevirdi. İndi öz xalqı üçün iftixar mənbəyi, qürur yeri olan Yunis bizlərə Vətəni necə sevməyi, doğma torpağı necə qorumağı öyrətdi. Ölümündən sonra dövlət tərəfindən layiq görüldüyü "Suqovuşanın azad olunmasına görə", "Vətən uğrunda" medalları Vətən müharibəsinin mübariz şəhidinin şərəfini bir qədər də ucaltdı.***



Yunis Salyan Peşə Liseyinin kənd təsərrüfatı fermerlik peşəsi üzrə bitirmişdi. Təhsil aldığı illər ərəfəsində həm də Neftçala Şəhər Uşaq İncəsənət Məktəbində tar musiqi alətinin "dilini" mükəmməl öyrənmişdi. Bu mehriban, səmimi gəncin nəcib həyat amalı, xeyirxah əməlləri el-obaya hörmət gətirir. 2019-cu ildə Vətənə keşik dövrü başlanır. Əyninə geydiyi hərbi geyimlə fəxr edir. Ön cəbhədə Vətən qarşısında öz borcunu ləyaqətlə, mərdliklə yerinə yetirir. Ən böyük arzusu ermənini dığalarını məhv etmək, 30 il düşmən tapdağında qalan Qarabağ torpaqları azad görmək olur. Tovuz döyüşlərində düşmənlə üz-üzə gəlir. Vətənə olan sonsuz məhəbbətini yağını əzməklə bir daha göstərir.

Vətən sevdalı igid əsgər Yunis Orucov İkinci Qarabağ müharibəsinin ilk günündə ön cəbhədə düşmənlə ölüm-dirim savaşında mərdliklə vuruşur, torpaqların azadlığı naminə, hətta canını qurban verməyə hazır olur. Talış-Suqovuşan istiqamətində gedən şiddətli döyüşlərdə yağıya sarsıdıcı zərbələr vurmaqla saysız-hesabsız işğalçının axırına çıxır. Yunisin növbəti döyüş əməliyyatı Ağdam-Ağdərə rayonlarında olur. Oktyabr ayının 9-da son gülləsinədək vuruşub canını Vətənə fəda etməklə tarix yazır. Elə bir tarix ki, hər dəfə Yunisin adı çəkiləndə həyata insanı elə-yurda bağlayan ilahi bir məhəbbət gəlir..

***Zəfər Orucoğlu,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

# "Üç qoç"un başı bir qazanda: Seçki, yoxsa söyüş marafonu?

***Artıq iki gündür ki, Ermənistanda növbədənkənar parlament seçkiləri ilə bağlı təşviqat kampaniyalarına başlanılıb.***

Kampaniya iyunun 18-dək davam edəcək, bundan sonra "sükut günü" olacaq. İyunun 20-də keçiriləcək erkən parlament seçkilərində iştirak etmək üçün rekord sayda - 23 partiya və 4 blok qeydiyyatdan keçib. Budəfəki seçkilərin fərqliliyi və "unikallığı" həm də ondadır ki, Ermənistanın bütün keçmiş prezidentləri və hazırkı baş nazir əvəzi seçkidə iştirak edir.

Sabiq prezidentlər Levon Ter-Petrosyan (Erməni Milli Konqresi), Robert Koçaryan ("Ermənistan" bloku), Serj Sarkisyanın lideri olduğu Respublika partiyası ("Vətən" partiyası ilə birlikdə "Şərəfim var" bloku) seçkilərə qatılmaq qərarına gəlib.

Əslində qeyri-rəsmi təbliğat kampaniyası daha əvvəl başlamışdı. Ayrı-ayrı şəhərlərdə müxtəlif siyasi qüvvələrin reklam lövhələri asılır, partiya rəhbərləri ölkəni gəzərək tərəfdarları ilə görüşlər keçirirdilər. Ara-sıra Koçaryanın təbliğatına hesablanmış kitab afişaları ya yumurta atəşinə tutulurdu, ya da polisə "məlum olmayan" şəxslər tərəfindən cırılırdı. Bir sözlə, seçki şousuna günlər əvvəl start verilmişdi

### Seçkiqabağı xaos

Cəmi 8 ay öncə müharibədən ağır məğlubiyyətlə çıxan Ermənistanda siyasi mübarizənin dinc şəkildə davam edəcəyi, problemsiz yekunlaşacağı real görünmür. Belə ki, hələ təşviqat kampaniyaları başlamamış opponentlər arasında gərgin rəqabət müşahidə edilirdi. Kampaniyalarını fərqli şəkildə aparan partiya rəhbərləri bir-birini misli görünməmiş şəkildə təhqir edir, xoşagəlməz ifadələr işlədərək özlərinə xal qazanmağa çalışırdılar. Bu proses hazırda daha iyrənc formada davam edir.

Prosesləri izlədikdə seçkilərə bir neçə blok və partiyanın qatılmasına baxmayaraq, əsas mübarizənin Robert Koçaryanla Nikol Paşinyan arasında getdiyini görmək olar. Maraqlısı budur ki, hər iki uğursuz siyasətçi tərəfdarları ilə görüşlərdə bütün qırmızı xətləri tapdalamaqla gündəmi zəbt edirlər. Normalda seçimlərə qatılanlar opponentlərini günahlandırsalar da, İrəvandan gələn seçki avazları daha çox söyüş, təhqir və ağılasığmaz ittihamlar üzərində qurulur.

Hələ təşviqat kampaniyası başlamamışdan öncə - iyunun 1-də Koçaryan rəqiblərini açıq-aşkar təhqir etmişdi. Nə qədər qəribə görünsə də, eks-prezident seçkilərdə əsas rəqibi olan Paşinyanı kişilikdən danışmamağa çağırmışdı:

"O kağızı imzaladıqdan sonra (Kapitulyasiya aktını nəzərdə tutur-red.) nə qədər uşaq bezini dəyişdiyini bilmirəm. İndi də kişilikdən danışır?".

Keçmiş prezident yalnız təhqiramiz ifadələrlə, lorı dildə desək, ağzına gələni danışmaqla kifayətlənmir, "inqilabçı" baş nazirin komandasını hədələməkdən də geri qalmır. Rəy sorğularında Paşinyanla başabaş mübarizə aparan keçmiş Qarabağ klanının əsas fiqurlarından olan Koçaryan, həmçinin tərəfdarları ilə görüşü zamanı indiki komandanın onun əlindən qaça bilməyəcəyinə eyham vurur: "Hara qaçsalar, tapıb gətirəcəyik, ayaqlarından tutacağıq".

Əslində Koçaryanın indidən qisasçılıq ruhunda danışması onun bəzi məmurların gözünün odunu almağa hesablanmış addımdır, anacaq İrəvanda bunu boşboğazlıq kimi qiymətləndirirlər.



Koçaryanın təhdid və hədəsinə cavab verən sabiq səhiyyə naziri, hökumət aparatının rəhbəri Arsen Torosyan ona səslənərək deyir:

"Bu gün mətbuatda Robert Koçaryana aid olan belə bir başlıq gördüm - "Kim qaçacaqsa, biz onun ayağından tutacağıq". Bu ölkədə heç kim sizdən qaçmır. Biz sizdən nə 2003, 2004, nə də 2007 və 2008-ci illərdə qaçdıq. Əmin olun, heç 2021-ci ildə də qaçmayacağıq".

Görünən odur ki, siyasi gərginlik ciddi hədə mərhələsinə çatıb. Hətta hakimiyyətə gəlmək üçün dəridən-qabıqdan çıxan erməni siyasətçilər özlərini daha çox kriminal avtoritet kimi aparırlar. İndidən deyə bilərik ki, Nikolun komandası seçkini uduzsa, onları ya dəmir barmaqlıqlar gözləyir, ya da hansısa başqa faciəvi hadisələr. Çünki Robert Koçaryan bir dəfə hakimiyyətdə olarkən kriminal fenomenliyini sübut etməyi bacarıb. Yenə öz ampulasındadır.

Koçaryanın arxı atlamamış "hop" deməsi, indidən hakimiyyətə gələcəyi təqdirdə hazırkı komandanı cəzalandıracağına eyham vurması Paşinyanın bütün kadrlarının hiddətinə tuş gəlir. Məlum hədədən çox keçmədi ki, Dövlət Kadastr Komitəsinin rəhbəri Marat Baqdasaryan eks-prezidentin yenidən ölkəyə rəhbərlik etmək iddiasında olmasını pisləyən açıqlama ilə diqqət çəkdi. Erməni məmur bəyan etdi ki, Koçaryan seçkini udsa, Ermənistanı Rusiyanın əbədi köləsinə çevirəcək.

"Bir vaxtlar ölkənizin başını kəsmiş və indi vətəninizi Rusiyanın əbədi köləsi etmək istəyən bir insanı müdafiə etməyə dəyərmi? Qana susayan bir insanı qoruyursunuz. Mədəni mübahisələrdən yayınaraq insanları 18-19-cu əsrlər ruhunda olan bir duelə dəvət edən şəxsi müdafiə edirsiniz. Heç olmasa övladlarınızın gələcəyini düşünün! Təsəvvür etmirəm ki, insan könüllü olaraq öz ölkəsi ilə birlikdə uşaqlarını necə kölə edə bilər. Nə qədər ki, gec deyil ayılın",- deyə Ermənistanın Dövlət Kadastr Komitəsinin rəhbəri söyləyib.

Nəhayət, Nikol Paşinyan səssizliyini pozdu və onu hədəfə alan rəqiblərinə daha sərt və tikanlı cavablar verməyə başladı. Nikol Abovyanda vətəndaşlarla görüşü zamanı Koçaryanla bağlı ifşaedici fikirlər səsləndirərək, onun prezidentliyinin qanunsuz olduğunu bildirdi:

"1998-ci ildə Koçaryan qanunsuz olaraq prezident seçildi. O, polisdən qeydiyyatda olduğu ərazi barədə saxta arayış təqdim etmişdi ki, guya son 10 ildə İrəvanda yaşayıb. 1998-ci il prezident seçkiləri saxtalaşdırıldı".

Paşinyan, həmçinin o dövrdə minlərlə insanın məhz Karen Dəmirçiyanı seçdiyini, ona səs verdiyini söylədi. Bildirdi ki, 1998-ci ildə əsas mübarizə Karen Dəmirçiyanla Robert Koçaryan arasında gedib.

Məlum hadisələrdən 23 il ötür. Yenə meydanda cinayətkar, işğalçı Koçaryan hakimiyyəti ələ keçirmək üçün mübarizə aparır. Onun seçki taktikası təxminən eyni ssenari ilə davam edir. Rəqibləri gözdən salmaq üçün bütün qırmızı xətləri tapdalayan, qurşaqdan aşağı zərbələrlə özünə divident qazanmağa can atan Koçaryan siyasi iyrəncliklərlə ölkə başçısı postunu ələ keçirməkdə israrlıdır.

Maraqlıdır ki, baş nazir postundan əl çəkmək niyyətində olmayan Nikol da rəqiblərini adekvat cavablarla susdurmaqdan və onları ifşa etməkdən çəkinmir. Odur ki, Paşinyan tərəfdarları qarşısında yüksək tonla Koçaryanı aşağılayaraq, ona başa düşdüyü dildə cavab verdi: "Robik, sən balaca oğlan deyilsən, kişi də deyilsən".

Bu azmış kimi, Paşinyan öz növbəsində keçmiş prezident Serj Sarkisyana da qarşı ağır ittihamlar səsləndirdi. O, keçmiş ölkə başçısının qumarbaz olduğunu, onun "Monte Karlo" kazinosunda milyonlarla dollar uduzduğunu ictimaiyyətin diqqətinə çatdırdı. Habelə sabiq prezidenti insan alverçisi adlandırdı.

Elə Sarkisyan da az aşın duzu olmadığını göstərir. Söyüş, təhqir ağır ittihamlar üzərində qurulan seçki marafonuna partiyasını qoşan Serj Sarkisyan cavabında Paşinyanı ağır ifadələrlə təhqir edərək ona 24 saat vaxt verdi. Əks təqdirdə Nikolun ailəsi ilə bağlı sensasion məlumatlar yayacağını vurğuladı:

"Bu əxlaqsız insana 24 saat vaxt verirərm. Ya o iddiası ilə bağlı faktı təqdim edəcək, ya da özü və ailəsi haqqında elə faktları dərc edəcəyəm ki, cəmiyyət onun üzünə tüpürəcək".

Qalmaqal səngiməmiş Sarkisyan müttəfiqini işə salaraq söyüş, təhqir yarışında önə çıxmağa çalışdı. Belə ki, "Vətən" partiyasının sədri Artur Vanetsyan sosial media üzərindən Paşinyanı aşağılayaraq, onun ölkədən qaçmasını məsləhət gördü.

"Qulaq as, fərari, sən kimsən axı müharibəni udmuş Qarabağ "qəhrəmanı"nın, prezidentin adını təhrif olunmuş formada çəkirsən? Mən səninlə işləmişəm, indi isə Serj Sərkisyanla işləyirəm və məndə belə təəsürat yaranıb ki, sanki mal tövləsindən akademiyaya düşmüşəm. Miskin kapitulyantsan. Öz günahlarında o qədər boğulursan, o qədər piy əritmisən və tər tökmüsən ki, hər yerdə iy verirsən. Get, sadəcə olaraq qaç. Bu, mənim sənə sonuncu dost məsləhətimdir",- Vanetsyan bildirib.

Əslində bu təhqir, hədə dolu seçki kampaniyalarının qısa xronologiyası bir sıra mətləblərə aydınlıq gətirmiş oldu. Əvvəla, görünən odur ki, Ermənistanda müharibə sonrası daxili gərginlik yalnız sosial-iqtisadi sferada deyil, siyasət məkanı da xaotik vəziyyətdədir. İkincisi, hakimiyyətə iddialı olan əsas müxalif qüvvələr "kapitulyant", "xain" kimi təqdim edilən Nikol Paşinyandan daha radikal və dağıdıcı təsir bağışlayırlar. İrəvanda "inqilabçı" baş nazirin hazırkı əsas rəqibləri heç də sağlam qüvvələr kimi görünmür, qisasçı açıqlamalarla Ermənistan üçün yaxşı heç nə vəd etmirlər.

Üçüncüsü isə, reytinqi aşağı düşən Paşinyanla yanaşı Koçaryanın da bundan sonra erməni cəmiyyətində ciddi nüfuz qazana biləcəyi real deyil. Hazırda ac və sosial-iqtisadi problemlər məngənəsində sıxılan erməni xalqını nə Sarkisyanın "qumarbaz" keçmişi, nə Koçaryanın Rusiyanın adamı olması, nə də Paşinyanın gələcəkdə ölkədən qaçması və ya cəzalandırılması maraqlandırır. Zəbt etdikləri qonşu ölkənin torpağından qovularaq məğlub duruma düşən erməni cəmiyyəti sağlam siyasi qüvvələrin axtarışındadır ki, onları ağ günə çıxaran olsun. Lakin seçki marafonunda yaşanan biabırçı hadisələr Ermənistanda hələ normal hakimiyyətin olmayacağını deməyə əsas verir.

***Tural Tağıyev***

**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi.**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# "Azərbaycan haqq işini sona çatdıracaq"

## Fəzail İbrahimli: "Böyük dövlətlər, beynəlxalq təşkilatlar Dağlıq Qarabağ həqiqətlərini eşidib, dərk edib, amma fərqli münasibət bəsləyir"

***Azərbaycan 28 il işğal altında olan torpaqlarını işğaldan azad etməklə Dağlıq Qarabağ həqiqətlərinin dünyaya çatdırılmasına əsl imkan yaranıb. Viran qoyulmuş kənd və şəhərlər, təhqir edilmiş ibadət yerlərimiz, dağıdılmış tarixi- mədəni abidələrimiz erməni vəhşiliyinin simasıdır. Milli Məclisin vitse-spikeri Fəzail İbrahimli ilə söhbətimizə də müharibədən sonra Qarabağda yaranmış reallıqlar, düşmən təxribatları və siyasi durumdan bəhs etdik...***

- Azərbaycan 44 günlük haqq savaşında qələbə çaldı. 28 il işğalda saxlanılan torpaqlarımız ordumuzun qüdrəti sayəsində azad olundu. Amma hələ də bunu qəbul etmək istəməyən, müxtəlif düşüncələrlə yaşayan, müxtəlif iddialar səsləndirən dövlətlər var. Fəzail müəllim, bu dövlətlərin Dağlıq Qarabağ həqiqətlərini olduğu kimi qəbul etməsinə nə mane olur?

-Böyük dövlətlər, beynəlxalq təşkilatlar Dağlıq Qarabağ həqiqətlərini eşidib, dərk edib, amma fərqli münasibət bəsləyir. Bizə müharibədən, yeni qələbəmizdən qabaq ermənipərəst qüvvələr hansı münasibətdə idisə, bu prosesin qarşısını almaq, Dağlıq Qarabağ münaqişəsini dondurulmuş vəziyyətdə saxlamaq, tədricən işğala Azərbaycan tərəfini öyrətmək və sair bu iddiaları yenə də yaşayır. Sadəcə olaraq bu iddiaların hüdudları azalıb. " Bütövlükdə işğal olunmuş Azərbaycan torpaqları müharibə ilə azad oluna bilməz" düşüncə sahiblərinin düşüncələrinə dəmir yumruq son qoydu. Məlum oldu ki, Dağlıq Qarabağ probleminin həllinin bir yolu var,o da müharibə ilə torpaqları işğaldan azad etmək. Cənab prezidentimiz başda olmaqla, bunu Azərbaycan ordusu reallaşdırdı. İndi bu istək, bu düşüncə, o dırnaqarası siyasi əxlaq Dağlıq Qarabağa hansısa formada status verilməsi məsələsinə yönəlib. Bu saat bunun üstündə ermənipərəst qüvvələr vurnuxur, düşünür. Amma



bunun bir cavabı var ki, onu da cənab prezidentimiz verib: "Dağlıq Qarabağın statusu gorbagor olub".

-İşğaldan azad edilmiş torpaqlarımıza xarici dövlətlərin, beynəlxalq təşkilatların nümayəndələri, xarici KİV-lərin təmsilçiləri səfər edirlər. Bu səfərlərin Dağlıq Qarabağ həqiqətlərinin dünyaya olduğu kimi təqdim olunmasında hansı müsbət təsiri var?

-Prezident də öz sözündə əbədi dayanıb. Xalqımız isə prezidentimizin arxasındadır. Ordumuz qüvvətli, iqtisadiyyatımız güclü, vətənpərvərliyimiz yetəri qədərdir. Prezidentin ifadəsi bu amillərə söykənir. Ayrı-ayrı dövlətlərin, beynəlxalq təşkilatların nümayəndələri, məsələn Fransa senatı Dağlıq Qarabağı gəlib görəndə onların bir qrupu əsil həqiqəti bilirdi. Sadəcə olaraq bunlara ermənipərəst mövqeləri imkan vermirdi ki, ədalətli mövqe tutsunlar. Bir qrupun yalnış ideologiyaya uyaraq hadisələrin saxtalaşdırılmış forması əsasında nəzəri cəhətdən bilikləri vardı. Gəlib Ağdamı, oradakı viranə qalmış şəhər və kəndləri görəndə düşüncələri də dəyişir. Hətta getdikləri ölkələrdə reportajlar hazırlayır, fikir mübadiləsi aparırlar.

-Fəzail müəllim, Dağlıq Qarabağ münaqişəsi başa çatıb, Azərbaycan öz ərazi bütövlüyünü təmin edib. Amma Ermənistan tərəfi işğaldan azad olunmuş torpaqlarımızda təxribat törədir, sakitliyi pozmağa cəhd edirlərg

-Bu saat yaralar təzədir. Yaraların sağalmasının zamana ehtiyacı var. Ermənistanda bu siyasət üzərində, Qarabağ düşüncələri üzərində dövlət quran, varlanan, harınlayan Koçaryanların, Sarkisyanların ideologiyaları boşa çıxıb. Ona görə də onlar sakit dayana bilmirlər. Loru dildə desək onların siyasi bizneslərı bankrota gedib. Nə qədərki onların gücü var sonuncu ana qədər vuruşacaqlar,iddialar irəli sürəcəklər, təxribatlar törədəcəklər və sair. Mən Ermənistanda baş verən o hadisələrə, yəni, istər yaşlı, orta yaşlı, istər cavanların düşüncələrinə baxanda görürəm ki, onların beyni zəhərlənib. Bunlar həqiqətən də elə bilirmiş ki, Dağlıq Qarabağ bunların vətənidir. Onların beyni silinməli, yuyulmalı, həqiqəti dərk etməlidirlər. Nə qədər ki, bunlar var problemlər yaşanacaq.

-Azərbaycan tərəfi hər dəfə böyük təmkin, səbir nümayiş etdirir...

-Azərbaycan tərəfi niyə təmkinli olmasın? Hesab edin ki, çox sağlam, güclü idmançı qarşısına çıxaraq onu təhqir edəni vurub yıxıb yerə. O da yerdə inildəyir. Qışqırır, durur, yıxılır və yenidən cumur. Amma gücü ancaq qışqırığa çatır. Bu gün təxribat törədən ermənilərin vəziyyəti buna bənzəyir. Əzilmiş, gücü heç nəyə çatmayan birinin yerdən daş götürərək atmağına...

-Supergüc dövlətlərin burada əsas marağı nədir?

-Qarabağ regionu yox, Qafqaz regionu uğrunda böyük dövlətlərin savaşı gedir. Rusiya, Amerika, Avropa dövlətlərinin hər biri Qafqazı Rusiyanın əlindən çıxartmağa çalışırlar. Gürcüstanı bitərəfləşdiriblər, Azərbaycan isə tam müstəqildir. Ermənistan Rusiyanın forpostudur. Ermənistana qondarma bir baş nazir qoyublar ki, o da yarıtmadı. Avropa, Rusiya və Amerika fikirləşir ki, hakimiyyətə kimi gətirsin ki, onun istəyini Qafqazda reallaşdırsın. Bunun uğrunda yarış gedir. Biz sonluğu görəcəyik. Hər bir halda kim Ermənistanda hakimiyyətə gəlsə də, iqtisadiyyatı zəif, siyasi cəhətdən qarmaqarışıq, ruhdan düşmüş bir millət bizim qarşımızda heç nə edə bilməz. Onlar üçün ən böyük itki böyük Ermənistan ideologiyasının məhv olmasıdır. 200 ildən artıq uğurlar əldə edən böyük Ermənistan ideologiyasının tabutuna bu müharibədə Azərbaycan sonuncu mismarı vurdu.

-Fəzail müəllim, son günlər əsas diqqət çəkən məqamlardan biri də Azərbaycan-Ermənistan sərhədlərinin demarkasiyasıdır. Demakrasiya işləri hazırda hansı mərhələdədir və bu proses hansı xəritə əsasında aparılır?

-Bizim öz xəritəmiz, sərhədlərimiz var. Onu bərpa etmək üçün sonuncu sözümüzü demişik və bu istiqamətdə iş də davam edir. Azərbaycan haqq işini sona çatdıracaq. Azərbaycan SSR, Ermənistan SSR və GürcüstanSSR...Ümumiyyətlə ikinci dünya müharibəsindən sonra sərhədlərin dəyişilməsi prinsipi qəbul olunmur. Beynəlxalq aləmdə də bu belədir. Biz o vaxt SSR-nin tərkibində idik. SSR-nin tərkibində də hər bir müttəfiq ölkənin öz sərhədi vardı. İndi hərə öz sərhədinə sahib olmalıdır. Ermənistan fürsətdən istifadə edərək gəlib Azərbaycanın sərhədlərini pozdu, torpaqlarını işğal etdi, Xocalı faciəsini törətdi. İndi zaman gəlib onlar özləri bu cəza ilə üz-üzə qalıblar. Geri çəkilməlidirlər, çəkilirlər də... Məğlubiyyət aktına imza atıblar,öz imzalarına da hörmətlə yanaşmalıdırlar. Azərbaycan qalib dövlətdir, qalib isə mühakimə olunmur. Azərbaycan sərhədlərini bərpa etmək istəyir. Dünya dövlətlərinin boy sırasında Azərbaycanın gur səsi iqtisadi, hərbi qüdrəti hər kəsə bəllidir.

-Zəngəzur dəhlizinin açılması da əsas şərtdir...

-Zəngəzur dəhlizi də birmənalı olaraq açılmalıdır. Bunu Paşinyan da etiraf edərək deyib ki, "necə ola bilər ki, Laçın dəhlizi açılsın, Zəngəzur dəhlizi açılmasın". Artıq onlar həqiqəti başa düşməyə başlayıb.

***Mələk Eyvazlı***

Səhifə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.



# "Elə etmə səni də Nərmin kimi öldürüb, Kürə atım" - Tovuzda taksi sürücüsü 3 uşaq anasını zorladı

***Gəncə Ağır Cinayətlər Məhkəməsində Tovuz rayonu Dondar Quşçu kənd sakini Ceyhun Əliyev (şərti) barəsində Cinayət Məcəlləsinin 149.2.4-cü (Zorlama - öldürmə və ya sağlamlığa ağır zərər vurma hədəsi ilə, habelə xüsusi amansızlıqla törədildikdə) maddəsi ilə açılmış cinayət işi üzrə məhkəmə prosesi keçirilib.***

"Unikal" publika-ya istinadla xəbər verir ki, hakim Nural Əliyevin sədrliyi ilə keçirilən prosesdə bəzi maraqlı məqamlar üzə çıxıb. Bəlli olub ki, 1982-ci il təvəllüdlü Ceyhun ailəlidir, onun zorladığı həmkəndlisi Arifə Məmmədova (şərti) isə 3 uşaq anasıdır və 2017-ci ildə rəsmi qaydada həyat yoldaşından boşanıb və övladları ilə birlikdə anasının evində yaşayır.

Hadisəyə gəlincə, 2019-cu ilin 15 dekabr tarixində özünə məxsus "VAZ 2106" markalı avtomobillə taksi fəaliyyəti ilə məşğul olan Ceyhun onun maşınında müştəri olmuş Arifənin anasının nəqliyyat vasitəsində unutduğu çantasını vermək üçün onların evinə gəlib. Bu zaman Arifə həmkəndlisi və taksi sürücüsü kimi tanıdığı Ceyhuna çantanı qoyub getməsini və yarım saat sonra gələrək onu Qovlar şəhərinə aparmasını, uşaqlarının müəllimi ilə danışmağa gedəcəyini bildirib. Lakin yarım saat sonra zəng etsə də, Ceyhuna zəng çatmayıb. Başqa maşınla Qovlara gedən qadın daha sonra yenidən Ceyhuna zəng edərək onu kəndə qaytarmasını xahiş edib.

Zərərçəkən qadın ifadəsində bildirib ki, Ceyhun onu götürüb maşını hərəkətə gətirdikdən bir qədər sonra anası Püstənin (şərti) Kür çayının sahilindəki yerdə başqa bir şəxslə yeyib-içdiyini və sərxoş vəziyyətdə olmasını bildirib. Bunu eşidən Arifə sürücünün maşını həmin yerə sürməsinə etiraz etməyib. Lakin əsas yoldan çıxıb bir qədər hərəkət etdikdən sonra Ceyhun maşını saxlayaraq arxa tərəfə keçib və orada oturan müştərisinə onu çox bəyəndiyini, cinsi əlaqədə olmaq istədiyini deyib. Bunu eşidən qadın yumruqla Ceyhunun gözünə zərbə endirib. Ceyhun isə məqsədini həyata keçirməyə israr edib və Arifənin qarşıdan gələn Yeni il üçün uşaqlarına aldığı hədiyyələrin içindən şarı götürərək onun boğazına keçirib. Hadisədən bir müddət əvvəl yaşadıqları Dondar Quşçu kəndində 10 yaşlı Nərminin müəmmalı şəkildə yoxa çıxmasını xatırladan Ceyhun "Elə etmə səni də Nərmin kimi öldürüb, Kürə atım", deyərək qadına qarşı hədə-qorxu gəlib. Qadına qarşı eyni zamanda fiziki zor tətbiq edən şəxs onun müqavimətini qıraraq zorla cinsi əlaqədə olub.

Qorxu keçirən qadın Ceyhuna ondan şikayətçi olmayacağını deyərək onu evlərinə qaytarmasını xahiş edib. Arifənin sözlərinə inanan sürücü maşını kəndə doğru sürməyə başlayıb. Yolda olarkən Arifə Dondar Quşçu kəndinin polis sahə müvəkkilinə başına gələn hadisə barədə məlumat verib. Maşın Tovuzun Əlimərdanlı və Hunanlar kəndi arasında hərəkətdə olarkən polislər onları saxlayıb.

İstintaq materiallarından məlum olur ki, Ceyhun Əliyev tutularkən Nərminin qətlinin üstü hələ açılmayıbmış və o da bu hadisə barədə sorğu-sual edilib. Zorlama olayından təmixənən 20 gün sonra isə kənd ərazisində Nərminin yanmış meyiti tapılıb və qətlin başqa şəxs tərəfindən törədildiyi üzə çıxıb.

Məhkəmənin hökmü ilə zorlamada təqsirli bilinən şəxs 5 il müddətinə azadlıqdan məhrum edilib.

# Hər dəfə pivə içəndən sonra bir fahişə öldürdü - Azərbaycanda şok cinayət

***Hacıqabulda fahişəni öldürən, Bakıda isə transseksualı öldürməyə cəhddə təqsirləndirilən Hikmət Fərəcov bu əməlləri niyə etdiyini açıqlayıb.***

Lent.az bu cinayət işi üzrə hadisəni törədən şəxsin və sağ qalan transseksualın ifadəsini təqdim edir.

Hadisəni törədən H.Fərəcov ittiham üzrə özünü təqsirli bilərək ifadəsində göstərib ki, ailəlidir, himayəsində iki övladı var:

"Usta işləməklə ailəmi dolandırmışam. Hadisə günü pivə içmək üçün yaşadığım Hacıqabul rayonunun Nəvahi kəndində yerləşən "Tural" kafesinə getdim və orada pivə içdim. Bundan sonra əxlaqsız qadınları öldürmək fikrinə düşdüm. Həmin vaxt, təxminən saat 23-də qarşıma Şəlalə adlı fahişəliklə məşğul olan qadın çıxdı. Onunla əvvəllər bir dəfə cinsi əlaqədə olmuşdum. Onunla yenə münasibətdə olmaq istədim. Lakin müştərisi olduğu üçün mənə yox dedi. Gedib marketdən bıçaq aldım. Sonra qarşıma daha bir fahişə çıxdı. Fidanla (ad şərtidir) 10 manat qarşılığında cinsi münasibətdə olmaqla bağlı razılığa gəldik, pulu verdim. Məqsədim onunla cinsi əlaqədə olmaq yox, onu öldürmək idi. Bundan sonra birlikdə yoldan üzü yaşıllıq sahəyə tərəf getdik. O, hər şeydən xəbərsiz idi. Səsi çıxmasın deyə, anidən sol əlim ilə Fidanın ağzından tutdum. Sağ əlim ilə bel kəmərində saxladığım bıçağı çıxardıb onun boğazının qabaq tərəfinə bir zərbə endirdim. Fidan xırıldamağa başladı, yerə yıxıldı. Fidanın çantasından salfet çıxarıb bıçağı və əlimi sildim. Çantada olan 40 manatı götürdüm".

Təqsirləndirilən şəxs deyib ki, daha sonra kafeyə gəlib Şəlaləni gözləyib:

"Bayaq mənimlə olmaqdan imtina edən və "Kamaz" sürücüsü ilə gedən Şəlaləni səhərə qədər gözlədim. Məqsədim onu da öldürmək idi. Lakin sonuncu gəlib çıxmadı. Bundan sonra avtobusla Bakı şəhərinə gəldim. Məqsədim əxlaqsız həyat tərzi sürən şəxsləri öldürmək, cəmiyyəti onlardan təmizləmək olub. Saat 7:20-də metronun "20 Yanvar" stansiyasının yaxınlığında avtobusdan düşdüm. Sosial şəbəkələrdə əxlaqsız həyat tərzi sürən bir neçə şəxsin nömrələrini götürdüm. Həmin gün əsasən "20 Yanvar" dairəsi ətrafında və "Şamaxinka" adlanan ərazilərdə gəzdim. Günorta vaxtı Fidanı öldürdüyüm bıçağı tulladım. Ondan götürdüyüm pullar qurtardığı üçün, öz telefonumu "20 Yanvar" metrostansiyasının yaxınlığında mağazada satdım. Gecəni isə yaxınlıqdakı oteldə keçirdim. Səhəri gün sosial şəbəkədən götürdüyüm nömrələrdən birini yığdım. Söhbət zamanı qadın kimi bildiyim şəxslə görüş təyin etdim. O məni evinə dəvət etdi. Görüşdən əvvəl iki qab "Əfsanə" pivəsi içdim. Danışılan vaxtda, yəni günorta saat 13 radələrində həmin mənzilə getdim. Mənzilin qapısını qara saçlı qadın olduğunu düşündüyü şəxs açdı. Sonradan qadının əslində kişi olduğunu bildim. Onunla yataq otağına keçdim. 40 manat ödəniş etdim. Sonuncu mənim yanında uzanıb, bədənimə toxunmağa başladı. Bu zaman bıçağı çıxarıb onun bədəninə 2-3 bıçaq zərbəsi vurdum. O qışqırmağa başladı, otağa tanımadığım şəxs daxil oldu. Səs-küy düşdüyündən, bıçağı yataq otağında döşəmənin üzərinə atıb çılpaq vəziyyətdə mənzildən qaçdım. Çöldə mənzilin yaxınlığında polis əməkdaşı məni paltarsız görüb saxladı. Törətdiyim hadisə barədə polislərə məlumat verdim. Məni 39-cu Polis Bölməsinə apardılar. Əməlimdən peşmanam".



Məhkəmə iclasında zərərçəkmiş şəxs qismində dindirilmiş Nihat (ad şərtidir) ifadəsində göstərib ki, transseksualdır. Valideynləri və bacısı Masallıda yaşayırlar. 2019-cu ilin avqust ayından Bakı şəhərinə köçüb. Bakıda dostları özü kimi transseksuallarla birlikdə yaşayır:

"Yaşadığımız evdə həm də intim xidmətlər göstəririk. Müştərilərlə adətən sosial şəbəkələrdə tanış olub, kirayə qaldığım ünvana çağırmışam. Hadisə günü bir oğlan zəng vurub görüşmək istədiyini bildirdi. Qiymətdə razılaşdıq, ünvan verib evə dəvət etdim. Hikmət 40 manat pul ödədi. Birlikdə yataq otağına keçdik. O ayaq yoluna getdi, məndə pulu ev yoldaşıma verdim. Ona soyun gələrəm dedim. Hikmətlə yatağa girəndən sonra onu sığallamağa başladım. Bu zaman o mənim üstümə çıxdı, əli ilə boğazımdan sıxmağa başladı. Qəfildən bıçaqla zərbələr vurdu. Qışqırdım. Səsimə ev yoldaşlarım içəri daxil oldu. Hikmət bu zaman çılpaq şəkildə qaçdı. Bundan sonra huşumu itirdim, ayılanda xəstəxanada idim. Hikmət məni heç bir səbəb olmadan öldürməyə cəhd edib. Ona ağır cəza təyin edilməsini xahiş edirəm".

Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Hikmət Fərəcov 19 il müddətinə azadlıqdan məhrum edilib.

# Sosial şəbəkələrdə şikayətlərə cavab vermək olarmı? - Şirkətlərin nəzərinə

***Son bir neçə ildə istehlakçılar sosial şəbəkələrdə brendlərlə mənfi təcrübələri barədə getdikcə daha çox yazırlar. ABŞ İstehlakçı Narazılığı Araşdırmasına (2020) əsasən, rəqəmsal platformalarda (telefonda və ya şəxsən deyil) şikayət etməyə üstünlük verən alıcıların sayı son üç ildə üç dəfə artıb.***

Əksər şirkətlərdə hesab edirlər ki, şikayətə dərhal və ictimai şəkildə cavab vermək daha yaxşıdır. Lakin bu cür yanaşmanın bir neçə mümkün çatışmazlığı var. Bir tərəfdən, ictimai şəkildə verilən cavablar təşkilatın öz müştərilərinin qayğısına qaldığını və onların problemlərini aktiv şəkildə həll etməyə çalışdığını göstərir, digər tərəfdən isə bu problemlərə daha çox diqqət cəlb edir. Bu, xüsusilə “Twitter”ə aiddir: şirkət müştərinin tvitinə cavab verdiyi halda onu bütün auditoriyası görür (cavab vermirsə, tviti yalnız müştərinin abunəçiləri görür). Bu cür tvitlərin üstünlük təşkil etməsi hesabınızı şikayət dəftərinə çevirə bilər ki, bu da istehlakçıların və investorların brendinizə münasibətinə təsir edəcək (bu fenomeni “şikayət görünmə effekti” adlandırırıq).



Bu problemləri nəzərə alsaq, şirkətlərin sosial şəbəkələrdə şikayətlərlə işləməsini necə yaxşılaşdırmaq olar? “S&P 500”ə daxil olan və 2014-2015-ci illərdə “Twitter”də səhifəsi olan şirkətlər (cəmi 375 şirkət) üçün bu sosial şəbəkədə trafikin geniş miqyaslı analizini apardıq və müəyyən etdik ki, şikayətlərin görünməsinin mənfi effekti bir qayda olaraq müştərilərə olan görünən qayğının müsbət effektini üstələyir.

Birinci tədqiqatımızda hər rüb üçün şirkətlərin tvitinin, şikayət edilən tvitlərin və bu şikayətlərə şirkətlərin cavabının çəkisini ölçdük, sonra isə əldə edilən rəqəmləri bazar dəyərində baş verən dəyişikliklərlə və şirkətlərin qəbul edilən keyfiyyəti (yəni alıcıların brendlərə geniş miqyaslı sorğu nəticəsində alınan məlumatlar əsasında müəyyən edilən münasibəti) ilə müqayisə etdik. Bu məlumatlar əsasında sosial şəbəkələrdə iki əsas davranış strategiyasını müəyyən etdik: açıq (şirkət şikayətlərin ən azı 75%-ni ictimai şəkildə müzakirə edir) və qapalı (şirkət ən azı 75% halda bir mesajla cavab verərək dialoqu qeyri-publik kanalda davam etməyi təklif edir).

Müəyyən etdik ki, şirkətlər şikayətlərə nə qədər aktiv reaksiya verirdilərsə, onların dəyərdə və qəbul olunan keyfiyyətdə itirmək ehtimalı bir o qədər yüksək idi. Bundan savayı gördük ki, təşkilatlar “Twitter”də şikayətlərə ictimai şəkildə cavab verirdilərsə, onların şikayətlərə aidiyyatı olmayan digər tvitləri bu fonda yoxa çıxırdılar və gözlənilən reaksiya almırdılar.

İkinci tədqiqatda məhsul satışdan çıxarıldıqdan sonra firmaların sosial şəbəkələrdəki aktivliyini analiz etdik. Bu, testlər üçün rahat, idarə olunan vəziyyətdir: məhsula olan hər bir kütləvi reaksiyadan sonra müştərilər tərəfindən gözlənilməz böyük mənfi əks cavab dalğası baş qaldırır ki, bunun da sayəsində müxtəlif strategiyaların qısamüddətli təsirini asanlıqla müqayisə etmək olur. Fərqli cavab strategiyalarının şirkətin səhmlərinin qiymətinin qısamüddətli dəyişmələri və ya digər amillərə (məsələn, məhsulun geri çəkilməsinin səbəbinin ciddiliyi, firmanın maliyyə durumu və brendin tanınması) edilən düzəlişləri nəzərə alaraq gələcəkdə şikayətlərin həcmindəki dəyişmələri ilə necə əlaqəli olduğunu araşdırdıq. Müəyyən etdik ki, qapalı strategiya zamanı şirkətin səhmlərinin qiyməti az tərəddüd edir və gələcəkdə şikayətlərin də sayı az olur. Lakin açıq strategiyalara üstünlük verən şirkətlər səhmlərinin qiymətinin düşməyi və növbəti ayda daha çox sayda şikayətlə üzləşiblər.

Görünür, narazı müştəri ilə ictimai qarşılıqlı əlaqə heç də həmişə yaxşı strategiya deyil. Lakin şikayətlərə göz yummaq da olmaz: tədqiqatımız nəticəsində müəyyən etdik ki, ən uğurlu şirkətlər, bir qayda olaraq, müştərinin şikayətinə onu qeyri-publik kanala dəvət edən bir ictimai mesajla cavab veriblər. Bir sözlə, onlar açıq və narazı müştərilərlə şirkətin səhifəsini “batıran” uzun-uzadı söhbətlər əvəzinə qapalı strategiyadan istifadə ediblər.

- Təəssüf edirəm. Siz hazırda həmin reysdəsiniz? Rene.
- Bəli, mən reysdə olmuşam. Təyyarədə olduğum üçün internetə daxil ola bilmirdim.
- DTW-dakı əməkdaşlarımız protokola riayət etmədikləri üçün təəssüf edirəm. Təhlükəsizlik bizim əsas prioritetimizdir, buna görə də bu hadisə barədə rəhbərliyə mütləq məlumat verəcəyəm ki, onlar vəziyyəti düzəldə bilsinlər. Rixter.

“Delta” açıq strategiyadan istifadə edir.

Məsələn, “Delta Airlines” “Twitter”də müştərilərin şikayətinə bir neçə ictimai mesajla cavab verməklə açıq strategiyadan istifadə edir. Şirkət müştəri ilə açıq dialoqa o dərəcədə üstünlük verir ki, hətta özünün müştərilərə kömək üçün xüsusi akkauntunu (@DeltaAssist) bağlayıb və hazırda şikayətlərə bilavasitə özünün əsas akkauntundan (@Delta) cavab yazır. Müştərilərin qeydinə bu cür qalmaq və şəffaflıq təqdirə layiqdir, lakin bizim analizimiz göstərir ki, bu strategiya müştərilərlə mənfi qarşılıqlı əlaqənin ictimaiyyətə açıqlığını kəskin artırır, bu isə səhmlərin qiymətinə və brendin imicinə güclü mənfi təsir göstərə bilər.

Bəli, bu, pisdir ***. , linkə keçid edərək ətraflı danışın:

“McDonald’s” qapalı strategiyada istifadə edir.

“McDonald’s” isə, əksinə, adətən qapalı strategiyadan istifadə edir. Onların akkauntu (@McDonalds) qeyd olunan və ya “McDonald’s” sözü yazılan mənfi tvitlərə onlar anketə keçid yollayırlar və beləliklə də “Twitter”də dialoqu bağlayırlar və qapalı kanala keçirlər. Ona görə də onların akkauntunda şikayətlərin sayı azdır.

Əlbətdə, şikayətlərə bu cür cavab strategiyası marketoloqlar üçün müştərilərin narazılığına diqqət göstərməklə şikayətlərin görünmə effekti arasında balans yaradan alətlərdən biridir. Məsələn, bir çox sosial şəbəkələrdə şikayətlərin görünməyini azaltmaq üçün alətlər var. Belə ki, “Facebook” və “Twitter”də istifadəçilərin mənfi rəyləri deyil, ilk növbədə sizin kontentinizi görmələri üçün öz paylaşımınızı səhifənin yuxarı hissəsində bərkitmək mümkündür.

Bundan savayı, hər bir sosial şəbəkənin unikal şərtlərini , eləcə də müştərilərin cəlb edilməsinin sizin işinizin şərtlərinə optimal müvafiq olan dəqiq strategiyasını başa düşmək lazımdır. Ümumilikdə isə bizim nəticələrimiz göstərir ki, ümumqəbul edilən praktika - sürətli, ətraflı və ictimai cavab - ciddi neqativ nəticələrə gətirib çıxara bilər, əsasən də alqoritmlərin brendlər cavab verdiyi təqdirdə şikayət postlarını yuxarı qaldıra bildiyi sosial şəbəkələrdə. Müştərilər sosial şəbəkələrdə şikayət etməyi sevirlər, lakin siz onlara ictimai şəkildə cavab versəniz, bu şikayətlər çox səs-küy yarada bilər, digər narazı müştərilər də qoşula bilər və nəticədə bu, həm auditoriyanın, həm də investorların gözündə brendin dəyərini sala bilər.

***Nigar Orucova***



## Dünya iqtisadiyyatı üçün “partlamaqda olan bomba” HƏYƏCANI

***“Deutsche Bank” inflyasiyaya məhəl qoymamağın təhlükələri barədə xəbərdarlıq edib.***

BiznesMedia xəbər verir ki, bu barədə CNBC yazır. “Məhz bu, önümüzdəki illərdə nəticələri olduqca dağıdıcı olan yeni böhrana gətirib çıxara bilər”, - deyə bankın baş iqtisadçısı Devid Folkerts-Landau bildirib.

Analitiklər hesab edirlər ki, hazırda iqtisadiyyat inflyasiya təhlükələrinə məhəl qoyulmadan stimullaşdırılır və bu da yanlış yanaşmadır. Onlar əmindirlər ki, inflyasiya sabit artım göstərməyənə qədər ABŞ Federal Ehtiyat Sisteminin (FRS) pul siyasətini sərtləşdirməkdən imtina etməsi ağır iqtisadi nəticələrə səbəb olacaq.

“Deutsche Bank”ın baş iqtisadçısı Devid Folkerts-Landaunun fikrincə, inflyasiya proseslərinə reaksiyanın gecikməsi böyük tənəzzülə gətirib bilər və bütün dünyada, xüsusilə də inkişaf etməkdə olan bazarlarda maliyyə problemi zəncirinə səbəb ola bilər.

ABŞ siyasətçiləri hesab edirlər ki, inflyasiyanın hazırkı artımı yalnız müvəqqəti xarakter daşıyır və o, tədarükdəki arakəsmələr və koronavirus pandemiyası səbəbindən yaranın böhranın nəticələrini aradan qaldırılan kimi azalacaq. “Deutsche Bank”ın analitikləri bu nöqteyi-nəzərlə razı deyillər və bildirirlər ki, iqtisadiyyatın aqressiv stimullaşdırılması inflyasiyaya səbəb olacaq və FED ona hazır olmayacaq.

Folkerts-Landaunun sözlərinə əsasən, inflyasiya bərpa olunacaq.

“Buna laqeyd yanaşmaq dünya iqtisadiyyatını “partlamaqda olan bomba” üzərində oturtmaq deməkdir. Nəticələr dağıdıcı ola bilər, əsasən də cəmiyyətin daha həssas təbəqəsi üçün”, - deyə iqtisadçı xəbərdarlıq edib.

## Fond bazarlarında son vəziyyət

***Amerika fond bazarında ”Dow Jones” indeksi 0,44 % - 34 447,14 bəndədək, ”S&P 500” indeksi 0,18 % - 4 219,55 bəndədək, NASDAQ isə - 0,09 % - 13 911,75 bəndədək azalıb.***

Avropa fond bazarlarında ”FTSE 100” indeksi 0,20 % - 7 081,01 bəndədək, Almaniya DAX-ı 0,38 % - 15 581,14 bəndədək azalıb, Fransa CAC-40-ı isə 0,19 % - 6 563,45 bəndədək artıb.

COMEX-də sonuncu hərraclarda qızılın unsiyasının qiyməti 6,20 ABŞ dolları ucuzlaşaraq 1889,30 dollara, gümüşün unsiyasının qiyməti isə 0,17 dollar azalaraq 27,83 dollara satılıb.

# HOVUZ

**Dözümün cücərtiləri aci, bəhrəsi şirindir**

*Alman atalar sözü*

***Bəzən evdəki ziddiyyətlərdən və arvadın sonu görünməyən iradlarından başını götürüb çayxanaya üz tutursan ki, orada bir çaynik çay qoyub qabağına bir qədər azad nəfəs alasan. Orada da müasir gənclər böyük demir, kiçik demir özlərini o qədər anormal aparırlar ki, ora getməyə də peşman olursan.***

Yeri gəlmişkən Saatlı rayonunda məcburi köçkün kimi yaşayarkən Tayvandan bizə yardım gətirmiş Tsu- çu cəmiyyətinin üzvləri ilə çayxanada olarkən onlar mənə müraciətlə belə dedilər-Sizin bu gənclərə məəttəl qalmışıq.Bütün günü çayxanadamı oturmaq olar?Ana bacılarınız sahədə işləyir,gənclər isə günlərini avara-avara cayxanada keçirir.Biz dünyanı gəzirik,belə bir şeyə rast gəlməmişik.Cavab verməyə söz tapmadım.

-Sizin yanınızda oturmaq olarmı,deyə üç nəfər mənə müraciət etdi

- Niyə də yox-deyə mən fikirdən ayrılıb onlara cavab verdim.

Onlar çay içə-içə vaxtı ilə tələbəlik illərində olan bir hekayəni nəql etdilər.

Belə ki,onlar tələbə ikən kirayədə qalmaq ücün bir üç çarpayı və bir stol yerləşən mənzil tapıblar.Ev sahibi digər yerdə yaşadığından ora ancaq kirayə haqqı alanda gəlirmiş.Hər şeydən görünümüş ki,ev sahibi gələcəkdə burada villa inşa edəcəkmiş.Həyətdə geniş bir hovuz da tikdirmişdi.Hekayəni lopa bığlı,pəhləvan cüssəli birisi söhbət etdiyindən o biriləri hərdən unudulan yerləri çatdırırdılar.

Həmin yay havalar o qədər isti imiş ki,onlar sahibin hovusunda çimmək qərarı verirlər.

Bir az qorxaq olan Zamil:-Sahib bilsə biz nə edəcəyik?Mənzili necə çətinliklə tapmağımız yadınızdan çıxıbmı?- deyə dostlarını bu işdən vaz keçməyə səslədi.

Qulam Zamilin sözünə dayaq verərək pələng cüssəli Fuada üz tutaraq:-Ə sənin bədənin tüklüdür,hovuz da tüklə dolu olsa vay halımıza.

Qulam onlardan yaşca böyük və zəhimli olduğundan bir azdan onların hovuzda şappıltısı gəldi.

Səhərisi gün bazar günü olduğundan çox yatmaq istəmişlər.Lakin həyəti başına götürmüş sahibin cır səsi onlaı dərhal yataqdan qalxmağa məcbur etdi.

Hovuzda çimmisiniz,eləmi?

Yox- deyə üçü də birdən cavab verdi

- Bəs onda bu hovuzdakı adam tükləri hardandı?

Bilmirik,-_deyə biz xorla cavab verdik.

Sahib qeyzlə:- Hovuzu vedrə ilə axşama qədər boşaldın və sonra səpşüpünüzü yığışdırın və mənzili azad edin.Axşama yaxın sahib qayıdanda tərin suyun içində hovuzu yuyub boşaltmışdıq

Xəcalətimizdən başımızı aşağı dikib sahibin yumşalacağına ümid bəslədik.

Az keçmədi sahibin həyat yoldaşı da gəlib çıxdı.Vəziyyəti öyrənəndən sonra bizim yazıq baxışlarımızı sezib yoldaşına:

- Zahid,uşaqlıq ediblər,.Birinci dəfədir, keç günahlarından.Arvadı bu sözləri elə mülayimliklə dedi ki,kişinin bizi bağışlamaqdan başqa yolu qalmadı.

Danışa-danışa o qədər güldülər ki,soyumuş çayniki çayçı üç dəfə təzələməli oldu

**ƏBÜLFƏT ALIŞOV**

# "Siracla Məhərrəmin mənə tanış hissləri..." - Mirmehdi Ağaoğlu yazır

***Dünəndən Siracla Məhərrəm ağlımdan çıxmır. Ruhlarına hörmətsizlik kimi düşünülməsin, elə bilirəm onlarla bərabər mən də ölmüşəm (ya da ölə bilərdim hissi məni tərk etmir). Çünki onların ölüm anına qədər dəfələrlə yaşadıqları mina təhlükələrini Qarabağ səfərləri zamanı mən də yaşamışdım. Onların da bütün günü eyni hisslərlə o torpaqlarda dolaşdıqlarından əminəm. Yəni Siracla Məhərrəm belə bir ehtimalın ola biləcəyini ağıllarının bir tərəfi ilə hər an düşünürdülər.***

Bu hiss o qədər dərin olur ki, işğaldan azad olunmuş torpaqlardan çıxandan sonra da səni bir müddət tərk etmir. Yadımdadı. Birinci dəfə Qarabağda çəkiliş edib qayıdanda Beyləqanda meyvə piştaxtalarının qabağında saxladıq ki, nəsə alaq. Qapını açıb maşından düşəndə ayağımı elə ehtiyatla yerə basdım ki, elə bil döyüş zonasında idim. Birdən beynimə dank elədi ki, neynirsən? Beyləqandasan. Qorxaqlığıma görə özüm-özümdən utandım. Amma bunun adı qorxaqlıq deyildi. Bütün insanlarda olan özünü müdafiə instinkti idi. Birinci dəfəki səfər zamanı işğaldan azad olunmuş əraziləri gəzdiyimiz üç gün boyunca bütün çəkiliş heyəti ilə birlikdə hər dəfə maşından düşəndə ayağımızı eyni ehtiyatla atır, ayaqyalın şüşə qırıntıları üstündə gəzirmiş kimi, asta-asta, ehmalla yeriyirdik. Maşınımız asfalt yoldan çıxıb hansısa kəndə burulanda səsli də olmasa ürəyimizdə dualar oxuyurduq. Bəzən qorxumuzu gizləmək üçün zarafatlaşırdıq, amma bir gözümüz həmişə sinsicə yolda, o biri də şoferin sükandan tutan əlində olardı. Birdən bizdən əvvəl o yolla getmiş maşının palçıqda saldığı təkər izlərindən çıxarıq deyə.

Siracla Məhərrəm də bu hissləri dəfələrlə yaşamışdılar. Sağ olub bu cümlələri oxusaydılar mənə haqq verərdilər.

Təzə-təz işğaldan azad olunmuş torpaqlara gedəndə bir çox dostum yüngül desəm qibtə ilə yanaşırdı, elə bilirdilər ki, biz işğaldan azad olunmuş torpaqlarda yalnız şəkil çəkdirməklə məşğuluq. Dağılmış ocaqlara, yurd yerlərinə, kol-kos, ağac basmış ev yerlərinə, həyət bacalara baxdıqca ürəyimiz ağrımır. Məhv olmuş tarixi abidələri, içində heyvan saxlanılan ibadət yerlərini gördükcə üzülmürük. Halbuki elə deyildi. Üstəlik bununla yanaşı bir də mina qorxusu var idi. Gedib gördüyümüz o yerlərdəki çəkilişləri biz mina qorxusu ilə ərsəyə gətirmişdik. Elə bilirdik ayağımızı atacağımız növbəti addım sonuncu olacaq. Amma bununla belə nəsə daxili bir hiss bizi irəli itələyirdi.

Füzulinin Qarğabazar kəndinə gədər gəlib XVI əsrə aid Şah Abbas karvansarasını çəkmişkən yuxarısındakı təpəyə qalxıb oradakı tarixi abidəni görmədən geri qayıtmaq olardımı? Əlbəttə yox! Bizə işdən ehtiyatlı olun! desələr də, arxada ailəmizi qoyub gəlsək də nəsə içimizdəki bir hiss deyirdi ki, gedin, yuxarı qalxın, o tikilini çəkin, görün nədir. Ona görə də bizi müşayət edən polisdən xahiş edirdik ki, sən qabağımızca qalx, biz də arxanca gələk. Guya yüksək ehtiyat nümayiş etdirirdik, yalnız polisin yumşaq torpaqda saldığı ləpirinin üzərinə ayağımızı qoyurduq, guya bizdən yarımca metr irəlidə olan polis Allah eləməmiş partlasaydı, bizə heç nə olmayacaqdı.

Eyni maraq və qorxu hissləri ilə, sanki rus ruleti oynaya - oynaya Füzulinin Qarğabazar kəndində Sərdar Bünyadovun ağacların arasında gizlənmiş abidəsini tapmışdıq, şəhərin özündə Füzulinin dağılmış heykəlini ilk dəfə görüntüləmişdik.

Tuğun yuxarısında, dağın döşündə saxlanmış qədim alban kilsəsini uzaqdan görüb, nə tikilidir deyə heç kəs yox, fotoqrafımız İlkinlə ikimiz canhövüllü qalxıb taxta qapısını açarkən də eyni narahatlığı yaşamışdım. Qorxmuşdum ki, birdən ermənilər qapıya "tələ" bombası qoyarlar. Başı çıxan adamlar kimi əvvəl qapının aralığından baxmışdım ki, ip-zad keçirmi-keçmirmi, guya "tələ" bomba qoymağın tək yolu budur. Sonra da kilsənin lap içinə keçməyə ürək etməmişdim, kandardanca boylanıb qayıtmışdım. Amma sonra çəkiliş edib sağ-salamat dağdan enəndə də içimi böyük bir fərəh hissi bürümüşdü ki, nə yaxşı o kilsəni heç kəs görüb, gedib çəkmədi, yalnız mən getdim və çəkdim.

O zaman adam yəqin ki, rus ruletindən sağ çıxan oyunçunun yaşantılarının eynisini yaşayır. Nə bilim, rus




ruleti oynamamışam, amma mina təhlükəsi olan yerlərdən az da olsa keçmişəm.

Bəlkə də böyük şey deyil, amma o an mənim üçün bu çox əhəmiyyətli idi, çəkmək və hamıya göstərmək. İçimdə, canımda və ən əsası da ayaqlarımda mina qorxusu olsa da. Ayaqların mina qorxusu bilirsinizmi nədir? Key kimi olub kilidlənirlər, irəli getmək istəmirlər. İşdir minaya düşərsə, adam birinci ayağının yox olacağından qorxur, başqa bədən üzvlərini fikirləşmir.

Nə isə. Əminəm ki, Sirac da, Məhərrəm də bu hisslərlə yaşadılar, bu hisslərlə də şəhid oldular: həm içlərində mina qorxusu, həm də o gözəlim yerləri çəkib göstərmək şövqü ilə.

Ruhları şad olsun. Allah ailələrinə səbr versin, övladlarına uzun və fıravan ömür bəxş etsin.

***P.S. Bayaq yuxarıda bəhs etdiyim kilsənin videosunu da paylaşıram. Marağınızı çəksə baxarsız.***

# Dünyanı təhdid edən terror təşkilatları: Türkə düşmən kəsilən ermənilər daha qəddardılar

***Terrorizm müasir dövrün ən təhlükəli təzahürlərdən biridir. Əslində, terror haqqında birmənalı tərif mövcud olmasa da, mütəxəssislərin əksəriyyətinin qənaətinə görə siyasi, dini, ideoloji və iqtisadi məqsədlərə çatmaq üçün qeyri-qanuni əməllərin, zorakılığın, gücün, hədənin tətbiq olunması kimi dəyərləndirməlidir. Yeri gəlmişkən, "Terrorizmə qarşı mübarizə" haqqında Azərbaycan Respublikasının Qanununun 1-ci maddəsinə əsasən terrorizm dedikdə, ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq və ya dövlət hakimiyyəti orqanları tərəfindən terrorçuların maraqlarına cavab verən qərarların qəbul edilməsinə nail olmaq məqsədilə insanların kütləvi şəkildə qırılmasına, onlara bədən xəsarəti yetirməsinə, yaxud səhhətinə başqa cür zərər vurulmasına, habelə başqa ağır nəticələrə səbəb olan əməllərin törədilməsi və ya bu cür əməllərin törədilməsinə yönələn hədə başa düşülür.***

Dünyada bu və ya digər ölkədə fəaliyyət göstərən və bu və ya digər ideoloji prinsiplərə söykənən terrorçu təşkilatlar fəaliyyət göstərir. Bu sırada PKK , Əl-Qaidə, Hizbullah, Kolumbiyanın İnqilabçı Silahlı Qüvvələri, Əbu Səyyaf, Taliban, Tamil İlamin Azadlıq Pələngləri, İnqilabçı Xalq Azadlıq Partiyası Cəbhəsi, Sendero Luminoso, Tupak Amaru İnqilab Hərəkatı kimi təşkilatları göstərmək olar.

Ən qəddar terror təşkilatlarına isə məhz çoxsaylı erməni terrorçularının birləşdiyi qurumlar dayanır. Əslində, erməni terrorun tarixi hələ 19-cu əsrə gedib çıxır. Onlardan ən qədimi "Armenakan" partiyasıdı. Bu qurum 1885-ci ildə yaradılıb. Türkiyənin Van, Muş, Bitlis,Trabzon bölgələrində və İstanbulda silahlı toqquşmalar və terror aktları




törədən bu partiya İran və Rusiyada yaşayan ermənilərlə əməkdaşlıqda olub.

"Hnçak"ın da yaranma tarixi də 19-cu əsrə gedib çıxır, Bu qurum 1887-ci ildə Cenevrədə yaradılıb. Qurumun əsas məqsədi Türkiyənin Anadolu bölgəsini "Böyük Ermənistan" dövlətinə birləşdirməkdi.

Partiyanın proqramının 4-cü bəndində göstərilir: "Qarşıya qoyulmuş məqsədə çatmaq üçün təbliğat, təşviqat, terrorizm və dağıdıcı təşkilat yaradılması metodu seçilməlidir".

Daşnaksütyun inqilab partiyası 1890-cı ildə Tiflisdə yaradılıb. Əsas qayəsi Azərbaycanın Dağlıq Qarabağ, Naxçıvan və Türkiyənin Anadolu torpaqlarında "Böyük Ermənistan" dövləti qurmaqdır. 1892-ci ildə Tiflisdə ilk qurultayını keçirən partiya türklərə qarşı sui-qəsdlərin təşkil olunması barədə qərar çıxarmışdı.

"Erməni soyqırımının intiqamçıları" qrupu 1980-82-ci illər ərzində Avstriya, Danimarka və Portuqaliyada türk diplomatlarını qətlə yetirib. Daşnakların bu istiqamətdə fəaliyyəti davam edir.

"Erməni gizli azadlıq ordusu" artıq 46 ildi fəaliyyət göstərir. Onun mənzil-qərargahı Dəməşqdə yerləşir. Fələstin bazalarında hazırlıq keçən mindən artıq döyüşçüsü var. Təşkilat fəaliyyətinin ilk 6 ilində dünyanın müxtəlif ölkəsində 19 türk diplomatının ölümünə səbəb olan terror aktları keçirib.

"Ermənistanın azadlığı uğrunda erməni gizli ordusu" (ASALA) da ötən əsrin 70-ci illərində yaradılıb. Təşkilatın məqsədi Şərqi Türkiyə, Şimali İran və Azərbaycanın Naxçıvan və Dağlıq Qarabağ əraziləri üzərində "Böyük Ermənistan" qurmaqdır.

"Geqaron" 2001-ci ilin fevralında elə ASALA tərəfindən yaradılıb. Məqsəd Cənubi Qafqaz və Orta Asiya ərazilərində türk mənşəli siyasi lider, diplomat və biznesmenlərə qarşı terror aktlarının keçirilməsidir. Erməni azadlıq hərəkatı və Erməni azadlıq cəbhəsi ASALA-nın tərkib hissəsi sayılır. Türkiyə və Azərbaycan əleyhinə terrorçular hazırlayır.

"Orli qrupu" 1981-ci ildə Fransada yaşayan erməni gəncləri tərəfindən yaradılıb. Təşkilat 1987-ci ilədək dünyanın müxtəlif hava limanlarında 10-dan artıq terror aktı həyata keçirib.

"Erməni soyqırım ədalət komandosları" 1972-ci ildə Vyanada yaradılıb. Məqsədi erməni əsilli gənc Livan vətəndaşlarını hərbi birləşmələrdə cəmləşdirmək, türklər və azərbaycanlılara qarşı qanlı terror aksiyaları təşkil etməkdir.

"Demokratik cəbhə" ABŞ, Kanada və Qərbi Avropada fəaliyyət göstərir. Başlıca məqsədi türk dövlətinin parçalanmasıdır.

"Apostol" 2001-ci il aprel ayının 29-da əsasən Ermənistan, Suriya və Livan vətəndaşlarından ibarət olan Ermənistan Müdafiə Birliyi tərəfindən yaradılmışdır. Təşkilatın məqsədi Türkiyə və Azərbaycan ərazilərində terror aktları həyata keçirməkdir.

# Bakının məşhur restoranlarındakı saysız-hesabsız nöqsanlar - Müştərilərin DİQQƏTİNƏ!

***Kafe və restoranlardakı yoxlamalar, orada qeydə alınan nöqsanlar daim medianın və istehlakçıların diqqətində olub. Həmin obyektlərin mətbəxlərindəki natəmizlik isə müştəriləri daha çox narahat edir.***

Karantin rejimi tətbiq olunandan bəri Azərbaycanın Qida Təhlükəsizlik Agentliyi demək olar hər gün müxtəlif ictimai-iaşə obyektlərində qeydə alınan nöqsanlar barədə məlumat yayır. Görəsən, həmin nöqsanlar nədən ibarətdir? Daha çox hansı pozuntulara rast gəlinir?

AQTA-nın şöbə müdiri Əkbər Əliyev Lent.az-a bildirib ki, indiki dövrdə daha çox koronavirusla mübarizə tədbirləri çərçivəsində ictimai-iaşə obyektlərinə qoyulan tələblərə hansı səviyyədə riayət edilməsi yoxlanılır:

"Fevralın 1-dən bu günədək AQTA əməkdaşları ictimai-iaşə obyektlərində mütəmadi monitorinqlər aparır. Məqsəd karantin qaydalarına nəzarət və pandemiyanın yayılmasına qarşı tədbirlər görməkdir. Bu monitorinqlər isə Nazirlər Kabinetinin 237 saylı qərarı ilə tənzimlənir. Həmin qərar əsasında restoranlardakı sıxlıq dərəcəsi müəyyənləşdirilib. Bu qayda üçün kafe və restoranların girişində məlumat lövhəsi yapışdırılmalıdır. Obyektdə karantin qaydalarına nəzarət etmək üçün məsul şəxs fəaliyyət göstərməlidir.

Aşkarlanan nöqsanların 90 faizi qoruyucu vasitələrdən düzgün istifadə edilməməsi ilə bağlıdır. 6 faiz isə zalda müştərilər üçün təyin olunan sıxlıq qaydalarının pozulmasıdır. Sadalanan xətalarla bağlı İnzibati Xətalar Məcəlləsinin 211-ci (Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması) maddəsi ilə cərimə tətbiq olunur".

Azad İstehlakçılar Birliyinin sədri, AQTA yanında İctimai Şuranın üzvü Eyyub Hüseynov isə deyib ki, bəzi bəzəkli zalları olan restoranların mətbəxində monitorinq zamanı həddən artıq natəmizlik olduğu üzə çıxır:

"Kafe və restoranlarda Qida Təhlükəsizlik Agentliyi monitorinqlər aparır. Əvvəlcə birinci yerdə maarifləndirmə işləri aparılır. Karantin qaydalarının pozulması faktları daha çox müşahidə olunur. Masaların bir-birindən hansı məsafədə qoyulması, masa arxasında oturanların sayı, stollarda dezinfeksiyaedici məhlulun olub-olmaması kimi məsələlər önə çəkilir. Onu da qeyd edim ki, ciddi məsələlərdən biri kafe və restoranların mətbəxləridir. Hətta bəzən ən bəzəkli restoranların da mətbəxinə baxış keçirəndə ifrat dərəcədə natəmiz olduğu üzə çıxır. Onu da deyim ki, xüsusən rayonlara gedən yolların kənarındakı restoranların sanitar qovşağı həddən artıq natəmizdir. Düşünürük ki, bu cür nüanslara insanlar fikir verməli, əslində o yerlərə, ümumiyyətlə, getməməlidir".

Təşkilat sədri Bakının mərkəzində fəaliyyət göstərən məşhur kafenin mətbəxindən də danışıb:



"Biz 4 il əvvəl təşkilat olaraq Bakının mərkəzindəki bir kafenin zalına monitor qoymuşduq. Orada müştərilər mətbəxi izləyə bilirdilər. Ancaq təəssüflər olsun ki, bu yaxınlarda həmin "Kolorit" kafedə olanda monitorda görüntülər olmadığını gördüm. Belə çıxır ki, yenə orada antisanitar vəziyyət davam edir. Bəzəkli zallarda oturan müştərilərin mətbəxdə baş verənləri görməsinə nail olmalıyıq. Ümumiyyətlə, tövsiyə edirik ki, mətbəxi açıq olan restoranlara üstünlük verilsin. Gizli mətbəxlərdə gizli işlər olur. AQTA istəmir ki, ictimai iaşə obyektləri cərimə olunsun, bağlansın və s. İstənilən odur ki, istehlakçılara düzgün xidmət göstərilsin".




# Saxta koronavirus testləri necə aşkarlanır? - RƏSMİ CAVAB

***Bir müddət əvvəl Gəncə Hava Limanında Gəncə-Sankt-Peterburq aviareysi ilə səyahət etmək istəyən 96 sərnişinin koronavirus infeksiyasının müayinəsinə dair verilən tibbi arayışların saxta olması barədə məlumatlar yayıldı və geniş müzakirələrə səbəb oldu.***

Baş Prokurorluğun mətbuat xidmətindən bununla bağlı açıqlamada bildirilirdi ki, sərnişinlərin təqdim etdiyi tibbi arayışların üzərində sənədlərin "Leyla Medical Center" (keçmiş "Leyla Şıxlinskaya" klinikası) və "Oksigen" klinikasından verildiyi qeyd edilib və faktla bağlı hazırda Gəncə şəhər prokurorluğunda araşdırma aparılır.

Lent.az-ın əldə etdiyi məlumata görə, hazırda bəzi şəxslərin səyahət etmək istəyənlərə saxta arayışlar verməsi davam edir. Hətta onların uçuşlarına da bir problem yaranmır.

Mövzu ilə bağlı Lent.az-ın sorğusuna cavab olaraq Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyindən (TƏBİB) bildirilib ki, Azərbaycandan yola düşən sərnişinlərin arayışlarının yoxlanılmasını terminalların girişində fəaliyyət göstərən tibb personalı həyata keçirir:

"Sərnişinlərin uçuşa qeydiyyatı və hava gəmisinə daxil olması bu arayışlar əsasında həyata keçirilir.

Azərbaycana uçuşlar icra edən bütün aviadaşıyıcılar uçuşdan əvvəl 48 saat ərzində COVID-19-a dair PCR testindən keçən, nəticələri neqativ olan sərnişinləri reysə qəbul edirlər.

Reysə qeydiyyat zamanı sərnişinlərin (tranzit və transfer sərnişinlər daxil olmaqla) arayışlarının yoxlanılmasını təmin edirlər.

Arayışın elektron qaydada yoxlanılması məqsədilə arayışda elektron təsdiq atributları (QR-kod, eyniləşdirmə nömrəsi və s.) olan şəxslərin müvafiq yoxlanış yerlərindən sürətli keçidi təmin edilir".

Xatırladaq ki, "Referans Medical Group"dan saytımıza bildirilmişdi ki, mərkəzin rəsmi nəticə blankında təqdim olunmasına baxmayaraq, 96 sərnişinin heç birinin klinikaya müraciət etməməsi və nəticələrin klinikadan verilməməsi sübut olunub.

Eyni zamanda "Oksigen Klinik Xəstəxanası" da bu cür saxta tibbi arayışların klinika adına səsləndirilməsini rədd edərək, obyektiv araşdırılmanı təmin etmişdi.



# "Mən heç vaxt partiyaçı olmamışam" - Fərhad Xəlilov



***Azərbaycan Rəssamlar İttifaqında ittifaqın sədri Fərhad Xəlilovla görüşməliyik. Binanın küçəyə açılan pəncərəsinə gözümü zilləyib, Fərhad müəllimin haçan ordan keçəcəyini gözləyirəm. Baxmayaraq ki, bu günə qədər onu ancaq şəkillərdə görmüşəm, amma içimdə bir hiss var ki, yalnız şəkillərdə gördüyüm bir adamı uzaq məsafədən belə tanıyacam. Hisslərim məni aldatmır. Pəncərədən gördüyüm onlarla insanın içərisində saç düzümünə və fərqli geyim tərzinə malik bir adam görürəm və görən kimi tanıyıram: Fərhad Xəlilovdur. Salamlaşıb otağına keçir, bir neçə dəqiqədən sonra bizi dəvət edir, müsahibə başlayır...***

Bütün görüşlərin ənənəsi kimi, öncə əhvalını soruşuram. "Sizcə, Şuşanı görüb gələn adam necə olar? Çox yaxşıyam" cavabını verir.

***- O zaman söhbətimizə elə Şuşa səfərinizdən, səfər təəssüratlarınızdan başlayaq.***

- Şuşa ecazkar bir yerdir. Mən deyərdim ki, neçə il keçirsə keçsin, bu şəhərin ruhu dəyişmir. O ruh da Şuşanın təbiəti, tarixi, yetişdirdiyi şəxsiyyətlərin ruhudur. Cıdır düzündə olmaq, yenidən o torpaqlara ayaq basmaq, bunları sözlə ifadə etmək mümkün deyil.

***- Bəs fırça ilə necə?***

- (gülür) Hazırda Qarabağla bağlı əsər işləyirəm.

***- Pandemiya Rəssamlar İttifaqının fəaliyyətinə necə təsir göstərdi?***

- Əlbəttə, mənfi təsir göstərdi. Hazırda görüşlər keçirə, sərgi təşkil edə bilmirik. Bunlar yalnız online mümkündür ki, onunla da istədiyimiz effekti hələ ki, ala bilmirik. Ümumiyyətlə, online həyat yeni bir mədəniyyətdir. Buna öyrəşmək vaxt tələb edir. Bizim nəsil üçün bu, daha çətindir. Şəxsən mən online adamı deyiləm.

***- Rəssamlar İttifaqı Sovet dövründə rəssamları evlə, emalatxana ilə təmin edə bilirdi, indi də edə bilirmi?***

- Sovet dövründə çox şey var idi, həm də çox şey yox idi. Mən heç vaxt partiyaçı olmamışam, çünki sənət adamı üçün azadlıq çox önəmlidir. Ancaq o dövrün də müsbət tərəfləri var idi. Məsələn, Sovet dövründə mən yaradılan imkanlardan istifadə edib emalatxana tikdim, evlər payladım. Lakin indi dövr başqadır. Biz dünya ilə ayaqlaşmaq istəyiriksə, kommunizmin qanunları ilə yox, bugünkü dünyanın qanunlarına əsasən davranmalıyıq. Götürək elə Fransanı. Fransada rəssamlara dövlət tərəfindən nə qayğı var? Uzağı, dövlət müsabiqə yolu ilə seçilən rəssamlara təqaüd verir. Cəmi bir il müddətində təqaüd və emalatxana, vəssalam. Ancaq bizdə rəssamlar üçün ilbəil 70 təqaüd yeri ayrılır. Üstəlik ayrı-ayrı rəssamlara evlər də verilir. Bir sözlə, bu gün bizdə rəssamlara olan dəstək orda yoxdur. Orda rəssam ilk növbədə özünü təsdiq etməlidir. Ancaq özünü təsdiq edənə qədər oturub dövlətdən kömək gözləmir, özü öz güzəranını təmir edir. Kimi fəhlə işləyir, kimi müəllim. Mən həmin adamları şəxsən tanıyıram. Nyu-Yorkda Corc Siql adlı bir heykəltəraş vardı, onun emalatxanası hində idi. Çünki o heykəltəraşlıqdan pul qazanana qədər toyuq saxlayaraq dolanırdı. Ta dünya onu heykəltəraş kimi qəbul edənə qədər. Bu gün dünya şöhrətli heykəltəraşdır və həmin hini muzeyə çevirib. Tarixdə də belə nümunələr çoxdur. Dövlət Van Qoqa emalatxana verməmişdi. Ancaq Van Qoq elə Van Qoq idi. İşini sevən rəssam nə olursa olsun, yenə çəkəcək.

***- Deyirsiniz ki, indi dolana bilməyən hər rəssam toyuq saxlasın?***

- Mən demirəm ki, heç kimə kömək edilməsin, imkan varsa, edilsin, lap gözəl. Ancaq oturub hər şeyi dövlətdən gözləmək düzgün deyil. Bu gün Rəssamlar İttifaqının 2000 üzvü var. Mən 2000 emalatxananı hardan verə bilərəm? Yaxşı haldır ki, bu gün bunu başa düşən gənc rəssamlar var. Mən bu yaxınlarda iki gənc rəssamın emalatxanasında oldum, çox təəccübləndim. Gənclər öz emalatxanalarında çox gözəl şərait qurublar. Deməli, onlar rəsmlərindən qazanır ki, bu emalatxananı saxlaya bilirlər. Dünya bu cür yaşayır. Artıq Stalinin qanunları ilə yox, yeni dünyanın qanunları ilə yaşamağı öyrənmək lazımdır. Niyə Stalin deyirəm? Deməli, 1944-cü ildə Stalin bütün yaradıcı ittifaqları vergilərdən azad eləmişdi. O dəstək yaradıcı adamlara ona görə verilirdi ki, sistemin ideologiyasının yaşadılmasına xidmət etsinlər. Verilən imtiyazların əvəzində də yaradıcı adam azadlığını verməli olurdu. Bu günün rəssamı isə belə yaşaya bilməz.

***- Yeni nəsil rəssamlardan söz düşmüşkən, gənc rəssamlarla aranız necədir? Bu gün rəssamlıqda yeni tendensiyalar yaranır və həmin yeniliklərdən bəhrələnən gənc rəssamlar bəzən konservativliyi qəbul etmir. Bu Sizi qıcıqlandırmır ki?***

- Xeyr, qıcıqlandırmır. Əgər istedad varsa və bu fərqlilik istedada dayanırsa, bundan qıcıqlanmaq yox, əksinə, dəstək olmaq lazımdır. Elə gənc rəssam var ki, bir ovuc rəngi divara vurub deyir ki, bu əsərdir və o, həqiqətən də düz deyir, onun çəkdiyi əsər olur. Eləsi də var ki, bunu kimdəsə görür, edir və ortalıqda heç bir istedaddan söhbət belə getmir. Bax, bunu düzgün hesab etmirəm. Mən belə adamlara hoqqabaz deyirəm. Hoqqabaz adam da rəssam ola bilməz.

***- Sizcə, bu gün Azərbaycan rəssamları niyə dünyaya çıxa bilmir?***

- Elə bilirsiniz, Azərbaycan rəssamı bir dəfə özünü göstərməklə onu dünya tanıyacaq? Bu, çox çətin və uzun müddət tələb edən bir işdir. Baxın, Avropanın öz sənət mafiyası var, o mafiyanı yarıb keçmək sizə asan gəlməsin. Bunun üçün düzgün siyasət lazımdır. Sizə bir nümunə deyim. Mən dünyaca məşhur rəssam İlya Kobokovla dostam. Həmin İlya Kobokov ötən əsrin altmışıncı illərindən tanınır. Təxminən altı il öncə onun bir sərgisində iştirak edirdim. Kobokov yanımdakıları mənə göstərib dedi ki, yorulmuşam bütün günü bu kuratorlarla oturub durmaqdan. Ancaq onlardan uzaqlaşa da bilmirəm. Çünki uzaqlaşsam, bilirəm ki, məni məhv edərlər. Bəli, gördüyünüz kimi Kobokov kimi istedadlı bir rəssam da o siyasətlə hərəkət etməyə məcburdur. Müstəqil Azərbaycanın cəmi 30 yaşı var. Bu işlər üçün zaman lazımdır.

***- Səhər sizə müsahibənin vaxtını dəqiqləşdirmək üçün zəng vurmaq istəyəndə birinci düşündüm ki, mən rəssam Fərhad Xəlilova zəng edirəm, bəlkə hələ oyanmayıb, çünki biz bilirik ki, rəssamların gecəsi, gündüzü olmur. Bir tərəfdən də düşündüm ki, Rəssamlar İttifaqının sədri Fərhad Xəlilov yəqin bu vaxt işdə olar. Azad ruha malik yaradıcı bir adamın qalstuk taxması çətin deyil?***

- Sizin verdiyiniz bu sualı mən 30 il qabaq sədr seçiləndə özümə vermişəm. Mən hər ikisini bacara biləcəyəmmi? Bəli, bu gün mən bunu bacarıram. Bəlkə rəssam kimi yanaşsam, hə, siz deyən kimi, mənə saat onda zəng vurub danışa bilməzdiniz, ancaq mən bu gün gördüyüm işin məsuliyyətini bilirəm və ona görə davranıram. Ümumiyyətlə isə hər ikisi ilə də məşğul olmaq mənə çətin deyil. Əgər mən bu gün səlahiyyətlərim daxilində bir adama kömək edə bilirəmsə, bunun özü də mənim üçün xoşbəxtlikdir. Yaxşılıq özü də bir əsərdir.

***- 1987-ci ildən bəri sədrsiniz. Yorulmamısınız?***

- Yorulana oxşayıram? Xeyr, yorulmamışam.

***- Bəs, ittifaqın işləri yaradıcılığınıza mane olmur ki?***

- Bilirsiniz, mən qırx yaşına qədər bir gün əlimə fırça almasam, dözə bilməzdim. Bu gün isə elə deyil. Bir sözlə, nə vaxt ki, fırça bütün gün işləməli idi, mən həmin dövrü doya-doya yaşamışam... Bu gün bir ilə görməli olduğum işi bir günə görə bilirəm. Ona görə də işləri çatdırmaq mənim üçün çətin olmur.

***- Sizin bir çox mövzuda əsərləriniz olsa da, Fərhad Xəlilov deyəndə ilk ağıla Abşeron gəlir.***

- Abşeronda yaşamışıq da. Abşeron bizim canımızdadır. Mən hətta rəsmlərimi də həmişə kənddə çəkirəm. Demək olar ki, şəhərdə heç işləmirəm. Düzdür, bundan sonra ara-sıra şəhərdə də işləməyi düşünürəm. İndiyə qədər mənim şəhərdəki emalatxanamda məcburi köçkünlər yaşayırdı, indi onlar gediblər və indi oranı yenidən emalatxana kimi istifadə etməyi düşünürəm.

***- Deməli, emalatxananızı məcburi köçkünlərə vermişdiniz.***

- Etdiyim xüsusi bir qəhrəmanlıq deyil. Böyütməyin.

***- Çox vaxt sadəliyə qaçırsınız nədənsə. Elə yaradıcılığınızda da. Məsələn, mən Sizin yaradıcılığınızda rokoko, barokko gördüyümü xatırlamıram.***

- Zəhləm gedir rokokodan da barokkodan da. Heç vaxt sevməmişəm onları. Mən həmişə sadəlikdən yana olmuşam. Məni başa düşmək istəyən insan başa düşəcək. Ümumiyyətlə, düşünürəm ki, rəssam kiminsə xoşuna gəlmək üçün çəkirsə, o, artıq rəssam deyil.

# İfa etdiyi hər mahnı, yaratdığı hər obraz sənət hadisəsinə çevrilən sənətkar

***"Alagöz", "Gecələr", "Lalələr", "Sənə də qalmaz", "Küçələrə su səpmişəm", "Evləri var", "Tələsin, insanlar" və s. ifa etdiyi mahnılar... Bu şəffaf, bulaq suyu kimi axıcı səsi unutmaq mümkün deyil. Bu səs sehri, cazibəsi ilə təkcə sahibinə deyil, həm də onun mənsub olduğu millətə, xalqa, məmləkətə daim şöhrət gətirərək tükənməz məhəbbət qazandırıb. İyunun 9-da SSRİ Xalq artisti, Dövlət mükafatları laureatı, Sosialist Əməyi Qəhrəmanı, görkəmli müğənni Rəşid Behbudovun vəfatının 32 ili tamam olur.***

Səsi, sənəti, fitri istedadı ilə əbədiyaşarlıq qazanan Rəşid Behbudov 1915-ci ildə Tbilisidə xanəndə Məcid Behbudovun ailəsində dünyaya göz açıb. Uşaq yaşlarından məktəb xorunda oxuyan R.Behbudov 1933-cü ildə Dəmir Yolu Texnikumuna qəbul olub. Təhsili dövründə tələbə özfəaliyyət orkestrində çalışıb. Hərbi xidmət zamanı ordu ansamblının, əsgərlik illərindən sonra isə Tbilisi estrada qruplarından birinin solisti olub.

Rəşid Behbudov 1943-cü ilin sonunda Bakı kinostudiyasında Üzeyir Hacıbəylinin eyniadlı operettasının motivləri əsasında çəkilən "Arşın mal alan" filmində baş rola dəvət alıb. 1945-ci ildə efirə çıxan film tezliklə nəinki Azərbaycanda, bütün SSRİ məkanında böyük populyarlıq qazanıb. 1946-cı ildə bu filmdəki Əsgər roluna görə Rəşid Behbudov Stalin mükafatına layiq görülüb. Əsgər obrazını yaradan müğənninin şirin və könül oxşayan səsi hər bir dinləyicini valeh edib. Bundan sonra sevimli müğənninin səsini eşitmək arzusunda olanların sayı gündən-günə artıb. Azərbaycan kinosunun qızıl fonduna daxil olan həmin film bu gün də müvəffəqiyyətlə nümayiş etdirilir.



R.Behbudov uzun illər Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti olub. 1966-cı ildən musiqi və estrada sənətinin caz, balet, pantomima kimi müxtəlif janrlarını özündə birləşdirən Azərbaycan Dövlət Mahnı Teatrını təşkil edib və ömrünün sonunadək onun solisti və bədii rəhbəri olub. Hazırda bu teatr dahi sənətkarın adını daşıyır.

İfaçılıqda xalq yaradıcılığını, vokal sənətini, estrada janrını sintez edən Rəşid Behbudov bənzərsiz səsi, zahiri görkəmi və aktyorluq istedadı ilə dinləyicinin və tamaşaçının qəlbini ovsunlayan ifaçılardandır.

Milli musiqi xəzinəmizin, eləcə də Azərbaycan bəstəkarlarının əsərlərinin ölkə hüdudlarından kənarda populyarlıq qazanması məhz Rəşid Behbudovun ifası sayəsində mümkün olub. Tofiq Quliyev, Fikrət Əmirov, Səid Rüstəmov, Vasif Adıgözəlov, Qara Qarayev, Arif Məlikov və digər görkəmli bəstəkarlarımızın yaradıcılığını onsuz təsəvvür etmək mümkün deyil.

Xalqını sonsuz məhəbbətlə sevən sənətkar sovet respublikaları ilə yanaşı, Argentina, Bolqarıstan, Belçika, Çili, Çin, Efiopiya, Finlandiya, Hindistan, İran, İraq, İtaliya, Misir, Türkiyə və digər ölkələrdə geniş konsert proqramları ilə Azərbaycan xalq mahnılarının və bəstəkar əsərlərinin populyarlaşmasında çox böyük rol oynayıb. Yaradıcılığı sərhəd tanımayan Rəşid Behbudovun ifa etdiyi hər mahnı, yaratdığı hər obraz sənət hadisəsinə çevrilib, sənətkar dəfələrlə dövrünün ən yüksək mükafatlarına layiq görülüb.

Rəşid Behbudovun sənəti Azərbaycan musiqi tarixinə ən şərəfli səhifələrdən biri kimi həkk olunub. SSRİ məkanında, eləcə də dünyanın ayrı-ayrı qitələrində milyonlarla dinləyicinin qəlbini fəth edən sənətkar getdiyi hər yerdə Azərbaycan musiqisinin, onun zəngin mədəniyyətinin yorulmaz təmsilçisi və təbliğatçısı idi.

1989-cu il iyunun 9-da Moskvada vəfat etmiş dahi sənətkar Bakıda Fəxri xiyabanda dəfn edilib.

# Azərbaycan teatr və kino tarixində bənzərsiz yeri olan sənətkar

***Azərbaycanın Xalq artisti Məlik Dadaşov həm komediyalarda, həm dramatik və faciə xarakterli obrazlarda, həm də lirik-psixoloji rollarda böyük uğur qazanıb. Məlik Dadaşov Azərbaycan teatr və kino məktəbinin ən görkəmli nümayəndələrindəndir.***

Bu gün Xalq artisti Məlik Dadaşovun anadan olmasının 97-ci ildönümü tamam olur.

Azərbaycan aktyor məktəbinin orta nəslinə mənsub olan Məlik Dadaşov teatrda onlarla obraza səhnə həyatı verib, elə kinoda da yaddaqalan, maraqlı rollar yaradıb. O, təkcə Azərbaycanda deyil, bütün dünyada xalqımızı təmsil edən nadir sənətkarlardan olub. Yüksək intellektə, mədəniyyətə malik, aktyor sənətinin yüksək texnikasına yiyələnmiş bu sənətkar bir-birindən maraqlı, bənzərsiz rollar yaradıb.

Məlik Dadaşovun Azərbaycan aktyorluq məktəbinin formalaşmasında xüsusi xidmətləri var. O, klassik və müasir aktyor sənətinin sintezindən yaranan bir ifa tərzi seçmişdi. "Axırıncı aşırım"dakı Qəmlo bütövlükdə kinomuzda yaddaqalan obrazlardandır. Bu obrazın bütün xarakterik cizgilərini ustalıqla açan aktyor filmin əsas dramatik yükünün daşıyıcısına çevrilir.



Tarixi keçmişimizdən bəhs edən "Dəli Kür" bədii filmində bir sıra canlı xarakterlər yaradılmış, qəhrəmanların daxili aləmi psixoloji dərinliklə açılıb göstərilmişdir. Belə canlı obrazlardan biri də sənətkarın böyük ustalıqla yaratdığı molla Sadıq surətidir. Molla Sadıq obrazından fərqli olaraq "Axırıncı aşırım" filminin personajı Qəmlo düşmənə qarşı açıq mübarizə aparır, heç kimə güzəştə getmir.

Görkəmli aktyor "Birisi gün, gecəyarısı", "O dünyadan salam", "Fəryad", "Hacı Qara" kimi filmlərdə də yaddaqalan və maraqlı obrazlara ekran həyatı verib.

"Ölülər"dəki Şeyx Nəsrullah rolunu o dəfələrlə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrın səhnəsində oynayıb. Çox vaxt deyirlər ki, M.Dadaşov mənfi tiplərin klassik ifaçısıdır. Şeyx Nəsrullah da, Qəmlo da, Molla Sadıq da mənfi tiplər idi. Amma siz bu rollarda aktyor məharətinə diqqət yetirin. Məlik Dadaşovun Şeyx Nəsrullahı özgə bir aləmdir. Bəlkə də, ona görə mərhum kinorejissor Tofiq Tağızadə "Ölülər" pyesi əsasında ekranlaşdırdığı "O dünyadan salam" filmində də Şeyx Nəsrullah rolunda Məlik Dadaşovu çəkmişdi.

Görkəmli aktyorun Azərbaycan mədəniyyətinə və incəsənətinə verdiyi dəyərli töhfələr onu hər zaman yaddaşlarda saxlayacaq, unudulmağa qoymayacaq.



## "Caspian Awards Azerbaijan 2021" mükafatı təqdim edilib

***Avand Production tərəfindən təşkil olunan "Caspian Awards Azerbaijan 2021" mükafatı sahiblərinə təqdim edilib.***

Mükafatlandırma gecəsində il ərzində fərqlənən, yadda qalan, peşəkar şəxs və şirkətlər mükafatlandırılıb.

Layihədə "Caspian Awards Azerbaijan 2021" mükafatına adına layiq görülənlər sırasında Xalq artististləri Mənsum İbrahimov, Elçin Həşimov , Fidan Haciyeva , Mələkxanım Əyyubova , Gülyanaq Məmmədova, Əməkdar artist Elnur Əhmədov, Əməkdar mədəniyyət işçisi Samirə Əliyeva, Aşıq Əli Tapqdıqoğlu, teleaparıcı Könül Muxtarova, müğənnilər Tunar Zeynalov, Ramil Nabran, Türkan Vəlizadə , Rüfət Axundov, Aynur Dadaşova, Leyla Ramazanli, TREND İA jurnalisti Vüqar İmanov və başqa tanınmış şəxslər yer alıb. Mükafatlandırma gecəsinin aparıcısı Azər Axşama olub. Mükafat karantin tələblərinə uyğun təqdim olunub.

Qeyd edək ki, lahiyə ölkəmizdə artıq üçüncü ildir ki, təşkil olunur. Lahiyənin rəhbəri Ayaz Məməmmədov, İcraçı prodüser Xəyal Əhmədov , Mədəniyyət işləri üzrə icraçı prodüser Nərminə Qafarlı , Dizayn və qrafika işləri üzrə prodüser Gunay Tapdiqova.

## "Sehrli üzük" tamaşası onlayn nümayiş olunacaq

***İyunun 11-də Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrı özünün sosial şəbəkəsindən "Sehrli üzük" tamaşasını nümayiş etdirəcək. Tamaşa teatrın yutub kanalında saat 12-də nümayiş olunacaq.***



"Unikal" xəbər verir ki, tamaşanın quruluşçu rejissoru Anar Məmmədov, quruluşçu rəssamı İqbal Əliyev, bəstəkarı Rəşid Şəfəqdir.

Uşaqlara dostluq, sədaqət, dürüstlük, ədalət, insanlara inam kimi müsbət keyfiyyətlər aşılayan tamaşa xeyrin şər üzərindəki qələbəsinin nümayişi olacaq.

Özünün maraqlı süjet xətti və ideyası olan nağıl nümunəsinə yeni prizmadan baxan, onu çağdaş elementlərlə daha baxımlı etməyə çalışan rejissor tamaşaya yeni yozum verib. Beləliklə, bütün mübarizələrin sonunda qələbənin mümkünlüyü uşaqların hiss edəcəyi tərzdə səhnə ifadəsini tapıb.

# Alüminium içki qabları təhlükəli ola bilər

***Həkimlər uzun müddətdir ki, şəkərli qazlı sulardan imtina etməyə çağırır. Bu onların kifayət qədər kalorili olduğuna, şəkər və turşuların dişlərə mənfi təsirinə görədir. Üstəlik, qazlı içki həvəskarları tez-tez həzm sistemi ilə problem yaşayır. Bununla belə, təkcə içkilər deyil, onların satıldığı alüminium qablar da insan orqanizmi üçün zərərli ola bilər.***

"Unikal" deyerler.org-a istinadən bildirir ki, alimlər 2017-ci ildə araşdırma apararaq, içki qabların səthində sağlamlıq üçün təhlükəli olan saysız-hesabsız bakteriyaların olduğunu, xüsusilə bağırsaq çöpünün olmasını aşkar edib. Bu səbəbdən belə qablarda içki alındığı zaman, onu içki çubuğu ilə və ya stəkana tökərək içmək daha yaxşıdır. Bundan əlavə, qablaşdırma zamanı çirklənmə əleyhinə "bisfenol A" eboksiddən istifadə olunur. Mütəxəssislər "bisfenol A"nın sızaraq içkiyə qarışa biləcəyini aşkar edib. Bu içkilərin içilməsi qan təzyiqinə səbəb ola bilər ki, bu da ürək xəstəliyi olan insanlar üçün təhlükəlidir.

# İshal yaradan qidalar

***Bəzi qidalar çox istifadə zamanı insanda ishala səbəb olar. Ancaq belə qidalar qəbizlik zamanı istifadə edilərsə mənfi təsir göstərməz.***

İmmunitet.az həmin qidaları təqdim edir:

Acı bibər - Mütəmadi istifadə zamanı ishala səbəb olur.

Gilas - Bol vitaminlə zəngin meyvədir. Minerallarla zəngin olan bu meyvə ilə qəbizliyin qarşısını ala bilərsiniz. Bağırsaq sistemini tənzimləyir. Ancaq çox yeyildiyi zaman bu sistem normadan artıq çalışaraq ishal yaradır.

Qatıq - ishalın qarşısını alan süd məhsulu hazır şəkildə marketlərdə satılır. Təbii olmayan belə hazır qatıqlara dadlandırıcılar qatıldığı üçün ishala səbəb ola bilər.

Cipsi - səhhət üçün zərərlidir. Həm artıq çəkiyə səbəb olan, həm də xərçəng riski daşıyan cipslərin tərkibində olan maddələr toxluq hissi verməz və mədəyə getmədən bağırsaqlara təsir göstərir.

Spirtli içkilər - vücuda daxil olan suya maneə yaradan spirtli içki maddələr mübadiləsini zəiflədərək həzm sisteminin çökməsinə və ishala səbəb olur.

Kafein - Yuxusuzluq, psixoloji narahatçılıqlar yaradır. Bununla yanaşı ishala da səbəb olur. Qəhvə orqanizmdəki maye tərəzisini poza bilər. Bu səbəbdən mütəmadi istifadə tövsiyə edilmir.

# Uşaqlarda depressiya

***Depressiya psixoloji sindromdur. Depressiya zamanı insanlarda əhval-ruhiyyənin aşağı düşməsi, fiziki və psixi aktivliyin azalması baş verir. Depressiyanın əmələ gəlməsinə emosional şok, qəfil kədər, psixomator funksiyanın pozulması və s. səbəb ola bilir.***

Depressiya uşaqlar və yeniyetmələr arasında da baş verə bilir. Bu onlarda ciddi problemlərin əmələ gəlməsinə səbəb ola bilir.

Uşaqlarda və yeniyetmələrdə depressiya aşağıdakı əlamətlərlə özünü biruzə verir:

* tənhalığa meyillik
* psixomator tormozlanma
* gərginlik
* əsəbilik
* tez-tez ağlama
* iştahanın itməsi
* ətrafdakılarla yola getməmək
* aqressivlik.

Yuxarıda sadalananların uzun müddət davam etməsi, uşaqlarda və yeniyetmələrdə yuxunun və ürək ritminin pozulmasına, vaxtaşırı temperaturun qalxmasına, ürəkbulanmaların baş verməsinə səbəb ola bilir. Belə uşaqlar öz ailələrinə isnişə bilmir, ona elə gəlir ki, evdə onu kimsə sevmir.

Depressiyalı uşaqlarda daima qorxu, həyəcan və gərginlik hissi olur. Uşaq və yeniyetmələrdə aşağıdakı hallarda depressiya baş verir:

* valideyinlərdən birini və ya hər ikisini itirdikdə
* dostundan ayrıldıqda
* yeni məktəbə adaptasiya ola bilmədikdə
* alkohol və ya narkotiklərdən istifadə edtikdə.

Yuxarıdakı əlamətlər olduğu zaman hər bir valideyindən övladına qarşı diqqətli olmaq və həkimə müraciət etmək tələb olunur.

# Təzyiqi endirən qidalar hansılardır? - Siyahı

***Yüksək təzyiq çox insanda müşahidə edilən xəstəlikdir. Artıq çəki, siqaret, stress və ürək problemləri yüksək təzyiqin yaranması üçün şərait yaradır.***

Bəs təzyiqi aşağı salmaq üçün nə edilməli?

Yüksək təzyiq damarlardakı qan dövranını normalda yuxarı hissəsinin 120, aşağı hissəsinin isə 80 olmasıdır. Uzunmüddətli yüksək təzyiqdən əziyyət çəkənlər beyin, böyrək, ürək və damar kimi bir çox xəstəliyə səbəb olur.

İmmunitet.az təzyiqi nəzarətdə saxlayan qidaları təqdim edir:

İlk olaraq meyvə, tərəvəz və süd məhsullarına diqqət etmək vacibdir.

Tərkibindəki liflər, potasium, maqnezium və digər minerallarla səhhətinizə diqqət etməyinizə kömək edəcək. Hər gün yaşıl yarpaqlı tərəvəzlərdən istifadə təzyiq xəstələrinə faydalıdır.



Brokoli, ispanaq, kartof, pomidor kimi tərəvəzləri təzyiqinizi endirmək üçün istifafə edə bilərsiniz.

Meyvələr də tərəvəzlər kimi lif, vitamin və mineral tərkibi ilə təzyiqi aşağı salmağa kömək edəcək. Təzə meyvə yerinə meyvə suyu içirsinizsə, suların yeni sıxılmış olmasına və şəkər tozu əlavə edilib-edilmədiyinə diqqət edin. Şəkər tozu tövsiyə edilmir.

Süd məhsulları kalsium, damar sağlığı, damar tıxanıqlığının qarşısını almaq üçün gərəkli minerallara sahibdir. Bu məhsullardan istifadə edərək təzyiqinizi normada saxlaya bilərsiniz.

Qeyd edək ki, istifadə edilən süd məhsullar yağsız olmalıdır.

Çiyələk, qovun, alma, banan, şaftalı, ananas yüksək təzyiqi tənzimləyən meyvələrdir.

Balıq, təzyiqi aşağı salmaq üçün proteinlə zəngin olan qidadır.

Badam, fındıq, qoz, fısdıq kimi qidalar yağ qaynağı olduğu üçün hər gün yeyə bilərsiniz.

Çoxlu duz təzyiqi yüksəldir. Duz əvəzinə qurudulmuş ədviyyatlardan istifadə edərək sodiumun zərərli təsirlərindən qoruna bilərsiniz.

# Uşaqlar niyə dırnaq yeyir? - Dırnaq yemə xəstəliyi

***Dırnaq yemə inadkar problemdir və müalicəsi çətindir. Səbəbi daha çox narahatlıq, stress, ailə daxilində gərginlik, valideyn davranışları, uşağın böyümə tərzi ilə əlaqədardır.***

İmmunitet.az xəbər verir ki, psixiatr Nurəddin Kargı, bu zaman valideynlərin ən çox etdiyi səhvin uşağa hirslənmək olduğunu qeyd edib:

"Uşağa əsəbləşən zaman o, bu hərəkəti etməyə davam edir. Hətta daha çox inadkar davranaraq təkrarlayacaq. Bu səbəbdən övladlarınız dırnaq yediyi zaman "dırnağını yemə" deyə hirslənməyin".

Dırnaq yemə vərdişində ailə faktoru çox mühüm rol oynayır. Mütəxəssis, bunun adətən uşaq yaşlarında meydana çıxdığını bildirib.

Bəs dırnaq yeyən uşağın əsas problemləri nə ola bilər?

Həkimin sözlərinə görə, bu mübahisəli məsələdir. Araşdırılmalı və danışılmalıdır. Kargı, belə zamanlarda "etmə", "əl çək" kimi sözlərin uşaqlara mənfi təsir edəcəyini deyərək valideynlərə tövsiyələr verib:

"Belə davranışlardan uzaq durun. Əvəzinə onları rahatlaşdıracaq sözlərdən üsullardan istifadə edin".



Psixiatr bu xəstəliyin çətin olsa da mümkün olduğunu vurğulayıb.

# Dəridə yaranan problem - Gül xəstəliyi

***Dəri problemi olan rozasea, yəni gül xəstəliyi xüsusilə açıq rəngli dərisi olan insanlarda daha çox meydana çıxır. Bu,estetik baxımından da gözəl görüntü bəxş etmir.***

İmmunitet.az xəbər verir ki, Türkiyənin dermatoloqu Hülya Sağlam, günəşin zərərli təsirləri, stress, soyuq havaların bu xəstəliyi yaratdığını bildirib.

Üzdə qızarıqlıq, yanma hissi, sızanağa bənzər şişliklər bu xəstəliyin əsas göstəricilərindəndir. Mütəxəssislər mədə xəstəlikləri, təzyiq, dəridə olan infeksiyaların da bu xəstəliyi yaratdığını qeyd ediblər. Həkim, gül xəstəliyinə yoluxan insanların uzunmüddət dərilərinə xüsusi diqqət etmələrini vacib bilib:

"Çünki üzdəki qızarıqlıqlar tamamilər keçmir. Dərinin xüsusi diqqətə ehtiyacı olur. Bəzən yaranan qızarıqlıqlar, sızanaqlar getsə də yenidən təkrarlanmaq ehtimalı yüksəkdir".



Sağlam, dünyada 100 nəfərdən üçünün gül xəstəliyindən əziyyət çəkdiyini bildirib.

"Açıq məkanlarda, inşaatda çalışanlar, açıq dəri rənginə sahib olanlar daha çox risk payına sahibdirlər. Həmçinin çox acı, ədviyyatlı yemək yeyənlər, şokolad, qaynar çay içənlər də bu təhlükəni daşıyırlar,-deyə dermatoloq vurğulayıb.

Əgər müalicə edilməzsə qızarıqlıqlar artaraq burun böyüklüyü, burunda yerləşən yağ kanallarının genişlənməsinə səbəb ola bilər. Həkim gül xəstəliyinə yoluxan insanlarda miqren, yüksək təzyiqin də yarana biləcəyini söyləyib.

Müalicəsindən bəhs edən dermatoloq, bunun xəstənin vəziyyətinə görə dəyişdiyini qeyd edib:

"Tibbi dərmanlarla və lazerlə müalicə edilə bilər. Şiddətinə görə, antibiotiklər, kremlərdən də istifadə edilməsi mümkündür".

Bəs gül xəstəliyindən necə qorunmalı?

İsti içkilərdən və qidalardan uzaq durmalı

Spirtli içkidən istifadə etməmək daha məsləhətlidir

Yay fəslində günəş kremlərindən istifadə

Dərini nəmli saxlayan kremlərdən mütəmadi istifadə etmək zəruridir.

# Avropa çempionatları tarixinin ən yaxşıları



***1960-cı ildən keçirilən Avropa çempionatı bu il 11 fərqli şəhərdə təşkil olunacaq.***

"Unikal" qəzetinin məlumatına görə, koronavirus pandemiyası səbəbindən bu ilə təxirə salınan AVRO-2020-də bir neçə rekordun qırılması qaçılmazdır.

Bəs indiyə qədərki Avropa çempionatlarında müxtəlif kateqoriyalar üzrə rekordlar "ən"lər kimlərə məxsusdur? Bu yazıda həmin göstəricilərlə sizi tanış edirik.

**FUTBOLÇULAR**

Ən çox oyun:
21 - Kriştiano Ronaldo (Portuqaliya)
18 - Bastian Şvaynştayger (Almaniya)
17 - Canluici Buffon (İtaliya)
Ən çox qol
9 - Mişel Platini (Fransa)
9 - Kriştiano Ronaldo (Portuqaliya)
7 - Alan Şirer (İngiltərə)
Bir oyunda ən çox qol:
3 - Diter Müller (1976. Qərbi Almaniya - Yuqoslaviya - 4:2)
3 - Klaus Allofs (1980. Qərbi Almaniya - Niderland - 3:2)
3 - Mişel Platini (1984. Fransa - Belçika - 5:0)
3 - Mişel Platini (1984. Fransa - Yuqoslaviya - 3:2)
3 - Marko van Basten (1988. Niderland - İngiltərə - 3:1)
3 - Serxio Konseysao (2000. Portuqaliya - Almaniya - 3:0)
3 - Patrik Klyuvert (2000. Niderland - Yuqoslaviya - 6:1)
3 - David Vilya (2008. İspaniya - Rusiya - 4:1)
Bir turnirdə ən çox qol:
9 - Mişel Platini (Fransa, 1984)
Ən erkən qol:
1 dəqiqə 7 saniyə: Dmitri Kiriçenko (Rusiya - Yunanıstan - 2:1. 2004)
Ən sürətli het-trik:
18 dəqiqə: Mişel Platini (Fransa - Yuqoslaviya - 3:2. 1984)
Ən gənc futbolçu:
18 yaş 71 gün: Jetro Villems (Niderland - Danimarka - 0:1. 2012)
Ən gənc qolçu:
18 yaş 141 gün: Yohan Vonlanten (İsveçrə - Fransa - 1:3. 2004)
Ən yaşlı futbolçu:
40 yaş 86 gün: Qabor Kirali (Macarıstan - Belçika - 0:4. 2016)
Ən yaşlı qolçu:
38 yaş 257 gün: İvitsa Vastiç (Avstriya - Polşa - 1:1. 2008)
Turnirə ən çox qatılanlar:
4 - Lotar Matteus (ADR/Almanya - 1980, 1984, 1988, 2000)
4 - Peter Şmeyxel (Danimarka - 1988, 1992, 1996, 2000)
4 - Alessandro Del Pyero (İtaliya - 1996, 2000, 2004, 2008)
4 - Edvin van der Sar (Niderland - 1996, 2000, 2004, 2008)
4 - Lilian Türam (Fransa - 1996, 2000, 2004, 2008)
4 - Olof Mellberq (İsveç - 2000, 2004, 2008, 2012)
4 - Canluici Buffon (İtaliya - 2004, 2008, 2012, 2016)
4 - Petr Çex (Çexiya - 2004, 2008, 2012, 2016)
4 - Kriştiano Ronaldo (Portuqaliya - 2004, 2008, 2012, 2016)
4 - Zlatan İbrahimoviç (İsveç - 2004, 2008, 2012, 2016)
4 - Andreas İsaksson (İsveç - 2004, 2008, 2012, 2016)
4 - Kim Çöllstrem (İsveç - 2004, 2008, 2012, 2016)
4 - Yaroslav Plaşil (Çexiya - 2004, 2008, 2012, 2016)
4 - Lukas Podolski (Almaniya - 2004, 2008, 2012, 2016)
4 - Tomaş Rositski (Çexiya - 2000, 2004, 2012, 2016)
4 - Bastian Şvaynştayger (Almaniya - 2004, 2008, 2012, 2016)
4 - Dario Srna (Xorvatiya - 2004, 2008, 2012, 2016)
Turnirlərin bombardirləri:
1960 - Fransois Hutte (Fransa), Viktor Ponedelnik, Valentin İvanov (hər ikisi SSRİ), Drajan Jerkoviç, Milan Qaliç (hər ikisi Yuqoslaviya) - 2 qol
1964 - Jezuş Mariya Pereda (İspaniya), Ferens Bene, Deşö Novak (hər ikisi Macarıstan) - 2
1968 - Draqan Djayiç (Yuqoslaviya) - 2
1972 - Herd Müller (Qərbi Almaniya) - 4
1976 - Diter Müller (Qərbi Almaniya) - 4
1980 - Klaus Allofs (Qərbi Almaniya) - 3
1984 - Mişel Platini (Fransa) - 9
1988 - Marko van Basten (Niderland) - 5
1992 - Henrik Larsen (Danimarka), Karl-Haynz Ridl (Almaniya), Dennis Berqkamp (Niderland), Tomas Brolin (İsveç) - 3
1996 - Alan Şirer (İngiltərə) - 5
2000 - Patrik Klyuvert (Niderland), Savo Miloşeviç (Yuqoslaviya) - 5
2004 - Milan Baroş (Çexiya) - 5
2008 - David Vilya (İspaniya) - 4
2012 - Fernando Torres (İspaniya), Alan Dzaqoyev (Rusiya), Mario Qomes (Almaniya), Mario Mandzukiç (Xorvatiya), Mario Balotelli (İtaliya), Kriştiano Ronaldo (Portuqaliya) - 3
2016 - Antuan Qrizmann (Fransa) - 6

**KOMANDALAR**

Kuboku ən çox qazananlar:
3 - İspaniya (1964, 2008, 2012)
3 - Almaniya/Qərbi Almaniya (1972, 1980, 1996)
Ən çox qatılan: (AVRO-2020 daxil deyil)
12 - Almaniya/Qərbi Almaniya
Bir turnirdə ən çox qol vuran:
14 - Fransa (1984)
Qruplarda ən çox qol vuran:
9 - Fransa (1984), Niderland (2008)
Qrupda ən çox qol buraxan:
10 - Yuqoslaviya (1984)
Ən uzunmüddətli qələbə seriyaları (seçmə mərhələ daxil)
14 - Almaniya (3 sentyabr 2010 - 22 iyun 2012)
12 - Fransa (25 iyun 2000 - 13 iyun 2004)

**OYUNLAR**

Ən məhsuldar:
Fransa - Yuqoslaviya - 4:5 (1960)
Ən böyük hesab:
Niderland - Yuqoslaviya - 6:1 (2000)
Fransa - Belçika - 5:0 (1984)
Danimarka - Yuqoslaviya - 5:0 (1984)
İsveç - Bulqarıstan - 5:0 (2004)
Ən məhsuldar bərabərlik:
Rusiya - Çexiya - 3:3 (1996)
Yuqoslaviya - Sloveniya - 3:3 (2000)
Macarıstan - Portuqaliya - 3:3 (2016)

Avropa çempionatına hələ də qatılmayan ölkələr: Finlandiya, Şimali Makedoniya (hər ikisi AVRO-2020-yə qatılacaq), Azərbaycan, Andorra, Ermənistan, Belarus, Bosniya və Herseqovina, Kipr, Estoniya, Farer adaları, Gürcüstan, Cəbəllütariq, İsrail, Qazaxıstan, Kosovo, Lixtenşteyn, Litva, Lüksemburq, Malta, Moldova, Monteneqro, San Marino.



## AVRO-2020: Bakıdakı ilk oyunun təyinatları açıqlandı

***Futbol üzrə Avropa çempionatının Bakıda keçiriləcək Uels - İsveçrə oyunu üçün təyinatlar açıqlanıb.***

"Unikal" qəzetinin məlumatına görə, qarşılaşma Fransadan olan hakimlər briqadasına tapşırılıb.

Referi Kleman Türpenə Nikolya Dano və Siril Qrenqor köməklik göstərəcək. 4-cü hakim funksiyasını serbiyalı Srcan Yovanoviç yerinə yetirəcək. VAR hakimi isə fransalı Fransua Leteksyedir.

Qeyd edək ki, iyunun 13-də Bakı Olimpiya Stadionunda keçiriləcək Uels - İsveçrə matçı saat 17:00-da başlayacaq.

AVRO-2020 iyunun 11-dən iyulun 11-dək olacaq. Bakıda həmçinin Türkiyə - Uels və Türkiyə - İsveçrə oyunları, eləcə də 1/4 final mərhələsinin 1 görüşü təşkil ediləcək.

## UEFA Ukraynadan siyasi şüarları formasından çıxarmağı tələb etdi

***Futbol üzrə Ukrayna millisinin Avropa çempionatı üçün hazırlanmış formaları dəyişdiriləcək.***

"Report" xəbər verir ki, UEFA bununla bağlı Ukrayna Futbol Assosiasiyasına göstəriş verib. Qurumdan siyasi şüarları yığmanın formasından çıxarması tələb olunub.

Formaların üzərində Krımın Ukrayna ərazisi kimi göstərilməsi və "Slava Ukraine!", "Qeroəm Slava!" ("Yaşasın Ukrayna! Qəhrəmanlara eşq olsun!") şüarlarının yer alması Rusiyanın narazılığına səbəb olmuşdu.

UEFA-dan bildirilib ki, BMT dövlətin müvafiq sərhədlərini tanıdığı üçün formadakı Ukrayna xəritəsi qitə futbol qurumunun qaydalarını pozmur. "Slava Ukraine!" şüarı da geyimdə qalacaq. Amma ikinci şüar ("Qeroəm Slava!") formadan çıxarılmalıdır. UEFA hesab edir ki, bu, birinci şüarla yanaşı yazılanda siyasi məna daşıyır.

Qeyd edək ki, Avropa çempionatı 11 iyun - 11 iyulda keçiriləcək. Rusiya millisi Belçika, Danimarka və Finlandiya ilə birlikdə B qrupunda, Ukrayna yığması isə Niderland, Avstriya və Şimali Makedoniya ilə birlikdə C qrupunda mübarizə aparacaq.

## Avropa Olimpiya Komitəsinin yeni prezidenti bilindi

***Avropa Olimpiya Komitəsinin (EOC) yeni prezidenti bəlli olub.***

"Unikal" qəzetinin məlumatına görə, bu posta Yunanıstan Olimpiya Komitəsinin prezidenti, Beynəlxalq Olimpiya Komitəsinin üzvü Spiros Kapralos seçilib.

Kapralos 34 səslə qalib olub. Onun rəqibi, qurumun sonuncu rəhbəri və Danimarka İdman Konfederasiyasının prezidenti Nils Niqaard 14 səs toplaya bilib.

Qeyd edək ki, Spiros Kapralos 2025-ci ilədək EOC-un prezidenti olacaq.

Səhifəni hazırladı: Aygün İlqarqızı